RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 228 (8251) ÇƏRŞƏNBƏ AXŞAMI, 15 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. İqtisadi sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu. Bu baxımdan sərmayə qoyuluşu, ölkələrimizin həyata keçirdiyi qlobal enerji layihələrinin rolu, həmçinin ötən il TANAP boru kəmərinin istifadəyə verilməsi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin fəaliyyəti vurğulandı.

Görüşdə müdafiə sənayesi, təhsil, turizm, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu. Söhbət zamanı ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə Görüşünün ölkələrarası əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi bildirildi.





## *Prezident İlham ƏLİYEV:* “Özbəkistan və Azərbaycan öz gələcəyini çox möhkəm, çoxəsrlik tarixi təməl üzərində qurur”

Oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin görüşü olub.

AZƏRTAC xəbər verir ki, Özbəkistan Prezidentini salamlayan Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Hörmətli Şavkat Miromonoviç, Sizi Azərbaycanda görməyimə çox şadam. Xoş gəlmisiniz.

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər bizim dostluq, qardaşlıq münasibətlərimizin inkişafına yeni təkan verəcək. Xalqlarımız arasında əlaqələr tarixin sınağından çıxıb. Özbək və Azərbaycan xalqları əsrlərboyu həmrəylik və sülh şəraitində yaşayıb, bir-birinə qardaş münasibəti bəsləyiblər. Bu, möhkəm təməldir. Bu gün müstəqil ölkələr olan Özbəkistan və Azərbaycan öz gələcəyini çox möhkəm, çoxəsrlik tarixi təməl üzərində qurur. Əminəm ki, bizim münasibətlərimizin durmadan inkişafı gələcək zəfərlərin rəhni olacaq. Biz həm qarşılıqlı siyasi əlaqələri, həm də iqtisadi əməkdaşlığı möhkəmləndirəcəyik. Nəqliyyat, energetika, turizm sahələrində çox yaxşı perspektivlər var. Biz bütün istiqamətlərdə fəal əməkdaşlığı, səmərəli nəticələri hədəf seçmişik.

Siz çox müdrik qərar qəbul etmisiniz, Özbəkistan Türk Şurasına qoşulub. Buna görə Sizə təşəkkür etmək və Türk Şurası üzvlərinin ümumi məmnunluğunu bildirmək istərdim. Biz bunu tarixi hadisə hesab edirik, bu, heç şübhəsiz, bizim həmrəyliyimizi, qarşılıqlı əlaqələrimizi, əməkdaşlığımızı möhkəmləndirəcək. Əminəm ki, sabahkı sammit Şura üzvü olan bütün ölkələr arasında münasibətlərin daha da inkişafına və həmrəyliyə xidmət edəcək. Azərbaycana xoş gəlmisiniz.



* * *

Özbəkistan Prezidenti **Şavkat MİRZİYOYEV** dedi:

- Hörmətli İlham Heydər oğlu, Sizə bir daha çox təşəkkür edirəm. Təyyarədən Azərbaycana yenicə düşmüşəm və çox səmimi münasibət hiss edirəm. Bu, həqiqətən tarixi səfərdir. Bizim bu Şuraya daxil olmaq barədə qərar qəbul etməyimizin 3 ili tezliklə tamam olacaq. Keçən il həmkarlarımın çoxu deyirdi: “Gəlin, bu sənədi Çolpon-Atada imzalayaq, orada bayraq qaldıraq”. Dedim ki, mənim öz fikrim var. Naxçıvan Sazişinin 10 illiyi tamam olacaq. Bu, tarixi hadisədir. Sizə çox təşəkkür edirəm ki, Siz də məni dəstəklədiniz. Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin qədim, möhkəm kökləri var. Bu əlaqələr uzun tarixə malikdir. Zənnimcə, bütün bunları dirçəltməyin vaxtı çatıb. Biz Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevlə həmişə fəxr edirik. Özbəkistanda onu xatırlayır və ehtiramla yad edirlər, çünki o, həqiqətən böyük şəxsiyyət olub.

*Ardı 2-ci səh.*

# *Prezident İlham ƏLİYEV:* “Özbəkistan və Azərbaycan öz gələcəyini çox möhkəm, çoxəsrlik tarixi təməl üzərində qurur”

*Əvvəli 1-ci səh.*

Onunla yanaşı işləmiş adamlarla çox söhbət etmişəm. O, özbək xalqına həmişə hörmətlə yanaşıb. Şərəf Rəşidoviç ilə çox görüşüblər, çox çətin məsələləri həll ediblər. Onların bu gün sağ olan məsləkdaşları indiyə qədər fəxrlə deyirlər ki, Heydər Əliyev bütün hallarda Özbəkistan haqqında hörmətlə danışır, hər yerdə onu dəstəkləyirdi. Bizdə “özbək işi” qaldırılan çətin illərdə Heydər Əliyevin özbək xalqı haqqında şəxsi fikri vardı. Bu gün biz fəxr edirik ki, Heydər Əliyevin oğlu bu böyük işi davam etdirir.

Bu gün Azərbaycan firavanlaşır. Bilirsiniz ki, biz yaxın qonşularıq və Sizin uğurlarınıza sevinirik. Həmişə fəxr edirik ki, bizə qardaş olan Azərbaycanın beynəlxalq nüfuzu artır, iqtisadiyyatda uğurlar var. Biz bu uğurları görəndə hesab edirik ki, bu, Sizin uzaqgörən siyasətinizin nəticəsidir. Bu uğurlar Sizin Azərbaycanın sabahını görməyinizin nəticəsidir. Biz buna həmişə sevinirik. Əlbəttə, Siz çox düzgün dediniz ki, biz artıq təzə səhifədən başlamalıyıq. Mən bu səfərə tək gəlməmişəm, çünki biz Azərbaycan üçün darıxmışıq. Bilirsinizmi, hamı səbirsizliklə gözləyir, görək, nə vaxt imzalanma başlanacaq. Yolda gələndə təyyarədə nazir mənə dedi ki, biz dəyəri 390 milyondan çox olan kontraktlar hazırlamışıq.

- Nümayəndə heyətinin üzvü: “Artıq 432 milyondur”.

**Prezident Şavkat Mirziyoyev:** Siz düzgün dediniz ki, bizim perspektivli istiqamətlərimiz çoxdur. Energetika, neft-qaz sahələri haqqında dediklərinizlə razıyam. Biz Sizinlə söhbət etmişik. İndi biz SOCAR üçün ərazi ayırmışıq. Mən bizimkilərə demişəm, elə yerlər, elə ərazilər ayırsınlar ki, biz bu ciddi şirkətlə uzun müddət əməkdaşlıq edə bilək. İkincisi, bu gün mənə məruzə etdilər ki, onlar çox ciddi danışıqlar aparıblar, hər şey barədə razılaşıblar və həqiqətən, neft-qaz sahəsində qarşılıqlı faydalı əməkdaşlığın real perspektivləri var. Bu, normal kursdur, bu sahədə irəliləyiş var və biz bunu yalnız dəstəkləyəcəyik.

Daha bir mühüm istiqamət, - Sizin artıq qeyd etdiyiniz kimi, - nəqliyyat-kommunikasiya sahəsində münasibətlərdir. Bakı-Tbilisi-Qars dəmir yolu bizim üçün böyük əhəmiyyət kəsb edir. Bizim şirkətlərin çoxu artıq bu yolu tanıyır və Özbəkistan əmtəə dövriyyəsini artırmağı qarşısına hədəf qoyub. Mən çox istərdim ki, Siz tapşırıq verəsiniz, - bütün nazirlər burada əyləşiblər, - Türkmənbaşı-Ələt bərə xəttinə limanda



preferensiyalar verilsin. Ona görə ki, bizdə də əmtəə dövriyyəsi artır, iqtisadiyyat yavaş-yavaş dirçəlir, istərdik ki, bütünlüklə bu istiqamətə üstünlük verilsin.

Mədəni-humanitar əlaqələr məsələsinə gəlincə, bizim əməkdaşlığı möhkəmlətməyimiz taleyimizə yazılıb. Biz daha çox görüşlər, konfranslar keçirməli, hər şey barədə danışmalıyıq. Bizim ortaq cəhətlərimiz çoxdur, bizi Əlişir Nəvai və Nizami Gəncəvi birləşdirir. Sizə təşəkkür edirəm ki, Mədəniyyət nazirinizi bizim tədbirlərə göndərirsiniz. Bu il o, iki dəfə bizdə olub. Yeri gəlmişkən, bizdə beynəlxalq Baxşi sənəti festivalı keçirilib. Bu festivalda Azərbaycan nümayəndələri mükafata layiq yerlər tutublar. Demək istəyirəm ki, biz bir-birimizi eşidəndə, görüşəndə əməkdaşlıq istiqamətlərini özümüz tapırıq.

Biz bu səfəri çoxdan gözləyirdik. Biz buraya çox böyük istəklə və qardaş Azərbaycan xalqına sevgi ilə gəlmişik. Mən bu qədər adamı hədər yerə gətirməmişəm. Gətirmişəm ki, onlar həqiqətən səmərəli işləsinlər. Sizi özünüz üçün münasib olan istənilən vaxtda Özbəkistana dəvət edirəm. Ona görə ki, Siz çoxdan bizdə olmamısınız və biz çox istəyirik ki, Sizin üçün münasib olan istənilən vaxtda Özbəkistana gələsiniz, bizim münasibətlərimiz yeni məzmunla zənginləşsin. Sonra isə mən Azərbaycana hökmən səfər edəcəyəm.

* * *

**Prezident İlham Əliyev:** Çox sağ olun, hörmətli Şavkat Miromonoviç.

Mən, ilk növbədə, ölkəmiz barədə dediyiniz xoş sözlərə görə Sizə təşəkkür etmək istərdim. Bilirsiniz ki, biz də Özbəkistanda Sizin rəhbərliyinizlə həyata keçirilən dəyişiklikləri diqqətlə izləyirik. Sizin islahatlara, Özbəkistanın coşqun inkişafına yönəlmiş səyləriniz öz səmərəsini verir. Bu gün Sizin ölkəniz haqlı olaraq böyük beynəlxalq nüfuz qazanıb, iqtisadiyyatda və sosial sahədə apardığınız islahatlar təkcə Özbəkistan vətəndaşları arasında deyil, bizdə də böyük əks-səda doğurur. Çünki biz dostlar, qardaşlar kimi həmişə bir-birimizin uğurlarına sevinirik.

Heydər Əlirza oğlu Əliyev haqqında dediyiniz xoş sözlərə görə çox sağ olun. Siz tamamilə haqlısınız. O, özbək xalqına böyük hörmət və məhəbbət bəsləyirdi. Mən hələ yeniyetmə idim, onun Şərəf Rəşidoviç Rəşidovla sıx dostluq münasibətlərinin şahidi olmuşam. Onlar qardaşcasına dostluq edirdilər və yadımdadır, qondarma yenidənqurma illərində müəyyən dairələrin törətdiyi ədalətsizlik ona çox mənfi təsir göstərmişdi. Söhbət “özbək işi” adlandırılan məsələ barədə idi. Bunu edən “məşhur” adamlar Qdlyan və İvanov idilər. Onlar təkcə Özbəkistana deyil, hesab edirəm ki, bizim hamımıza çox böyük ziyan vurdular. Ona görə ki, bu, Sovet İttifaqının türkdilli respublikalarına qarşı məqsədyönlü şəkildə təşkil edilmiş hücum idi. Bu hücum Azərbaycandan da yan keçmədi, burada da təxminən eyni əməlləri həyata keçirməyə çalışırdılar, lakin bunun üçün, sadəcə, vaxtları çatmadı.

Münasibətlərimizin gələcəyi barədə isə Siz bizim əməkdaşlıq edəcəyimiz məsələləri çox geniş və ətraflı səciyyələndirdiniz. Əminəm ki, bu gün biz yeni istiqamətlər müəyyənləşdirəcəyik və hər bir istiqamət üzrə bu gün və sabah müvafiq qurumlar görüşəcəklər, müzakirələr aparacaqlar və bizi yaxşı nəticələrə doğru yönəldəcəklər. Dəvətə görə sağ olun. Yenidən məmnuniyyətlə qardaş Özbəkistana səfər edərəm.

* * *

**Prezident Şavkat Mirziyoyev:** Başlıcası, Siz Özbəkistanın həmişə - əvvəllər də, indi də Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bilirsiniz və Siz buna əmin olmalısınız. Bu, bizim səmimi arzumuzdur. Çünki Azərbaycanın ərazi bütövlüyü çox mühümdür. Hər şey sülh yolu ilə olmalıdır, Birləşmiş Millətlər Təşkilatının bütün qərarları yerinə yetirilməlidir. İlham Heydər oğlu, biz bunu həmişə dəstəkləmişik və gələcəkdə də mütləq dəstəkləyəcəyik. Çünki bu, bizim qardaş Azərbaycanla bağlı niyyətimizdir.

**Prezident İlham Əliyev:** Sağ olun.

# Qırğızıstan Azərbaycana qardaş ölkədir, yaxşı dost, tərəfdaşdır





Oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, Qırğızıstan Prezidentini salamlayan Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Hörmətli Sooranbay Şaripoviç.

Sizi Azərbaycan torpağında salamlamağa şadam. Biz Sizinlə artıq bir neçə gün əvvəl MDB Sammiti çərçivəsində görüşmüşük. Bu gün biz Sizi Azərbaycanda qəbul edirik. Çox şadam ki, Siz bizə səfər etmisiniz.

Biz sabah sammit keçirəcəyik, amma bu gün görüşüb bizim ikitərəfli münasibətlərimizin perspektivlərini müzakirə etmək üçün yaxşı imkan var. Biz Sizinlə bu məsələləri artıq keçən il Qırğızıstanın Türk Şurasına üzv olan dövlətlərin başçılarının samitini qəbul edərkən müzakirə etmişik. Həmin vaxt biz Sizinlə ikitərəfli məsələlərin geniş spektrini müzakirə etdik. Xatırlayıram ki, söhbət çox məhsuldar idi. Bu gün biz dialoqumuzu davam etdiririk. Əminəm ki, bugünkü görüş çərçivəsində biz gələcək qarşılıqlı fəaliyyətin həm siyasi, həm iqtisadi, həm humanitar, həm də digər sahələrdə vacib məsələlərini müzakirə edəcəyik.

Bizim üçün Qırğızıstan qardaş ölkədir, yaxşı dost, tərəfdaşdır. Əminəm ki, əlaqələrimiz gələcəkdə yalnız möhkəmlənəcək. Həmçinin fürsətdən istifadə edərək Sizə Türk Şurasına səmərəli sədrliyə görə təşəkkürümü bildirmək istərdim. Azərbaycan estafeti Qırğızıstandan qəbul edir. Görülən belə yaxşı işlər üzərində biz gələn il ərzində ölkələrimiz arasında həmrəyliyi, qarşılıqlı dəstəyi möhkəmləndirməyə, həmçinin əməkdaşlığımızı real məzmunla zənginləşdirməyə səy göstərəcəyik. Əminəm ki, səfəriniz çox məhsuldar, uğurlu olacaq, bir qədər Azərbaycanla tanış olacaqsınız. Bir daha xoş gəlmisiniz. Sizə ən yaxşı arzularımı bildirirəm.

* * *

Qırğızıstan Prezidenti **Sooronbay JEENBEKOV** dedi:

- Səmimi sözlərə görə çox sağ olun, hörmətli İlham Heydər oğlu, görüşümüzə çox şadam. Biz böyük məmnuniyyətlə Sizinlə Bakı şəhərində Türk Şurasının VII Sammiti çərçivəsində görüşürük. Bu, yubiley tarixi hadisədir. Biz əminik ki, sammit çox yüksək səviyyədə keçəcək.

Mən Sizin siyasi iradəniz sayəsində bu yaxınlarda Hökumətlərarası Komissiyanın iclasının uğurla baş tutduğunu xüsusilə qeyd etmək istəyirəm. Siz tərəfdən orada Baş Nazirin birinci müavini iştirak edib. Mən də Baş Nazirin birinci müavini Yaqub Abdulla oğlunu qəbul etdim. Çox maraqlı, təcrübəli, etibarlı insandır. Biz onunla bir çox məsələləri uzun müddət müzakirə etdik. Əminəm ki, bu iclas bizim ikitərəfli münasibətlərimizə, xüsusilə ticari-iqtisadi sahədə münasibətlərimizə yeni impuls verəcək.

Bu yaxınlarda Sizin qızınız Leyla Əliyeva bizdə olub. O, bizim xalqda çox yaxşı təəssürat doğurub. O, Olimpiya Komitəsi rəhbərlərinin forumunda iştirak edib. O, mənə şeirlər toplusu kitabını hədiyyə edib və İssık-Kul haqqında şeir yazıb. O, səmimi və istedadlı qızdır. Allah cansağlığı versin.

Sizin bildiyiniz kimi, biz də ikitərəfli münasibətlərimizin inkişafına çox böyük əhəmiyyət veririk. Sizin dediyiniz kimi, biz qardaş, dost ölkələrik. Biz həmişə münasibətlərimizi dəyərləndirir və qiymətləndiririk. Həmişə münasibətlərimizin inamla, fəal və qarşılıqlı maraqlar əsasında inkişaf etməsinə çalışırıq. Bir daha səmimi qəbula və hava limanında dostlarımızın göstərdikləri qonaqpərvərliyə görə sağ olun. Biz orada dost azərbaycanlıların səmimiyyətini hiss etdik. Çox sağ olun.

Görüşdə bu yaxınlarda Bişkekdə Hökumətlərarası Komissiyanın iclasının keçirildiyi qeyd edildi. Söhbət zamanı iqtisadi, ticarət və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu.

# Macarıstan və Azərbaycan arasında münasibətlər indi çox yüksək səviyyədədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Macarıstanın Baş Naziri Viktor Orban ilə görüşüb.

Macarıstanın Baş Nazirini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, cənab Baş Nazir. Sizi Azərbaycanda görməyimə çox şadam. Çox şadam ki, Siz sabah sammitdə iştirak edəcəksiniz. Bu, həm də çox müsbət olan ikitərəfli gündəliyimizi müzakirə etmək üçün yaxşı fürsətdir. Ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Mən sizin ölkəyə səfərimi və bizim söhbətlərimizi, həmçinin Avropa İttifaqının tədbirləri çərçivəsində görüşlərimizi xatırlayıram. Sevindirici haldır ki, Macarıstan və Azərbaycan arasında münasibətlər indi çox yüksək səviyyədədir. Əminəm ki, bu səfərdən sonra biz tərəfdaşlığımıza yeni təkan verəcəyik.

* * *

Macarıstanın Baş Naziri **Viktor ORBAN** dedi:

- Cənab Prezident, bizi burada qəbul etdiyiniz üçün çox sağ olun. Macarlar üçün





həmişə sizin paytaxt şəhərinizə gəlmək və illər öncəyə təsadüf edən dostluğumuzu daha da gücləndirmək şərəfdir. Macarıstan on il bundan əvvəl ölkənin o qədər də yaxşı iqtisadi durumda olmadığı bir vaxtda sizin yardımınızı və bütün mənalarda göstərdiyiniz dəstəyi xatırlayır. Biz bunu yüksək qiymətləndiririk. Diplomatik əməkdaşlığımız çox yaxşıdır, biz bunu belə söyləyə bilərik. İndi isə hesab edirəm, növbəti mərhələ ondan ibarətdir ki, biz iki ölkə arasında olan iqtisadi əməkdaşlığı daha da artırmalıyıq. Bizim artıq burada yaxşı sərmayə qoyuluşlarımız, yaxşı əməkdaşlığımız var. Hesab edirəm ki, iqtisadi cəhətdən iki ölkə arasında əməkdaşlıq çox ümidvericidir. Bizi burada qəbul etməyinizi və Macarıstana münasibətdə xoşməramlı və xoşniyyətli olmağınızı yüksək qiymətləndiririk.

Prezident **İlham ƏLİYEV**: Çox sağ olun.

* * *

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi üçün Macarıstanın göstərdiyi dəstək yüksək qiymətləndirildi, iqtisadi, ticarət, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

# Nursultan NAZARBAYEV: "Azərbaycanda hər şey öz axarında gedir. Başlıcası budur ki, xalq Sizin kursunuzu dəstəkləyir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Qazaxıstan Respublikasının birinci Prezidenti-Elbası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayevlə görüşüb.

AZƏRTAC xəbər verir ki, elbası Nursultan Nazarbayevi salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Hörmətli Nursultan Abişeviç.

Sizi yenidən görməyimə çox şadam. Azərbaycana xoş gəlmisiniz. Sizi - Qazaxıstanın birinci Prezidentini Sizə çox tanış və doğma olan Azərbaycan torpağında qəbul etmək böyük şərəfdir. Mən bu yaxınlarda Sizin ölkəmizə rəsmi səfərinizi və mənim Qazaxıstana səfərim çərçivəsində, beynəlxalq meydanlarda görüşlərimizi xatırlayırdım. Bizdə - Azərbaycanda Sizi ölkəmizin, Azərbaycan xalqının böyük dostu kimi tanıyırlar. Siz beynəlxalq əməkdaşlığın bir çox meydanlarında həmişə bizə dəstək göstərmisiniz. Münasibətlərimizin möhkəmləndirilməsi işinə verdiyiniz böyük töhfəni Azərbaycanda çox yüksək qiymətləndirirlər. Siz Heydər Əliyevlə birgə münasibətlərimizin qurulmasının təməlində dayanmısınız. Həmçinin mən Prezident vəzifəsini icra etməyə yenicə başlayandan Sizinlə ünsiyyət təcrübəsi mənim üçün çox dəyərli olub. Siz həmişə mənə dəstək göstərmisiniz və aramızda yaxın, deyərdim ki, doğma münasibətlər qurulub. Türkdilli ölkələrin həmrəyliyinin möhkəmləndirilməsi işinə töhfəniz də çox böyükdür. Türk Şurasının yubiley Sammitinin Bakıda keçirilməsindən çox məmnunuq. Siz türk dünyası birliyinin möhkəmləndirilməsi işinə yönəlmiş bir çox təşəbbüslərin və addımların təməlində dayanmısınız. Bir daha xoş gəlmisiniz. Dəvəti qəbul edib səfərə gəldiyinizə görə sağ olun.

Qazaxıstanın birinci Prezidenti-Elbası **Nursultan NAZARBAYEV** dedi:

- İlham Heydər oğlu, sağ olun. Həqiqətən də mən müstəqillik illərində, deyəsən, doqquzuncu dəfədir Bakıya gəlirəm. Burada əvvəllər də olmuşam. Sovet dövründə də Heydər Əlirza oğlu ilə bizim ayrıca münasibətlərimiz olub və bu münasibətlər Sizinlə də davam edir. Bizim başladığımız münasibətləri Sizinlə davam etdirirəm. Hər dəfə Bakının necə gözəlləşdiyini görürəm. Mən bunun nə demək olduğunu yaxşı bilirəm. Mən paytaxtı sıfırdan inşa etdim. Siz qədim şəhəri yenidən qurdunuz, bu, daha çətindir. Bu gün Bakının siması, eləcə də havası, şübhəsiz ki, gözəl və təmizdir. Müasir binalar inşa edilib, bu, ölkənin, dövlətin inkişafından xəbər verir. Sözün düzü, qüdrətli qardaş Azərbaycan məni çox sevindirir. Əgər Heydər Əlirza oğlu indi bunları görsəydi, əlbəttə, çox heyran qalardı.



Bizim münasibətlərimiz davam edir. Mən ilk dəfədir ki, buraya Prezident qismində deyil, bizdə deyildiyi kimi, millətin lideri, millətin atası kimi, Konstitusiyanın mənə verdiyi müəyyən səlahiyyətlər çərçivəsində gəlirəm. Mənim varis seçdiyim və təklif etdiyim, xalq tərəfindən seçilmiş Prezidenti dəstəkləyərək onunla birlikdə nə edəcəyimiz - müstəqilliyimizi möhkəmləndirmək, iqtisadiyyatı inkişaf etdirmək və bununla da xalqın rifahını yaxşılaşdırmaq istiqamətində işləyirik.

İlham Heydər oğlu, Sizin Qarabağla, Ermənistanla münasibətlərlə bağlı çətin məsələləriniz az olmayıb. Ümumiyyətlə, Azərbaycanın coğrafi mövqeyi hamı üçün maraqlıdır. Lakin qeyd etməliyəm ki, mən qiymət verməyə çalışmıram, amma mənim həyat, siyasi və yaş təcrübəmdən çıxış edərək deməliyəm ki, Azərbaycanda hər şey öz axarında gedir. Başlıcası budur ki, xalq Sizin kursunuzu dəstəkləyir. Prezident və xalq yekdil olduqda xalqın öhdəsindən gələ bilməyəcəyi güc yoxdur. Buna görə Sizi təbrik edirəm. Münasibətlərimizə gəldikdə isə onları davam etdirmək lazımdır. İndi imkanlar daha böyükdür. Amma hər halda Xəzər dənizi ilə ticarətimiz yetərincə deyil. Hərçənd ötən ildə artım yaxşı olub, 58 faiz təşkil edib. Lakin həcm böyük deyil. Odur ki, hökumətlərimiz nə ilə ticarət etməyin və nəyin tədarük olunması üzərində bir daha çalışmalıdırlar. Logistika yaxşı vəziyyətdə olmayıb. İndi biz sizin vasitənizlə, Qafqazdan keçməklə Qars-Axalkalaki yolu ilə Türkiyəyə, Avropaya çıxa bilərik. Lakin bərə yolları da genişlənib. Biz də öz infrastrukturumuzu Çinə, Sakit okeanadək inkişaf etdirmişik. Beləliklə, heç bir siyasi və digər problemlər olmadan ticari və siyasi münasibətləri inkişaf etdirmək üçün bütün imkanlarımız var.

Sabah mənim 10 il əvvəl Naxçıvanda təklif etdiyim Türk Şurası toplanacaq. Sağ olun ki, mənə fəxri sədr olmağı təklif etdiniz. İlham Heydər oğlu, bunu məmnuniyyətlə qəbul edirəm, çünki bizim dövlətlərimizin münasibətlərinin möhkəmlənməsinə, türkdilli ölkələrin birgə inkişafına kömək etmək istəyirəm. Artıq türkdilli ölkələr sözlərinin nəsə başqa bir formasına, türk dövlətlərinə keçmək haqqında düşünmək lazımdır. Dəvətə görə təşəkkür edirəm. Qazaxıstanda Azərbaycanı diqqətlə izləyir, sevir, hörmət edir, qiymətləndirirlər. Biz bu dövlətin yaxşı inkişafını müşahidə edirik. İlham Heydər oğlu, Sizə uğurlar arzu edirəm.

Prezident **İlham ƏLİYEV:** Ölkəmiz haqqında xoş sözlərə görə çox sağ olun, Nursultan Abişeviç. Öz növbəmdə, demək istərdim ki, biz şəhər quruculuğunda sizin gözəl Nur-sultan şəhərinin tikintisi üzrə təşəbbüslərdən nümunə götürmüşük. Bu şəhər haqlı olaraq Sizin adınızı daşıyır, çünki Siz onu sıfırdan tikmisiniz. Nur-sultan şəhərində tez-tez olaraq mən sürətli dəyişiklikləri görmüşəm. Bir-iki ildən sonra gələrkən, sanki yeni şəhərə gəlirsən. Xüsusilə keçən dəfə Ekspoda olarkən tikintinin miqyasından, memarlıq ustalığının səviyyəsindən və düşünülmüş quruculuqdan heyrətə gəldim. Mən bilirəm ki, Nursultan şəhərində ucaldılan hər bir binanın, bəlkə də yetişdirilən hər bir ağacın arxasında şəxsən Siz dayanmısınız. Sizin tövsiyəniz, təlimatınız olmadan, əlbəttə ki, bu şəhərsalma ansamblı indi göründüyü kimi belə möhtəşəm görünməzdi və orada yaşayanlar üçün rahat olmazdı. Buna görə də düşünürəm ki, bir çox ölkələr üçün Nur-sultan şəhəri özündə modernizmi, ənənələri, həmçinin rahatlığı cəmləşdirən müasir şəhərsalma nümunəsidir. Əlbəttə ki, bu gün beynəlxalq məsələlərdə mühüm rol oynayan, fəal inkişaf edən Qazaxıstanın uğurları Sizin adınızla bağlıdır. Qazax xalqının, bizim qardaşlarımızın bəxti gətirib ki, müstəqilliyin astanasında Siz dayanmışdınız. Bunun sayəsində Qazaxıstan bizim və SSRİ-nin digər respublikalarının payına düşən bir çox sarsıntılardan yan keçib. Həmin yerlərdə müstəqilliyin ilk illərində hakimiyyətə bacarıqsız qüvvələr gəlmişdi. Buna görə də biz Sizin Qazaxıstanın inkişafına töhfənizi, Sizin ölkəmizə münasibətinizi çox yüksək qiymətləndiririk. Mən bilirəm ki, Azərbaycanın üzv olmadığı beynəlxalq təşkilatlar çərçivəsində Siz həmişə bizi müdafiə etmisiniz, dəstəkləmisiniz. Bunu Azərbaycanın hər bir vətəndaşı bilir, Sizə böyük hörmət və sevgi ilə yanaşır. Sizi görməyimə çox şadam. Şadam ki, Siz ölkənizin rifahı naminə öz aktiv fəaliyyətinizi davam etdirirsiniz.

## Prezident İlham Əliyev Türk Şurasının VII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları ilə birgə şam edib

AZƏRTAC xəbər verir ki, oktyabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları ilə birgə şam ediblər.



## Şahmatçı Aydın Süleymanlıya

Əziz Aydın!

Hindistanda oğlanlar və qızlar arasında keçirilən şahmat üzrə dünya çempionatında 14 yaşlılar arasında qələbə qazanmağın münasibətilə səni ürəkdən təbrik edirəm.

Sən ilk turlardan yarışa liderlik edərək turniri qələbə ilə başa çatdırdın və həmyaşıdların arasında şahmat üzrə dünya çempionu adını qazanaraq şahmat tariximizdə daha bir parlaq səhifə açdın.

Sənə ən xoş arzularımı yetirir, yeni-yeni qələbələr diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 oktyabr 2019-cu il*

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA: "Şahmatçımız Aydın Süleymanlının qalib olması xəbəri hər birimizə ancaq qürur və sevinc hissi yaşada bilər"



Yeniyetmə şahmatçımız Aydın Süleymanlının Hindistanda 14, 16 və 18 yaşlı oğlanlar və qızlar arasında keçirilən şahmat üzrə dünya çempionatının qalibi olması xəbəri hər birimizə ancaq qürur və sevinc hissi yaşada bilər.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində qeyd edilir.

Paylaşımda deyilir:

"Dünya çempionu titulu uğrunda yarışlarda qələbə qazanmağı münasibətilə Aydını ürəkdən təbrik edir, ona yeni-yeni nailiyyət və qələbələr arzulayıram!"

## Azərbaycanla Qazaxıstan arasında münasibətlər çox müsbət istiqamətdə inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimovun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Serjan Abdıkarimov fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Serjan Abdıkarimov etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident **İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab səfir, hörmətli qonaqlar.

Sizi Azərbaycanda salamlamağa şadam. Sizə ölkəmizdə uğurlu iş arzulayıram. Əminəm ki, münasibətlərimizin daha da irəliləməsi və inkişafı üçün maksimum səy göstərəcəksiniz. Bildiyiniz kimi, ölkələrimiz arasında münasibətlər çox müsbət istiqamətdə inkişaf edir.

Azərbaycan ilə Qazaxıstan arasında müasir münasibətlərin əsası ölkələrimizin böyük liderləri Heydər Əliyev və Nursultan Nazarbayev tərəfindən qoyulub. Hələ sovet dönəmində onların şəxsi dostluğu və müstəqillik illərində bir-birini qarşılıqlı dəstəkləməsi bizim münasibətlərin təməli olub və bu münasibətlər strateji səviyyəyə çatıb. Son 16 ildə Nursultan Abişeviçlə biz münasibətlərimizi daha da irəlilətmişik, dövlət başçıları səviyyəsində bir neçə səfər olub. Yadımdadır, 2004-cü ildə yeni seçilmiş Prezident kimi mənim ilk rəsmi səfərlərimdən biri, daha dəqiq desəm, sayca üçüncü rəsmi səfərim Qazaxıstana oldu. Bu, bizim münasibətlərin xarakterini vurğulayırdı. Oktyabr ayı yüksək səviyyədə görüşlər baxımından çox məhsuldar olub. Bu ay ərzində mən Prezident Tokayevlə iki dəfə - "Valday" forumunda və MDB sammitində görüşmüşəm. Bu baxımdan bizim ilk əlaqələrimiz də çox ümidvericidir. Prezident Tokayevlə bir-birimizi çoxdan tanıyırıq və həm Azərbaycanda, həm də Qazaxıstanda müxtəlif beynəlxalq tədbirlərdə görüşmüşük. Bu gün biz çox şadıq ki, Nursultan Abişeviç Nazarbayev bizə səfərə gələcək, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iclasında bu mühüm təşkilatın rəhbəri kimi iştirak edəcək.

Bizim münasibətlərimiz zamanın sınağından çıxıb, həyatın demək olar ki, bütün sahələrini - iqtisadiyyat, energetika, nəqliyyat və humanitar sahələri əhatə edir. Buna görə də əminəm ki, münasibətlərimizin inkişaf perspektivləri çox müsbət olacaq. Biz bundan sonra da beynəlxalq arenada bir-birimizi dəstəkləyəcək, ikitərəfli formatda müştərək layihələri həyata keçirəcəyik. Əlbəttə ki, Azərbaycanda işiniz çox olacaq. Münasibətlərimizin gündəliyi yetərincə zəngindir. Buna görə də sizə uğurlar arzu edirəm. Əminəm ki, Azərbaycanda özünüzü evinizdəki kimi hiss edəcəksiniz. Bir daha xoş gəlmisiniz.



* * *

Səfir **Serjan Abdıkarimov** dedi:

- Hörmətli cənab Prezident.

İlk növbədə, bizim Elbasının və Prezident Tokayevin Sizə səmimi salamlarını çatdırmaq istərdim. Ortaq türk mənşəli, ortaq dini, dili, mədəni və mənəvi əlaqələri olan qardaş dövlətlərimiz və xalqlarımız arasında hərtərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün bütün bilik və səylərimi sərf edəcəyəm. Öz tərəfimdən demək istərdim ki, mən Bakıda sonuncu dəfə 2010-cu ildə bizim ATƏT-də sədrliyimiz dövründə olmuşam və Siz o vaxt bizim nümayəndə heyətini qəbul etdiniz. O vaxtdan bəri Bakının və bütövlükdə Azərbaycanın böyük uğurları məni heyran edir. Bütün bu islahatlar əsası Ümummilli Lider Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş və Sizin müdrik rəhbərliyinizlə uğurla davam edən inkişaf və modernləşmə strategiyası ilə ayrılmaz surətdə bağlıdır.

* * *

Görüşdə Hökumətlərarası Komissiyanın fəaliyyəti və bu günlərdə komissiyanın Bakıda keçirilən son iclası qeyd olundu, ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi məsələləri müzakirə edildi. Prezident İlham Əliyev Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayevin və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Nursultan Nazarbayevə və Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA: "Böyük alim Vasim Məmmədəliyevin əziz xatirəsi daim qəlbimizdə yaşayacaq"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva akademik Vasim Məmmədəliyevin vəfatı ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Dünya şöhrətli şərqşünas-alim, müsəlmanların müqəddəs kitabı olan Qurani-Kərimin Azərbaycan dilinə tərcüməçilərindən biri, Əməkdar elm xadimi, akademik Vasim Məmmədəliyev dünyasını dəyişib. Çox yüksək intellektə və nadir mənəvi keyfiyyətlərə malik insan - Vasim müəllim elm dünyasında, şübhəsiz, nüfuz sahibi idi. Onun Azərbaycanda şərqşünaslığın inkişafında müstəsna xidmətləri var. Dahi tədqiqatçı alim və istedadlı müəllim olan Vasim Məmmədəliyev Azərbaycan elminin çoxəsrlik ənənələrinin davamçısı idi.

Akademik Vasim Məmmədəliyevin vəfatı bizim hamımız üçün çox böyük itkidir. Böyük alimin əziz xatirəsi daim qəlbimizdə yaşayacaq. Allah rəhmət eləsin!"



## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanda səfərdədir

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 14-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.



# Bakıda Dünya Türk Biznes Şurasının toplantısı keçirilib

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan toplantıda iştirak edib




Oktyabrın 14-də Bakıda Dünya Türk Biznes Şurasının (Dünya Türk İş Konseyi - DTİK) toplantısı keçirilib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan toplantıda iştirak edib.

Tədbir Azərbaycanın və Türkiyənin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla anılması, ölkələrimizin Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Dünya Türk Biznes Şurasının sədri Nail Olpak bildirib ki, 2007-ci il dekabrın 26-da Türkiyədə Xarici İqtisadi Əlaqələr Şurasının nəzdində yaradılan Dünya Türk Biznes Şurasının məqsədi xaricdə pərakəndə formada təşkilatlanan, türk lobbisinin fəallaşdırılması üçün çalışan və beynəlxalq şirkətlərdə söz sahibi olan türk iş adamlarını bir platforma ətrafında toplamaqdır.

Çətin vəziyyətlərdə Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu və Türkiyənin də Azərbaycana lazımi köməyi heç vaxt əsirgəmədiyini qeyd edən N.Olpak deyib: “Ölkələrimiz birgə ticari fəaliyyəti göstərdikləri üçün qardaş deyil, qardaş olduqları üçün qarşılıqlı ticarət aparırlar. Bu əlaqələri daha da inkişaf etdirmək üçün çalışacağıq. Dünya Türk Biznes Şurası bütün türk dünyasının xaricdə fəaliyyət göstərən iş adamlarını əlaqələndirməyi, problemlərin həlli istiqamətində kömək göstərməyi, türk lobbisini xaricdə geniş ictimaiyyətə tanıtdırmağı, mövqelərini daha da möhkəmləndirməyi hədəfləyib”.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Görüş iştirakçılarını salamlayan Türkiyə Prezidenti deyib: “Sizi öz vətənimizdən ayırmadığımız Azərbaycanda salamlayıram. Burada özümüzü qonaq kimi yox, öz evimizdəki kimi hiss edirik. İndi təbii ki, Türk Şurasının Zirvə Görüşündə “Biz altı dövlət, yeganə millətik” deyirik. Azərbaycan kimi Qazaxıstanı, Qırğızıstanı, Özbəkistanı və Türkmənistanı özümüzdən ayrı hiss etmirik”.

Rəcəb Tayyib Ərdoğan Türk Şurasının Zirvə Görüşünün türk dünyasında iqtisadi və ticari əlaqələrin genişlənməsində əhəmiyyətli rol oynayacağını vurğulayıb: “Eyni coğrafiyanı bölüşən, eyni mədəniyyəti və tarixi olan, eyni dildə danışan xalqlar birgə platformalar və layihələr əsasında daha çox bir araya gəlirlər. VII Zirvə Görüşünü keçirəcəyimiz Türk Şurası bu istiqamətdə son zamanlarda tətbiq etdiyimiz ən mühüm əməkdaşlıq mexanizmidir. Bu yaxınlarda Özbəkistan Şuraya tamhüquqlu üzv qəbul edilib və Macarıstanın Şuraya müşahidəçi üzv kimi qəbul edilməsi təşkilatın gələcəyi üçün mühüm uğurdur. Bu il 10 illik yubileyini qeyd edən Türk Şurasının Türkmənistanın tamhüquqlu üzvlüyü ilə öz mövqeyini möhkəmləndirəcəyinə inanıram. Məqsədimiz və arzumuz tək bir qardaşımızın və soydaşımızın da kənarda qalmadığı güclü və əhatəli bir birlik yaratmaqdır”.

Türkiyə Prezidenti 300 milyonluq türk dünyasının nəhəng potensialını yalnız bu şəkildə reallaşdırılacağını qeyd edərək deyib ki, bu potensialdan istifadə baxımından 15-20 il əvvəllə müqayisədə çox böyük məsafə qət etmişik, lakin iş dünyasının lokomotiv rolunu oynamadığı hər bir layihə yarımçıq qalmağa məhkumdur. Nə qədər ki, siyasi və mədəni əlaqələr möhkəmdir və ticari əməkdaşlıq tərəfindən dəstəklənir, onlar böhranlar və sarsıntılara qarşı müqavimət göstərə bilirlər. Buna görə də biznes dünyasını bir araya gətirən bu fəaliyyətə böyük əhəmiyyət veririk. Eyni zamanda, birgə nəqliyyat layihələri ilə ölkələrimiz arasındakı məsafələri də qısaldırıq.

Rəcəb Tayyib Ərdoğan Dünya Türk Biznes Şurasının xaricdə yaşayan bütün türklər üçün istinad və görüş yeri olduğunu vurğulayaraq deyib: “Xaricdəki bütün sahibkarlarımızı Dünya Türk Biznes Şurasına üzv olmağa dəvət edirəm. Bu həqiqəti hər zaman yadda saxlamalıyıq. Türkiyə və Azərbaycan türklərinin yaşadıqları ölkələrdə “Bir millət, iki dövlət” şüarı ilə hərəkət etdikləri təqdirdə öhdəsindən gələ bilməyəcəkləri maneə yoxdur. Türk dünyası nə qədər güclü olarsa, türk diasporu bir o qədər güclü və gələcəyinə daha inamlı olar”.

Türkiyənin coğrafi mövqeyi ilə əlaqədar terror təhdidinə daha çox məruz qaldığına diqqəti çəkən Rəcəb Tayyib Ərdoğan bildirib: “Türkiyə təxminən 40 ildir fasiləsiz terrorizmlə mübarizə edir. Türkiyə terror təşkilatları ilə mübarizədə on minlərlə vətəndaşını qurban verib. Oktyabrın 9-da başladığımız “Sülh çeşməsi” əməliyyatı ilə Fərat çayının şərqini terrorçulardan təmizləmək istəyirik. Əməliyyatın məqsədi Suriyanın şimalında PKK/YPG terror təşkilatı təhlükəsinin aradan qaldırılmasıdır. Başda Azərbaycan olmaqla “Sülh çeşməsi” əməliyyatında yanımızda olan hər kəsə təşəkkür edirəm. Türkiyə bu əməliyyatla Suriya sərhədindəki terrorçuları məhv edərək ölkədəki qaçqınların öz vətənlərinə qayıtması üçün təhlükəsiz şərait yaradacaq. Türkiyə bu əməliyyatları bütün təzyiqlərə baxmayaraq, sonadək davam etdirəcək”.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov çıxış edərək deyib ki, xaricdə yaşayan soydaşlarımızın, diaspor təşkilatlarının üzərinə çox ciddi missiya düşür: Belə bir dövrdə dövlətlərarası dostluğun diaspor təşkilatları arasında da formalaşdırılması zərurətdir. Bu zərurəti Prezident İlham Əliyev hələ 2013-cü ildə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Qəbələdə keçirilən III Zirvə toplantısındakı çıxışı zamanı aydın şəkildə səsləndirib və strateji bir vəzifə kimi qarşıya qoyub.

Komitə sədri qeyd edib ki, istər Azərbaycan, istərsə də digər dövlətlər və qeyri-dövlət qurumları tərəfindən türksoylu xalqların birliyi istiqamətində çoxsaylı layihələr həyata keçirilir. Xüsusilə, Heydər Əliyev Fondu tərəfindən birgə layihələr reallaşdırılır, ortaq mədəni dəyərlərin paylaşılmasına xidmət edən tədbirlər təşkil edilir. Bütün bunlar türk dünyasının birliyinə xidmət edir. Türk Dünyası Yazarlar və Sənətçilər Vəqfi tərəfindən 15-ci “Türk dünyasına xidmət” mükafatının fondun prezidenti, UNESKO-nun və ISESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya təqdim edilməsi də bunu bir daha təsdiqləyir.

“Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən diaspor fəaliyyətinin əlaqələndirilməsi, türk dünyasının birləşmiş diaspor hərəkatının formalaşdırılması istiqamətində ardıcıl işlər görülür. Diasporla İş üzrə Dövlət Komitəsi, Qazaxıstan Respublikasının Vətəndaşlar Fondu və Türkiyə Respublikasının Xaricdə Yaşayan Türklər və Əqrəba İcmalar İdarəsi arasında diaspor siyasəti sahəsində əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Dünya azərbaycanlılarının şəbəkələşməsi, türk dünyası birliyinin möhkəmləndirilməsi üçün bütün mümkün olanları edirik və bu işlər ardıcıl şəkildə aparılır. Bu istiqamətdə türkiyəli qardaşlarımızla birlikdə Bakıda, Ankarada, Almaniyada, bu günlərdə isə ABŞ-da təcrübə mübadiləsi, potensial artırma təlimləri və digər müxtəlif tədbirlər keçirilib. Bütün tədbirlərdə Türkiyə diasporu, türk qardaşlarımız, diplomatik korpus çox fəal şəkildə iştirak ediblər. Eyni zamanda, türk dünyasında baş verən aktual və əhəmiyyətli xəbərləri, Türkiyə və Azərbaycan diasporunun fəaliyyəti haqqında məlumatları özündə əks etdirən “Türkiyə-Azərbaycan” jurnalının nəşrinə başlanılıb. Jurnal Türkiyədə, Azərbaycanda və dünyanın müxtəlif ölkələrində dövlət və ictimai qurumlara, diaspor təşkilatlarına pulsuz paylanılır. Bütün bunlar xalqlarımızın, diasporlarımızın birliyinə xidmət edir və oxşar təcrübənin digər türkdilli ölkələrlə də həyata keçirilməsi nəzərdə tutulur”, - deyə F.Muradov vurğulayıb.

Diqqətə çatdırılıb ki, komitənin xaricdəki tədbirlərində Dağlıq Qarabağ münaqişəsi, Xocalı hadisələri ilə bağlı həqiqətlərin dünyaya bəyan edilməsi ilə yanaşı, qondarma “erməni soyqırımı” məsələsi də daim beynəlxalq ictimaiyyətə çatdırılır. Qondarma “erməni soyqırımı”nı sübuta yetirən heç bir faktın olmadığı konkret sənədlər əsasında dünyaya bəyan edilir. O cümlədən türkiyəli dostlar da, diaspor təşkilatları da daim bu məsələlərə ortaq problem kimi yanaşır.

Komitə sədri deyib ki, Diasporla İş üzrə Dövlət Komitəsi olaraq ümumtürk diasporunun formalaşdırılması üçün əməli addımlar üzərində müzakirələr aparılır. İlkin mərhələdə, türk diaspor gənclərinin ortaq düşərgələrinin təşkil olunması nəzərdən keçirilir. Komitə tərəfindən “Türkdilli diasporların inkişafına dair Strateji Yol Xəritəsi” işlənib hazırlanıb və gələcək fəaliyyətin Yol Xəritəsinə uyğun qurulması ilə bağlı ilkin razılıq əldə olunub. Dünya Azərbaycanlıları Şəbəkəsinin formalaşdırılmasını strateji hədəf kimi müəyyənləşdirmiş komitə ümumtürk diasporu şəbəkəsinin yaradılması istiqamətində addımlar atmaqdadır.

Tədbirdə Türkiyə və Azərbaycan biznes dairələrinin və təşkilatlarının nümayəndələri, akademiklər və rəsmi qurumların təmsilçiləri türk dünyasının birliyindən, Türk Şurasına üzv ölkələrin siyasi və iqtisadi əlaqələrinin inkişafından danışıb, birgə diaspor fəaliyyətinin əhəmiyyətini vurğulayıblar.

# “Qlobal medianın inkişaf trendləri: Risklər və imkanlar” mövzusunda Bakı Beynəlxalq Media Konfransı keçirilib






Oktyabrın 14-də “Qloballaşma dövründə medianın inkişaf trendləri: Risklər və imkanlar” mövzusunda Bakı Beynəlxalq Media Konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, Qlobal Jurnalistlər Şurasının və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə keçirilən konfransda Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, 100-ə yaxın yerli və xarici media nümayəndələri iştirak edirdilər.

Əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildi.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov tədbiri açaraq bu media konfransının gələcəkdə qlobal məsələlərin müzakirə olunduğu platformaya çevriləcəyini deyib. O, ölkəmizdə media azadlığının təmin olunduğunu vurğulayaraq son vaxtlar internet medianın inkişaf etdiyini, jurnalistlərin sərbəst fəaliyyəti üçün lazımi şəraitin yaradıldığını diqqətə çatdırıb.

Qlobal Jurnalistlər Şurasının sədri Mehmet Ali Dim çıxışında Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərindən danışıb. Azərbaycan və Türkiyə mediasının ortaq hədəflərinin olduğunu qeyd edən Mehmet Ali Dim Türkiyədə çoxsaylı media təşkilatlarının olduğunu deyib. O bildirib ki, bu sahədə tənzimləməyə, yeni bir nəfəsə ehtiyac var. Qlobal Jurnalistlər Şurası Xarici İşlər naziri Mövlud Çavuşoğlunun dəstəyi ilə yaradılıb. Türkiyədə fəaliyyət göstərən xarici media orqanları da bu təşkilatın sıralarında yer alır.

Konfransda çıxış edən Prezidentin köməkçisi Əli Həsənov bildirib ki, bu gün türk dünyasının gözü Bakıda keçirilən Türk Şurasının Zirvə Görüşündədir. Bu ildən Türk Şurasına sədrlik Azərbaycana keçir və bu qurumla bağlı mühüm qərarlar Bakıda qəbul olunacaq.

“Bilirsiniz ki, biz Azərbaycan mediasının həm regional, həm də qlobal media trendlərini inkişaf etdirdiyimiz kimi, bizə aid olan bəzi faktların, informasiyanın, həqiqətlərin regionumuzda və dünyada yayılmasında, gördüyümüz işlər haqqında hər kəsin məlumatlanmasında maraqlıyıq”, - deyən Əli Həsənov Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələrinin multikultural cəmiyyətdə yaşadıqlarını vurğulayıb. Qeyd edib ki, azərbaycançılıq məfkurəsi ölkəmizdə yaşayan bütün xalqların və dinlərin nümayəndələrinin birliyini, vahid amal uğrunda mübarizəsini, dövlətin onların bütün məsələlərdə yanında olmasını hədəfləyən ideologiyadır.

Prezidentin köməkçisi daha sonra deyib: “Təəssüf ki, bu gün dünyada haqqa, ədalətə qarşı olan dövlətlər də var. Onların qurduğu rejimlər sülhü təhdid edir, terror aktları törədərək xalqların dinc həyatını pozur, insanları yurd-yuvasından didərgin salır. Bu gün Yaxın və Orta Şərqdə, Avropada müşahidə olunan qaçqın-köçkün fəlakətini biz 20 il əvvəl yaşamışıq. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edib, 1 milyondan çox azərbaycanlını yurd-yuvasından didərgin salıb. Bu gün onlar qaçqın və məcburi köçkün həyatı yaşayırlar. Biz o insanlar üçün haqq, ədalət axtarırıq. Beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar isə ikili standartlar səbəbindən həyata keçmir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində torpaqlarımızın qeyd-şərtsiz azad edilməsi, didərgin salınmış insanların doğma yurdlarına qayıtması üçün şəraitin yaradılması tələb olunur. Ermənistan isə 20 ildən çoxdur ki, bu qətnamələri yerinə yetirmir. Təəssüf ki, müasir dünyanın ədalətsizlikləri fonunda bu işğal davam edir”.

Əli Həsənov Türkiyənin də haqsızlıqlarla üzləşdiyini bildirərək qeyd edib ki, 100 il bundan əvvəl baş vermiş hadisələri qardaş ölkənin adına yazaraq onları soyqırımı törətməkdə ittiham edirlər. Lakin erməni terrorist qrupları həm türklərə, həm də azərbaycanlılara qarşı dəfələrlə soyqırımı aktları törədiblər. Türk diplomatlarına qarşı müxtəlif vaxtlarda terror hücumları həyata keçirilib. Həmçinin ötən əsrin ortalarınadək azərbaycanlılara qarşı üç dəfə soyqırımı törədilib. Bu soyqırımları nəticəsində ümumilikdə 100 minə yaxın, Dağlıq Qarabağ münaqişəsi zamanı isə 30 minədək azərbaycanlı qətlə yetirilib. Bütün bunların səbəbkarı erməni millətçiləridir.

Bu konfransın ölkəmiz haqqında həqiqətlərin dünyaya çatdırılması üçün yeni imkanlar yaratdığını vurğulayan Prezidentin köməkçisi deyib ki, Azərbaycan bu gün bölgənin və dünyanın ən inkişaf etmiş ölkələrindən biridir: “Biz neftdən gələn gəlirləri digər sahələrin inkişafına yönəldərək müasir infrastruktur yaratmışıq. Neft gəlirlərindən istifadə edərək Azərbaycan mediası üçün də yaxşı imkanlar yaratmışıq. Azərbaycan mediası hazırda bölgə üçün ən qabaqcıl nümunələrdən birinə çevrilib. Bu gün Azərbaycanda media azad şəkildə inkişaf edir. İnternet tam azaddır. Sosial şəbəkələrin və internetin yaratdığı imkanlar beynəlxalq və region mediaları ilə əlaqələrimizin intensivləşməsinə şərait yaradır və biz bundan bəhrələnirik. Dövlətimiz azad mediaya dəstək verir. KİV-ə qrantlar verilir, jurnalistlərin problemlərinin həllinə yaxından kömək göstərilir, onların mənzil-məişət şəraiti yaxşılaşdırılır”.

Əli Həsənov, həmçinin qeyd edib ki, Azərbaycan mediasının imkanlarından istifadə edərək həm ölkəmizin, həm də Türkiyənin problemlərini dünyaya çatdırmağa çalışırıq. Diasporumuzu və mediamızı birləşdirməli və haqsızlıqlara qarşı birgə mübarizə aparmalıyıq. Azərbaycan Türkiyənin “Sülh çeşməsi” əməliyyatına dəstək verir. Haqq işində Azərbaycan Türkiyənin yanındadır. Ümummilli Lider Heydər Əliyevin “Bir millət, iki dövlət” formulu bu gün bizim bütün sahələr üzrə birliyimizə xidmət edir.

“Habertürk” televiziyasının əməkdaşı Bülent Aydemir bu gün Türkiyənin şanlı mübarizəsinə qarşı əks təbliğat aparıldığını söyləyərək bildirib ki, Suriyada aparılan əməliyyat təhlükəsizliklə bağlıdır, terrorçuluqla mübarizədir, işğal məqsədi daşımır. Türkiyənin öz sərhədləri yaxınlığındakı əraziləri terrorçulardan təmizləməyə gücü və hüququ var. Onun haqq işinin bütün dünyaya çatdırılmasında medianın köməyi də önəmlidir.

Sonra çıxış edən “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu bugünkü tədbirin Türk Şurasının yubiley Zirvə Görüşü ilə eyni vaxta təsadüf etdiyini bildirib. Türkiyənin Suriyada keçirdiyi əməliyyatlara toxunan H.Babaoğlu qeyd edib ki, bu gün müharibə təkcə hərbi müstəvidə deyil, eyni zamanda, informasiya müstəvisində gedir. Belə olan halda dost və müttəfiq ölkələrin informasiya resurslarının birgə fəaliyyət göstərməsi də günün aktual məsələsidir. Əgər 20-30 il bundan əvvəl informasiya, sadəcə, məlumat əldə etmək və onu ötürmək, məlumat mübadiləsi funksiyasını yerinə yetirirdisə, bu gün dünyada informasiya müharibəsi gedir. Bütün müharibələrin ən təhlükəlisi məhz informasiya müharibəsidir.

Yeni media mövzusuna toxunan Hikmət Babaoğlu qeyd edib ki, bu gün informasiya institusionallaşdırılaraq idarəetmə vasitəsinə çevrilib. Hazırda informasiya həyatımıza müdaxilə etməklə həm onun keyfiyyətini müəyyənləşdirir, həm də insanda yeni bir sosial kimlik formalaşdırır.

Konfrans işini panel iclası ilə davam etdirib.

## Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycana səfərə gəlib



Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 14-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi hava limanında Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

## Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov Azərbaycana səfərə gəlib



Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 14-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğızıstan Prezidenti Sooronbay Jeenbekovu hava limanında Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

## Türk Şurasının VII Zirvə Görüşündə Macarıstanın Baş Naziri Viktor Orban da iştirak edəcək



Macarıstanın Baş Naziri Viktor Orban Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 14-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş Nazirin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Macarıstanın Baş Naziri Viktor Orbanı hava limanında Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

## Qazaxıstanın birinci Prezidenti, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayev Azərbaycana gəlib



Qazaxıstan Respublikasının birinci Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayev Şuranın VII Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 14-də Azərbaycan Respublikasına səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Nursultan Nazarbayevi hava limanında Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər qarşıladılar.

# Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Qarabağ Azərbaycandır!" mövzusunda konfrans




Oktyabrın 14-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Qarabağ Azərbaycandır!" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda YAP İdarə Heyətinin və Siyasi Şurasının üzvləri, Milli Məclisin deputatları, partiyanın yerli təşkilatlarının təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunda səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı və MDB dövlət başçılarının Aşqabadda keçirilən görüşündə çıxışı ilə Ermənistanın iç üzünü bir daha ifşa etdi. Bununla da bu məsələlər gündəmin əsas mövzusuna çevrilib.

Əli Əhmədov deyib ki, Aşqabaddakı çıxışı ilə Prezident İlham Əliyev Ermənistan hökuməti və dövlətinin apardığı təhlükəli siyasəti ifşa etdi: "Bütün dünya birmənalı şəkildə faşizmə və faşist ideologiyasına qarşı olduğu halda Ermənistan hökumətinin belə bir siyasət apardığını Prezident İlham Əliyev sübuta yetirdi. Belə ki, faşist siyasəti nəticəsində dünyada 10 milyonlarla insan həlak olub. Ermənistan faşizmə əsaslanan siyasət aparmaqla əslində bütün dünyaya xəyanət etmiş olur. Prezident İlham Əliyev bunu bir daha isbat etdi".

YAP Sədrinin müavini söyləyib ki, dövlət başçısı "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatını səsləndirməklə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar yeni bir yanaşmanı ortaya qoydu: "Qarabağ Azərbaycandır və nida işarəsi" fikrinin əsas məna yükü ondan ibarətdir ki, Qarabağ Azərbaycan üçün olum ya ölüm məsələsini ifadə edir. Prezident bu bəyanatla Azərbaycanın qətiyyətli mövqeyini bir daha ortaya qoydu".

Əli Əhmədov qeyd edib ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin bu bəyanatını birmənalı şəkildə dəstəkləyir. Onun fikrincə, Prezidentimizin bu mesajı işğalçı Ermənistana, beynəlxalq birliyə və Azərbaycan cəmiyyətinə ünvanlanıb: "Nə məlum münaqişə, nə onun həlləlik aradan qaldırılmamış nəticələri, nə də nizamasalma prosesi Qarabağın mənsubiyyətini dəyişdirmir, dəyişdirə bilməz və dəyişdirməyəcək. Prezidentin bütün dünyaya çatdırdığı mesajın mahiyyəti məhz bundan ibarətdir. Dövlət başçısının bir çox dövlət başçılarının, çoxsaylı beynəlxalq siyasi ekspertlərin və mətbuat nümayəndələrinin qarşısında cəsarət və qətiyyət nümunəsi sayıla biləcək çıxışının arxasında möhtəşəm gücün dayandığı heç kimdə şübhə yaratmır. Bu güc hər şeydən əvvəl xalqın iradəsi, Azərbaycanın silahlı qüvvələrinin döyüş qabiliyyəti, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğaldan azad etmək əzmidir. Bu güc, eyni zamanda beynəlxalq hüquqa, onun ədalətli mahiyyətinə inamdan irəli gəlir. Prezident İlham Əliyevin mesajı bütün lazımi ünvanlara, lazımi səviyyədə çatıb. Onu, ilk növbədə, Ermənistanda eşidiblər və yəqin ki, gərəkli nəticə çıxarıblar".

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qeyd edib ki, Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasındakı və Aşqabadda Zirvə toplantısındakı nitqləri beynəlxalq münasibətlər tarixində milli maraqları qorumaq mövqeyi baxımından qızıl hərflərlə yazılacaq çıxışlardır.

S.Seyidov vurğulayıb ki, bu gün dünyada çox çətin, mürəkkəb, ədalətsiz beynəlxalq mühit mövcuddur. "Biz də bu mübarizənin içindəyik. Böhtanla, yalanla, torpaqlarımızı işğal edən işğalçı qüvvələrə qarşı mübarizədəyik. Bu mübarizəni dövlət başçısı hər iki toplantıda həm bizə, həm dünyaya, həm də ermənilərə göstərdi. Hesab edirəm ki, Azərbaycanın milli maraqlarının qorunması istiqamətində ən güclü silahlarımızdan biri Prezidentin şəxsi keyfiyyətləridir. Digər məsələ isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair erməni təbliğatını ifşa etmək və onu darmadağın etməkdir" deyə Səməd Seyidov vurğulayıb.

"Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov çıxış edərək bildirib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında Ümummilli Lider Heydər Əliyev hər zaman qətiyyətli mövqe nümayiş etdirib, haqq səsimizi yüksək tribunalardan, siyasi kürsülərdən səsləndirib. Bu gün həmin siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla və müdrikcəsinə davam etdirilir. "Dövlət başçısı "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında və onun ardınca Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasında bir daha öz qətiyyətli mövqeyini nümayiş etdirdi. Bu, hər bir azərbaycanlının dəstəklədiyi mövqedir" deyə B.Sadıqov qeyd edib.

"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Tural Gəncəliyev Prezident İlham Əliyevin qətiyyətli çıxış və bəyanatının Dağlıq Qarabağdan məcburi köçkün düşmüş, etnik təmizləməyə məruz qalmış azərbaycanlıları çox sevindirdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, dövlət başçısının çıxışı Azərbaycan torpaqlarının işğaldan azad olunacağı günün uzaqda olmadığına bir mesaj idi. "Bayrağımızı Şuşada, Xankəndidə dalğalandıracağımız gün uzaqda deyil. Biz ölkə başçısının müdrik xarici siyasətindən nümunə götürməli, bunu gündəlik həyatımızla bağlamalıyıq. Sosial şəbəkələrdə, informasiya müharibəsi gedən bütün platformalarda bu fəaliyyəti davam etdirməliyik" deyə Tural Gəncəliyev vurğulayıb.

Dağlıq Qarabağın Azərbaycanlı İcmasının sədri bildirib ki, cinayətkar ünsürlər bu qətiyyətli bəyanatlardan dərs götürməli, tezliklə qüvvələrini işğalda olan torpaqlarımızdan çıxarmalıdırlar. Dağlıq Qarabağ erməni icmasının yeganə çıxış yolu Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü qəbul edib, bayrağımız altında yaşamağa razılıq verməkdir.

Konfransda YAP Suraxanı rayon təşkilatı Gənclər Birliyinin sədri Fərəh Məcidzadə və YAP Abşeron rayon təşkilatı Gənclər Birliyinin sədri Elnur Mirzəyev çıxış ediblər. Çıxışlarda Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasət nəticəsində Azərbaycanın diplomatik cəbhədə işğalçı Ermənistanın dalana dirəndiyi vurğulanıb. Qeyd olunub ki, dövlət başçısının siyasəti torpaqlarımızın işğaldan azad olunacağı günü daha da yaxınlaşdırır.

# Bakıda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun yeni inzibati binasının açılışı olub





Oktyabrın 14-də Bakıda Azərbaycan, Türkiyə, Qazaxıstan və Macarıstan Xarici İşlər nazirlərinin, Türk Şurasının, TÜRKPA-nın, TÜRKSOY-un və Türk Akademiyasının rəhbərlərinin iştirakı ilə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun yeni istifadəyə verilmiş inzibati binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, qonaqlar inzibati binada yaradılan şəraitlə tanış olub, türk xalqlarının tarixinə, mədəniyyətinə, adət-ənənələrinə dair sərgiyə baxıblar.

Qonaqları salamlayan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva rəhbərlik etdiyi qurumun yaranma tarixi və fəaliyyəti, türk dünyasının zəngin mədəniyyəti, qədim tarixi, milli-mənəvi dəyərləri ilə bağlı həyata keçirdiyi layihələr haqqında məlumat verib. Günay Əfəndiyeva türk dünyasının maddi və mədəni irsinin zənginliyindən, bu irsin qorunmasının, öyrənilməsinin və beynəlxalq miqyasda təbliğ edilməsinin əhəmiyyətindən danışıb. O əlavə edib ki, yeni istifadəyə verilmiş binada bütün türk xalqlarının mədəniyyəti, tarixi, zəngin irsi ilə bağlı tədbirlər keçiriləcək.

Tədbir bədii hissə ilə davam edib.

Qeyd edək ki, türkdilli xalqların maddi-mənəvi irsin qorunması, tədqiqi və təbliği işini həyata keçirən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması təşəbbüsü ilə bağlı qərar 2009-cu il oktyabrın 3-də Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvan şəhərində keçirilmiş IX Zirvə görüşündə qəbul edilib. Həmin qərar 2010-cu il sentyabrın 16-da İstanbulda Türkdilli ölkələrin dövlət başçılarının X Zirvə Toplantısında dəstəklənib. Fondun nizamnaməsi 2012-ci il avqustun 23-də Bişkek şəhərində keçirilən Zirvə görüşündə Azərbaycan, Qırğızıstan, Türkiyə, Qazaxıstan hökumət başçıları tərəfindən qəbul edilib.

# Bakıda Türk Şurasının Xarici İşlər Nazirləri Şurasının 7-ci iclası keçirilib




Oktyabrın 14-də Bakıda Türk Şurasının Xarici İşlər Nazirləri Şurasının 7-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Qırğızıstanın Xarici İşlər naziri Çingiz Aydarbekov Türk Şurasının BMT-nin Baş Assambleyasında müşahidəçi statusu alması istiqamətində işlərin davam etdirildiyini bildirib. "Türk Şurası beynəlxalq təşkilatlarla əlaqələrini gücləndirir. Təşkilata sədrlik Azərbaycana keçir. Lakin növbəti dövrdə də Qırğızıstan təşkilata üzv dövlətlər arasında əlaqələrin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcək. Ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı yenə də diqqət mərkəzində olacaq. Təşkilata üzv ölkələr arasında yenidən biznes forumlar keçirilməlidir" deyə nazir vurğulayıb.

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov tədbirdə çıxış edərək Türk Şurasında sədrliyini uğurla başa çatdırması münasibətilə Qırğızıstanı, həmçinin Türk Şurasının yeni üzv dövləti olan Özbəkistanı təbrik edib.

Elmar Məmmədyarov bildirib ki, Azərbaycan Türk Şurasının məqsəd və vəzifələrinin həyata keçirilməsində çox vacib rol oynayan, əməkdaşlığın gücləndirildiyi, qlobal risklər və təhdidlərə qarşı səylər və təsirli cavabların verildiyi mühüm, hətta həlledici bir zamanda Türk Şurasının VII Zirvəsinə evsahibliyi edir. İnstitusional mexanizmləri gücləndirmək və yeni əməkdaşlıq modellərini yaratmaq yolunda sammit regional və qlobal hadisələrə toxunmaq və əməkdaşlığın yeni perspektivlərini araşdırmaq üçün bir fürsətdir.

"2009-cu il oktyabrın 3-də Naxçıvan Sazişi imzalanandan bəri Türk Şurası türkdilli dövlətlər arasında hərtərəfli, qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığı təşviq etmək üçün səylər göstərib. On il ərzində Türk Şurası bölgədə sülhün qorunmasında, üzv dövlətlər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsində, ümumi maraq doğuran bütün sahələrdə, o cümlədən ticarət və investisiya üçün əlverişli şəraitin yaradılmasında, regional və ikitərəfli əməkdaşlığın təşviq edilməsində bir dayaq olduğunu sübut edib. Bu baxımdan əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş imkanların mövcud olduğuna və xüsusi prioritet istiqamətlərdəki səylərimizin regional tərəfdaşlığa yeni təkan verəcəyinə və Türk Şurasına yeni bir hərəkətverici qüvvə olacağına inanırıq" deyə nazir vurğulayıb.

Qeyd edilib ki, Türk Şurası türkdilli xalqların tarixi irsinin təbliğində və qorunmasında, həmçinin ümumi mədəniyyətimizin, adət-ənənələrimizin, maddi və mənəvi dəyərlərimizin yayılmasında misilsiz rol oynayır. Buna görə də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY və Türk Mədəniyyəti və İrsi Fondunun Azərbaycanın da fəal iştirak etdiyi mədəni və humanitar sahədəki fəaliyyəti təqdirəlayiqdir. Azərbaycanın sədrliyi dövründə üzv ölkələr arasında iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetiriləcək. Beləliklə, prioritet sahələri əhatə edən, detallı və praktik məqsəd və vəzifələri müəyyənləşdirən Türk Şurasının iqtisadi gündəliyinin hazırlanması fəaliyyətimizin vacib tərkib hissəsidir. Əməkdaşlığımızın iqtisadi ölçüsünün artırılması, dünyada siyasi və iqtisadi qarışıqlıqlara qarşı dayanıqlılığımızı möhkəmləndirəcək və gücləndirəcəkdir. Buna görə də Azərbaycan türk ölkələrinin iqtisadi potensialına böyük diqqət yetirir və qarşılıqlı sərmayələrin artırılmasının və yeni iqtisadi layihələrin araşdırılmasının vacibliyini vurğulayır.

Azərbaycanın Xarici İşlər naziri deyib: "Ölkəmiz TDƏŞ-in üzv dövlətləri və müşahidəçiləri ilə güclü siyasi, iqtisadi və humanitar əlaqələrə malikdir. Üzv dövlətlər və müşahidəçilər arasında tarixi İpək yolunu canlandırmaq və onu yeni infrastruktur layihələri ilə yaxınlaşdırmaq üçün əməkdaşlığın intensivləşdirilməsi iqtisadi əlaqələrimizin əsas dayaqlarından biridir. Azərbaycan Avrasiya bölgəsinin nəqliyyat xəritəsini yenidən tərtib edən infrastruktur investisiyaları həyata keçirir. Yeni bağlılıq təşəbbüsləri təkcə regional inteqrasiyaya töhfə vermir, həm də Türk Şurası üzv dövlətləri və müşahidəçiləri arasındakı əməkdaşlığı artırır. Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Xəzər Şərq-Qərb Orta Dəhliz təşəbbüsünün vacib tərkib hissəsidir və yük daşımalarının həcminin artması nəticəsində ölkələrimizin iqtisadi inkişafına töhfə verəcək. Bundan əlavə, Azərbaycan Türk Şurasına müşahidəçi dövlət qismində Macarıstanla əməkdaşlığın inkişafını dəstəkləyir və 2019-cu il sentyabrın 19-da Budapeştdə Türk Şurasının ofisinin açılmasını alqışlayır. Macarıstan və Türk Şurası üzv dövlətləri arasında əməkdaşlıq geniş sahələrdə uğurla inkişaf edir və biz əminik ki, ofis Türk Şurasının Avropa qurumları ilə əlaqələrinin möhkəmləndirilməsində köməkçi rolunu oynayacaq.

Türk Şurası üzv dövlətləri arasında humanitar sahədə əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd etmək lazımdır. Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin (AIDA) fəaliyyətinin bölgəmizdə humanitar səylər göstərməsində böyük əhəmiyyəti var. Bu baxımdan 2019-cu il oktyabrın 11-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində üzv dövlətlərin rəsmi inkişaf agentliklərinin, o cümlədən Türk Şurası, BMT-nin Humanitar Məsələləri Koordinasiya Ofisi və BMT İnkişaf Proqramı kimi beynəlxalq təşkilatların iştirakı ilə "Türkdilli Dövlətlərin Rəsmi İnkişaf Agentliklərinin Beynəlxalq Yardım Sisteminə inteqrasiyasının təşviqi: Səmərəli Humanitar Yardım və İnkişaf Yardımı üçün Əməkdaşlıq" konfransı keçirilib.

Bu tədbir iştirakçı ölkələrə və beynəlxalq təşkilatlara effektiv qlobal və regional yardım üçün əvəzolunmaz təcrübələrini bölüşmək və yeni tərəfdaşlıqlar qurmaq imkanı verib. Şadam ki, 7-ci Sammitin Bəyannaməsi konfransdan bəhs edir və üzv dövlətlərin donor qurumlarının qlobal yardım sisteminə inteqrasiyasını asanlaşdırmaq üçün əhəmiyyətini vurğulayır".

Nazir bildirib ki, Azərbaycan ərazilərinin 20 faizini işğal edən Ermənistanın təcavüzündən əziyyət çəkməkdə davam edir. Nəticədə bir milyondan çox azərbaycanlı öz tarixi torpaqlarında qanlı etnik təmizləmə ilə üzləşib və qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələri Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Lakin Ermənistan işğala və təcavüzə son qoyulması barədə BMT TŞ-nin qətnamələrinə və beynəlxalq təşkilatların digər sənədlərinə məhəl qoymamaqda davam edir.

"Azərbaycana qarşı təcavüzü pisləyən, Ermənistanı yuxarıda göstərilən qətnamələri yerinə yetirməyə çağıran prinsipial mövqe nümayiş etdirdiyi üçün hər bir ölkəyə və Türk Şurasına yüksək dəyər verdiyimizi bildirmək istərdim. Bu baxımdan Türk Şurası üzv dövlətlərinin BMT TŞ-nin qətnamələrinə uyğun olaraq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət əsasında həlli üçün birmənalı dəstəyi çox təqdirəlayiqdir.

Sonda bir daha qeyd etmək istərdim ki, Azərbaycan türkdilli dövlətlərlə əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli formatda daha da gücləndirmək niyyətindədir, Türk Şurası isə türk dünyasının bir araya gəlməsində əhəmiyyətli rol oynamağa davam edəcək. Təşkilatımız Özbəkistanın bu yaxınlarda üzv olması ilə artıq 5 üzv dövlətdən ibarət oldu. Əminəm ki, Türk Şurası Xarici İşlər Nazirləri Şurasının bugünkü iclası qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın gücləndirilməsinə kömək edəcək, eyni zamanda, əldə olunan nailiyyətləri qiymətləndirməyə və ortaq bir baxışla və birləşmiş güclə mövcud problemlərə necə cavab verəcəyimizi düşünməyə imkan yaradacaqdır" deyə Elmar Məmmədyarov qeyd edib.

Sonda iclasın yekunlarına dair mətbuat konfransı keçirilib.

Tarixin ən qüdrətli Azərbaycanının möhtəşəm 16 ili



# Rəhbər müdrikliyi, diplomat məharəti, sərkərdə qüdrəti

## İlham Əliyevdən faşizmi yaşadan Ermənistana daha bir sarsıdıcı zərbə

**Azərbaycanın ərazisinin 20 faizi işğal olunub!**

**Bu həm də qorxaq və maymaqların, səriştəsizlərin, milli maraqlara xəyanət edənlərin ölkə rəhbərliyinə gəlməsinin nəticəsidir!**

**Bu gün Azərbaycanın həll edə bilmədiyi tək bircə problemi var: o da məhz torpaqların işğaldan azad edilməsidir!**

**Torpaqların işğaldan azad olunması üçün Prezident İlham Əliyevin başçılığı ilə zəruri olan bütün addımlar atılıb:**

*BELƏ Kİ AZƏRBAYCAN:*

- *İqtisadi cəhətdən güclənib, dünyanın marağını regiona cəlb edən transmilli layihələr reallaşdırıb, Cənubi Qafqazın şəriksiz lideri olub;*
- *Siyasi nüfuzu yüksəlib, dünyaya inteqrasiya edib, sözü və səsi eşidilən modern dövlətə çevrilib;*
- *Beynəlxalq təşkilatlarda səmərəli iş aparıb, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətləri dünyaya çatdırıb, özünün haqlı mövqeyini qəbul etdirib;*
- *Güclü, ən yeni texnologiyaya əsaslanan silahlarla təchiz olunmuş müasir, təlim görmüş ordu yaradıb;*
- *Ermənistanı blokada vəziyyətində saxlayaraq dilənçi, perspektivsiz, əhalisi durmadan ölkə ərazisini tərk edən dilənçi dövlətə çevirib;*
- *Dördgünlük Aprel müharibəsində Ermənistandan qat-qat güclü və üstün olduğunu əyani şəkildə sübut edib, Lələtəpədə və Günnütdə minlərlə hektar torpaq sahəsini geri qaytarıb, böyük qayıdışın ilk zəfəri sayılan Cocuq Mərcanlı kəndini qısa müddətdə yenidən tikib-qurub, sakinlərini geri qaytararaq məskunlaşdırıb.*

**Bu günlərdə isə dövlət başçısı İlham Əliyev "Qarabağ Azərbaycandır və nida işarəsi" çağırışı ilə torpaqların işğaldan azad edilməsi uğrunda mübarizədə yeni mərhələnin başlanmasını bəyan etdi!**

❖ ❖ ❖

**Azərbaycan xalqının ürəyindən xəbər verən "Qarabağ Azərbaycandır!" çağırışı artıq milli ideyaya və ümumxalq hərəkatına çevrilməkdədir!**

*"Valday" Beynəlxalq Diskussiya Klubunda və MDB Dövlət Başçıları Şurasının Aşqabad Sammitindəki çıxışlarında düşmənə iki sarsıdıcı zərbə endirən İlham Əliyev bununla da Ermənistanın siyasi, diplomatik və mənəvi ifşasına yekun vurmuş oldu!*

"Valday" Beynəlxalq Diskussiya Klubunda ən əvvəl Ermənistanın iç üzünü açaraq onun yalançı simasını göstərdi:

- *Faktlarla sübut etdi ki, Ermənistanın rəhbərləri həmişə yalan danışıblar, əslində, ermənilər Azərbaycan ərazisinə sonradan köçürülüb, Azərbaycan torpaqlarında yerləşdirilib və Azərbaycan əraziləri hesabına özlərinə dövlət qurublar!*
- *1921-ci ildə Qafqaz bürosunda Dağlıq Qarabağın Azərbaycana verilməsinə deyil, onun Azərbaycanın tərkibində qalması məsələsinə baxılıb. Ermənistan bu faktı təhrif etməklə qəsdən saxtakarlıq edir.*
- *"Qarabağ xalqı" anlayışı məkrli və əsası olmayan qondarma ifadədir. Dağlıq Qarabağda azərbaycanlı və erməni millətindən olan əhali 25-75 faiz nisbətində yaşayıb.*
- *Haşiyəyə çıxaraq qeyd edək ki, Paşinyan "Dağlıq Qarabağın erməni klanı" ifadəsini işlətsəydi, daha dəqiq olardı. Çünki hazırda Ermənistanın kriminal rəhbərliyi ilə Dağlıq Qarabağın əvvəllər Ermənistana başçılıq etmiş cinayətkar qrupu arasında hakimiyyət uğrunda gərgin mübarizə gedir, cani Koçaryan həbs edilib, bu mübarizənin nə ilə bitəcəyi hələlik bəlli deyil. Ancaq görünən odur ki, Paşinyan erməni xalqının gözündə verdiyi vədləri yerinə yetirməyən yalançı, idarəetmədən və diplomatiyadan xəbərsiz, nüfuzunu itirmiş, dövləti kimi özünün də perspektivi olmayan şəxsə çevrilmişdir.*

❖ ❖ ❖

**"Valday"da erməni yalanını və saxtakarlığını ifşa edən Prezident İlham Əliyev Aşqabadda N.Paşinyanın özünün də iştirak etdiyi MDB Dövlət Başçılarının Şura iclasında Ermənistan rəhbərliyinin faşist xislətini bir daha açıb göstərdi!**

Əvvəlcə, Bakı neftinin Böyük Vətən Müharibəsində necə mühüm əhəmiyyət kəsb etdiyini, Hitlerin Bakını ələ keçirməyə necə can atdığını və bu baş tutsaydı, müharibənin necə bitəcəyini, minalanmış neft quyularına görə Bakını və onun sakinlərini hansı dəhşətli aqibət gözlədiyini açıqladı.

Azərbaycan xalqının 1941-1945-ci illər müharibəsində iştirakı, verdiyi qurbanlar barədə rəqəmləri göstərdi.

Ulu Öndər Heydər Əliyevin Qələbə bayramını bərpa etməsindən, Böyük Vətən Müharibəsi iştirakçılarına Azərbaycan dövlətinin göstərdiyi qayğı və hörmətdən bəhs etdi.

Sonra Ermənistanda Hitler faşizminə qulluq edən, SSRİ əleyhinə vuruşan, Avropanın yəhudi əhalisinə qarşı Xolokost soyqırımında iştirak edən, "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olar" deyən satqın Njdeyə abidə qoyulduğunu, faşizmin yaşadıldığını xatırlatdı.

Qələbənin 75 illiyinin qeyd ediləcəyi bir vaxtda MDB məkanında belə biabırçılığın yolverilməzliyini, Ermənistanın indiki rəhbərliyinin də faşizmə və terrorçuluğa dəstək verdiyini ifşa etdi!

**Bütün bunlar onu göstərir ki, erməni əslində, özünün təqdim etdiyi kimi, "türk soyqırımına məruz qalan" "məzlum və zavallı millət" deyil, Ermənistan isə yeritdiyi siyasətlə faşizmi tərənnüm edən, faşist ideologiyasını yaşadan, SSRİ-yə qarşı vuruşmuş satqın qaniçənə 6 metrlik heykəl qoyan terrorçu və işğalçı dövlətdir!**

❖ ❖ ❖

*İndiyədək İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının və dövlətinin işğal olunmuş torpaqların geri qaytarılması uğrunda mübarizəsi bir neçə mərhələdən keçmişdir.*

Əsas məqam dövlətin iqtisadi qüdrətinin, siyasi nüfuzunun artırılması və güclü ordu quruculuğu olmaqla yanaşı, digər resurslardan səmərəli istifadəyə diqqətin artırılmasıdır!

**İlham Əliyevin təşəbbüsü ilə "hücum diplomatiyası"na keçid, Türkiyə ilə Azərbaycan diasporunun birgə fəaliyyəti beynəlxalq miqyasda görülən işlərin effektini xeyli yüksəltmişdir!**

*Leyla Əliyevanın rəhbərliyi ilə hər il Xocalı soyqırımı ərəfəsində dünyanın müxtəlif yerlərində keçirilən "Xocalıya ədalət!" kampaniyası da erməni vəhşiliyinin və riyakarlığının ifşasında, habelə Xocalı soyqırımının tanıdılmasında yeni addım olmuşdur.*

**Cənab İlham Əliyev tərəfindən startı verilən yeni mərhələ isə "Qarabağ Azərbaycandır!" çağırışının Azərbaycan xalqının böyük dəstəyini qazanaraq qısa müddətdə milli ideyaya və hərəkata çevrilməsi ilə xarakterizə olunur.**

❖ ❖ ❖

Hərəkatın təsirli və daha effektli olması üçün bir sıra vacib məqamlar da nəzərdən qaçırılmamalıdır.

**Əvvəla qeyd edək ki, bu hərəkat Prezident İlham Əliyevin təşəbbüsü və öncüllüyü ilə başlanmışdır. Hazırda dövlət başçısına dəstək şəklində genişlənməkdə olan hərəkatın iştirakçılarının sayı durmadan artmaqdadır.**

*İkincisi, bu əsl vətənpərvərlik hərəkatıdır. Hər bir Azərbaycan vətəndaşı millətindən, mövqe və əqidəsindən asılı olmayaraq xalqın və dövlətin maraqları ilə səsləşən bu hərəkatda fəal iştirakı özünə mənəvi borc hesab edir!*

Azərbaycan gənclərinin bu hərəkatda daha fəal, öncül rol oynaması vacibdir. Hər bir gənc çalışdığı sahədə, təhsil aldığı məktəbdən və yerdən asılı olmayaraq bu hərəkata öz töhfəsini verməyə çalışmalıdır!

İlkin təhlillər göstərir ki, "Qarabağ Azərbaycandır!" hərəkatı öz əhatə dairəsini qısa müddətdə genişləndirəcək, dünya azərbaycanlılarını da ehtiva edəcəkdir.

Görülən işlərin effektliyi üçün diaspor üzvlərinin köməyinə xüsusi ehtiyac duyulur. Odur ki, Azərbaycan diasporunun, xaricdə yaşayan azərbaycanlıların, müxtəlif ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin hərəkatın tədbirlərində könüllü və fəal iştirakı gərəkli və arzuediləndir!

Sosial şəbəkə iştirakçısı olan azərbaycanlılar yaşadıqları məkandan asılı olmayaraq hərəkata şəxsi töhfələrini verməlidirlər.

Virtual dünyada olan hər bir vətənpərvər insan düşmən yalanlarının ifşasına, informasiya müharibəsində üstün mövqe qazanılmasına öz köməyini göstərməlidir!

**"Qarabağ Azərbaycandır!" hərəkatında iştirak könüllüdür. Lakin Azərbaycan xalqının hər bir nümayəndəsi bunu həm də vətənpərvər addım, torpaqlarımızın işğaldan azad edilməsinə şəxsi dəstək kimi qiymətləndirməli, Vətənə vətəndaş borcu, övlad köməyi kimi qəbul etməlidir!**

*Bu mübarizədə müxalif mövqe tutmaq, yaxud özünü başqa əqidə daşıyıcısı hesab edərək passivlik göstərmək yolverilməzdir!*

*Çünki söhbət anamız Azərbaycandan, onun taleyindən və ərazi bütövlüyünün bərpasından gedir!*

*Vətən çətin günlərdə qeyrətli övladları ilə güclüdür!*

*Dövlət müdrik və uzaqgörən rəhbəri ilə qüdrətlidir!*

*Gücümüz birliyimizdədir! İqtidarla xalq bir yerdə olanda isə məqsədə daha tez yetmək olur!*

*Tarixin ən qüdrətli Azərbaycanının möhtəşəm 16 ilinin inkişaf, quruculuq salnaməsi bunun ən mükəmməl nümunəsidir!*

**Bəxtiyar SADIQOV**

# Bakıda Türk Şurası Gənclər Platformasının ilk Baş Assambleyası keçirilib

Oktyabrın 13-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Gənclər Platformasının ilk Baş Assambleyası keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Gənclər və İdman naziri Azad Rəhimov, Türk Şurasının Baş katibi Bağdad Amreyev, Türkiyə Parlamentinin üzvü Ahmet Böyükgümüş, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (ICYF) prezidenti Ayxan Taha iştirak ediblər.

Baş Assambleyanın Türk Şurasının Zirvə görüşü ərəfəsində keçirildiyini deyən şuranın Baş katibi Bağdad Amreyev bildirib: "Zirvə görüşü öncəsi ilk dəfə olaraq gənclər bir araya gəlib fikir mübadiləsi aparır və əməkdaşlıq üçün yeni yolları müzakirə edirlər. Bir sözlə, Bakıda gənclərin beynəlxalq əməkdaşlığı istiqamətində yeni ənənənin təməli qoyulur. Bu tarixi hadisə həm də ölkələr arasındakı mövcud əməkdaşlıqda yeni səhifə açır".

Azərbaycanın Baş Assambleyanın Bakıda keçirilməsini təklif etdiyini vurğulayan B.Amreyev deyib: "Baş Assambleyada Türk Şurası Gənclər Platformasının İdarə Heyətinin, sədr və sədr müavinlərinin seçilməsi, o cümlədən növbəti illər üçün Fəaliyyət Planının və Zirvə görüşünə təqdim etmək üçün gənclərin tövsiyələrinin hazırlanması da nəzərdə tutulur".

Gənclər və İdman naziri Azad Rəhimov bildirib ki, Türk Şurası Gənclər Platformasının ilk Baş Assambleyasının Bakıda keçirilməsi tarixi hadisədir. Bu hadisə ölkələrimiz arasında mövcud əməkdaşlıqda yeni bir səhifə açır. Əminəm ki, platforma çərçivəsində əməkdaşlığımız birgə səylərimiz nəticəsində faydalı olacaq və gənclərin beynəlxalq əlaqələrinin inkişafına öz töhfəsini verəcəkdir. Bildiyiniz kimi, Baş Assambleya Türk Şurasının Zirvə görüşü ərəfəsində keçirilir. Əminəm ki, belə görüşlər ənənə halını alacaq və davamlı olacaq. Prezident İlham Əliyevin xüsusi vurğuladığı kimi, bizim ölkələrimizin potensialı, birgə fəaliyyəti, Əməkdaşlıq Şurası kimi çox önəmli əməkdaşlıq formatı vardır. Biz bütün müsbət meyilləri gücləndirməliyik.




A.Rəhimov həmçinin bildirib ki, bizi birləşdirən bir sıra dəyərlər var. Bunlar bizim soykökümüz, ortaq mədəniyyətimiz və tariximizdir. Hazırda baş verən hadisələr dünyanın yeni bir mərhələyə keçdiyini deməyə əsas verir. Hadisələrin gedişi bizdən daha sürətli inteqrasiya tələb edir. Türk Şurası hamımız üçün yaxşı bir fürsət və alternativsiz bir platformadır. Əminəm ki, Gənclər və İdman nazirlərinin toplantılarında verdiyimiz qərarlar xalqlarımız arasında əsrlərboyu mövcud olmuş sıx əlaqələrin daha da möhkəmlənməsinə sürətli təkan verəcək.

"Bugünədək İstanbul (2016), Bakı (2017) və Astanada (2018) Gənclər və İdman nazirlərinin üç toplantısı keçirilib. Türk Şurasında bu istiqamətdə daimi işçi qrupu fəaliyyət göstərir. 2015-ci ilin fevralından Türk Şurası çərçivəsində gənclər və idman sahəsində əməkdaşlığa başlanılıb. Bu müddət ərzində biz birlikdə böyük yol keçmişik. Görülən işlərə baxdıqda əməkdaşlığın düzgün istiqamətdə getdiyini əminliklə söyləyə bilərik" deyə nazir vurğulayıb.

Tədbir türkdilli dövlətlərin gənclər təşkilatlarının nümayəndələrinin çıxışları ilə davam edib.

Sonda Türk Şurası Gənclər Platformasının sədri vəzifəsinə seçkilər keçirilib. "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov seçkilərdə qalib gələrək Türk Şurası Gənclər Platformasının sədri vəzifəsinə seçilib.

Xatırladaq ki, Türk Şurasının ötən ilin sentyabrında Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilmiş Zirvə görüşü gənclər və idman məsələlərinə həsr olunub. Zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə dövlət başçıları bu sahədə görülmüş işləri yüksək qiymətləndirib və Türk Şurası Gənclər Platformasının fəaliyyətə başlaması üçün zəruri addımların atılmasının vacibliyini vurğulayıblar.

Tarixin ən qüdrətli Azərbaycanının möhtəşəm 16 ili

# Hər bir azərbaycanlının Prezidenti

“Qarabağ Azərbaycandır!” çağırışı milyonları
İlham Əliyev siyasi kursu ətrafında daha sıx səfərbər edir



**Təqvimdəki istənilən günə dəyər qazandıran onun hansısa əhəmiyyətli tarixi hadisəyə bələdçilik etməsidir. Azərbaycanın mühüm hadisələrlə zəngin tarixində belə günlərin sayı çoxdur. İstisnasız olaraq 15 oktyabr da bu günlərdəndir.**

16 il əvvəl - 2003-cü ilin 15 oktyabrında Azərbaycanın milli dövlətçilik tarixində yeni bir başlanğıcın əsası qoyuldu. Azərbaycan xalqı həmin gün öz müdrikliyini, bəsirət gözünün açıqlığını, gələcəyə aydın nəzərlərlə baxa bilmə bacarığını, ən mühümü isə dövlətçilik dəyərlərinə sadiqliyini və qədirbilənliyini növbəti dəfə sübuta yetirdi.

16 il əvvəlin 15 oktyabr günü Azərbaycan xalqı tarix boyu yetirdiyi ən böyük şəxsiyyətlərdən olan Heydər Əliyevin dövlətçilik yolunun davamına, inkişaf siyasətinə, sabitliyə, əmin-amanlığa dəstək oldu. Xalqımız bu yolun layiqli davamçısı, Heydər Əliyevin öz həyat və siyasət məktəbində kamil şəxsiyyət, parlaq lider kimi yetirdiyi İlham Əliyevi Azərbaycan dövlətinin rəhbəri seçdi. Növbəti illərdə Azərbaycanın taleyini onun əmin əllərinə etibar etdi.

16 il əvvələ qısaca tarixi ekskurs etsək, bu ümumxalq qərarının əslində nə qədər çətin, mürəkkəb şərtlər altında verildiyini görərik. Ölkə növbəti prezident seçkisi ərəfəsində idi. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev Azərbaycanı ağır təhlükələrdən xilas etmiş, aydın inkişaf yoluna çıxarmışdı. Cəmiyyətdə ictimai-siyasi sabitlik təmin olunmuş, dünyaya inteqrasiya, hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, ifadə azadlığının qorunması və s. bu kimi istiqamətlərdə böyük nailiyyətlər əldə edilmişdi. Özəl mülkiyyət münasibətlərinin, azad bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması vətəndaşların öz həyatlarını arzularına uyğun qura bilmələrinə imkan yaradırdı. Uğurlu neft strategiyasının icrasına paralel olaraq ölkə həyatının müxtəlif sahələrinə yatırılan xarici və yerli investisiyalar iqtisadi dinamikanı getdikcə gücləndirir, hər kəs bu inkişafı öz gündəlik həyat və məişətində hiss edə bilirdi. Heydər Əliyevin bir lider kimi böyüklüyü, qonşularla, dünyanın nəhəng gücləri ilə münasibətləri yüksək məharətlə qura bilməsi Azərbaycanı təhdidlərdən qoruyurdu.

İnsanlar bu günlərin beləcə davam etməsini, tarixin yeni anlarının da məhz Heydər Əliyevlə birgə, onun rəhbərliyi altında yazılmasını çox arzu edirdilər. Amma hər kəs fərqində idi ki, Tanrının bütün insanlara, o cümlədən Heydər Əliyevə də əta etdiyi bəlli bir ömür payı var. Ulu Öndərdən sonra Azərbaycanın gələcək taleyinə görə məsuliyyəti kimsə üzərinə götürməli idi. İnsanlar bu adı Ulu Öndərdən duymağı çox istəyirdilər. Bilirdilər ki, Heydər Əliyev hər zaman olduğu kimi, bu məsələdə də öz yanaşmaları, mövqeyi ilə xalqı yanıltmayacaq. Cəmiyyətə öz hədəflərinə doğru addımlamaqdan ötrü yolun ən düzgününü göstərəcək.

Heydər Əliyevin fəal siyasətdən kənarlaşdırıldığı 1980-ci illərin sonlarında xalqımızın başına olmazın bəlalar açmış, Dağlıq Qarabağ düyününü yaratmış məkrli qüvvələr Ulu Öndərin yaşını nəzərə alaraq Azərbaycanı qarışdırmaq üçün yenə fürsət gözləyirdilər. Hakimiyyətə gəlməkdən ötrü şeytanla belə əməkdaşlığa hazır olan kəslərin əli ilə cəmiyyətdə süni gərginlik yaradır, yeni faciələr üçün zəmin hazırlayırdılar. Azərbaycanın 1990-cı illərin əvvəllərinin qan-qada, barıt qoxulu günlərinə qayıtması təhlükəsi çox real idi.

Ölkənin gələcək taleyi ilə bağlı o həlledici günlərdə Heydər Əliyev onun sözünü gözləyən insanları intizarda saxlamadı: *“Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram”. Heydər Əliyevin Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciətində belə deyilirdi: “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.*

Zaman, tarix bu çağırışın, bu ümidin hər məqamını sübuta yetirdi. Cənab İlham Əliyev 2003-cü ilin 15 oktyabr günü ölkənin taleyini ona etibar etmiş milyonlarla insanla çiyin-çiyinə, ürək-ürəyə Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə çatdırdı. Hətta 16 il əvvəl İlham Əliyevin ölkəyə rəhbərliyi ilə bağlı tərəddüdlərə qapılanlar, bəd gümanlara düşənlər belə onun müəllifliyi ilə yaradılan tarixin möhtəşəmliyini gördükcə vaxtilə nə qədər yanıldıqlarını da anladılar, obyektivlik hissinə əsaslanıb sonradan bunu etiraf edənlər də oldu. Cənab İlham Əliyev, ilk andiçmə mərasimində də bəyan etdiyi kimi, kimliyindən, dünyanın hansı səmtində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. Bütün azərbaycanlılar üçün gündən-günə inkişaf edən, dünyada nüfuzu artan, insanlarının güzəranı, həyatı yaxşılaşıb asanlaşan, ordusu qüdrətlənən, sözü ötkünləşən, güclü Azərbaycan yaratdı.

Cənab İlham Əliyev “Valday” Beynəlxalq Diskussiya Klubunun oktyabrın 3-də keçirilmiş XVI illik iclasının plenar sessiyasında bu gücü, bu ötkəmliyi, qətiyyəti növbəti dəfə nümayiş etdirdi. Ermənistanın baş naziri Nikol Paşinyanın cəfəng fikirlərinə cavab olaraq səsləndirdiyi “Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida” bəyanatı ilə bir daha göstərdi ki, Azərbaycan öz haqq mövqeyindən heç zaman geri çəkilməyəcək.

Çünki Azərbaycanın Dağlıq Qarabağ məsələsi ilə bağlı haqq mövqeyinin gec-tez qalib gəlməsi də Heydər Əliyevin ən böyük arzularından biri, Azərbaycan xalqının milli hədəfidir. İlham Əliyev vətənin gələcəyi ilə bağlı arzuları, hədəfləri hər bir azərbaycanlı üçün reallığa çevirir. “Qarabağ Azərbaycandır!” çağırışı milyonları İlham Əliyev siyasi kursu ətrafında daha sıx səfərbər edib.

16 oktyabr çin çıxan bu arzuların tarixidir...

***Hüseynbala MİRƏLƏMOV,***
***Milli Məclisin deputatı,***
***YAP Xətai rayon təşkilatının sədri***



# Yüksəlişin və qüdrətli dövlətçiliyin təminatçısı



**Müstəqillik tariximizin ən parlaq səhifələrindən biri Azərbaycanın inkişaf yollarında inamla və möhtəşəm nailiyyətlərə imza atmaqla irəliləməsidir. Respublikamızın qısa zamanda böyük uğurlar əldə edib, sosial-iqtisadi göstəricilərinə görə dünya miqyasında liderlər mövqeyinə yüksəlməsi beynəlxalq aləmdə etiraf edilən reallıqlardır. Bunun nəticəsində regionun iqtisadi və siyasi cəhətdən aparıcı dövlətinə çevrilən Azərbaycan həm də beynəlxalq hüququn tam müstəqil, cəsarətli mövqeyi ilə seçilən, siyasi kursu nəzərə alınan subyektinə çevrilib.**

Təbii ki, Azərbaycanın yüksəlişini, beynəlxalq arealda qazandığı nüfuzu qiymətləndirərkən Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı tarixi xidmətləri gözümüz önündə canlanır. Heydər Əliyev tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi dövlətdə yaşamaq imkanını əldə edərək, xoşbəxt gələcəyi üçün bütün təminatları yarada bilib. Azərbaycanın indiki yüksəlişinin özülündə məhz Heydər Əliyevin müəyyən etdiyi təkmil strategiya dayanır.

Heydər Əliyev Azərbaycanın gələcək inkişaf konsepsiyasını irəli sürməklə yanaşı, həm də bu strateji kursu qloballaşma dövrünün diktə etdiyi yeni şərtlərlə davam etdirməyə qadir olan istedadlı, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı - lider yetişdirib. Bunun nəticəsidir ki, Azərbaycanın dinamik inkişafı davamlı xarakter alıb və respublikamızın beynəlxalq aləmdə yeri və nüfuzu günbəgün möhkəmlənməkdədir. Prezident İlham Əliyev Ulu Öndərin ən layiqli davamçısı olaraq onun başladığı, təməlini qoyduğu taleyüklü işləri ardıcıl surətdə və qətiyyətlə irəli aparır, ölkəmizin şərəfli tarixini yazır. Məhz Heydər Əliyevin dühasından və qüdrətli zəkasından ilham alan milli inkişaf strategiyası Azərbaycanın müstəqillik və inkişaf yolunda inamla addımlamasını təmin edir.

Bu gün cənab İlham Əliyevin ölkəmizə ilk dəfə prezident seçilməsindən 16 il ötür. 2003-cü ilin 15 oktyabrında xalqımız İlham Əliyevə səs verməklə Heydər Əliyev siyasi kursunun davamına, xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə dəstək verdi. 16 il bir dövlətin tarixi baxımından uzun zaman kəsiyi sayıla bilməz. Lakin bu dövrdə Azərbaycanın yüksəlişi, əldə olunan möhtəşəm iqtisadi nailiyyətlər, ölkənin beynəlxalq imicinin artması, regionun lider dövlətinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi hər birimizi dərindən qürurlandırır. Bunların hamısı ilk növbədə onu təsdiq edir ki, müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkəmizin inkişafına və modernləşdirilməsinə hədəflənmiş siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə layiqincə davam etdirilir.

2003-cü ildən indiyədək ötən dövr tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olub. Bu dövrdə Azərbaycan iqtisadiyyatının əldə etdiyi uğurlar, dayanıqlılıq və sabit inkişaf konkret statistik göstəricilər və rəqəmlərlə ifadə edilir. Belə ki, 16 ildə ümumi daxili məhsul istehsalı real ifadədə 3,3 dəfə, o cümlədən qeyri-neft sektorunda ÜDM 2,8 dəfə, sənaye məhsulu istehsalı 2,6 dəfə, qeyri-neft sənayesi 2,4 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 18,4 dəfə, strateji valyuta ehtiyatları 29 dəfədən çox artıb. Təbii ki, bu 16 ildə Azərbaycanın iqtisadi sahədə qazandığı böyük uğurların kökündə dayanan əsas amillərdən biri iqtisadiyyatın diversifikasiyası istiqamətində həyata keçirilən məqsədyönlü siyasətdir. Bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatının tərəqqisi məhdud sfera üzərində köklənməyərək çoxcəhətli, genişmiqyaslı xarakterə malikdir. Ölkə iqtisadiyyatının ən müxtəlif sahələrində inkişafın paralel şəkildə getməsi, bir-birini tamamlaması hər zaman xüsusi diqqət mərkəzindədir. Bu səpkidə görülən işlər Azərbaycanın iqtisadi yüksəlişinə böyük töhfələr verərək, onu daha sürətli hala gətirib.

Bu illərdə Azərbaycanın sosial-iqtisadi inkişafında məqsədli dövlət proqramlarının icrası xüsusi əhəmiyyət kəsb edib. Müxtəlif dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər ölkədə makroiqtisadi sabitliyin təmin edilməsində, iqtisadiyyatın dinamik inkişafında, əhalinin həyat səviyyəsinin yaxşılaşmasında mühüm rol oynayıb. Xüsusən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində ölkədə daxili istehsal dəfələrlə artıb, yeni sənaye sahələri yaradılıb, zəruri infrastruktur qurulub, təhsil, səhiyyə, mədəniyyət, idman, meliorasiya və digər sahələrdə əzəmətli layihələr həyata keçirilib. Ötən illər ərzində dövlət başçısının regionlara mütəmadi səfərləri, müxtəlif təyinatlı obyektlərlə şəxsən tanış olması və hər bir rayonun inkişafı ilə bağlı qarşıda duran spesifik vəzifələri müəyyən edərək verdiyi tapşırıq və tövsiyələr, imzaladığı sərəncamlar bölgələrin tarazlı inkişafının təmin edilməsində müstəsna rol oynayıb.

Təbii ki, iqtisadi inkişafda neft strategiyasının uğurla reallaşmasının böyük rolu oldu. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin inşasının başa çatdırılması ilə ölkəmizin inkişafında yeni mərhələnin əsası qoyuldu. Neftlə zəngin bir çox dövlətlərdən fərqli olaraq, Azərbaycanda neft gəlirləri düşünülmüş şəkildə ilk növbədə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına və infrastrukturun yenilənməsinə yönəldildi. Və yuxarıda qeyd edilən mühüm makroiqtisadi nəticələrin əldə edilməsində neft gəlirlərinin böyük rolu oldu.

Ötən 16 ilin ən mühüm uğurlarından biri Azərbaycanın bir dövlət kimi müstəqilliyini və dünya birliyində öz yerini möhkəmləndirməsi, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib. Bu gün regionun lideri olan Azərbaycan beynəlxalq əhəmiyyətli məsələlərdə də söz sahibidir. Ona görə Avropanın bir çox dövlətləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş olduqlarını bəyan ediblər. Bunun da əsas səbəblərindən biri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tamamilə müstəqil siyasət yürüdən ölkə olmasıdır.

Beləliklə, Prezident İlham Əliyev ölkəmizin inkişafı ilə yanaşı, həm də dünya birliyində mövqelərini davamlı şəkildə gücləndirib. Dövlət başçısının həyata keçirdiyi tam müstəqil və qətiyyətli xarici siyasət regionda cərəyan edən siyasi, iqtisadi proseslərin axarına da həlledici təsir göstərir. Azərbaycanın rolu artaraq təkcə regional səviyyədə deyil, beynəlxalq inteqrasiya proseslərində də öz sözünü deyən mühüm faktora çevrilib. Məhz buna görədir ki, fəaliyyəti ilə ölkə cəmiyyətindən daim dəstək alan, gərgin qlobal beynəlxalq münasibətlər şəraitində istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev beynəlxalq miqyasda da nüfuzlu lider olaraq ehtiramla qarşılanır. Bu mənada fəxarət doğuran məqamlardan biri də Prezident İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Təsadüfi deyil ki, dövlət başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Oktyabrın əvvəllərində keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar iclasında Prezident İlham Əliyevin çıxışı bunu bir daha təsdiq etdi. Prezident İlham Əliyevin “Valday” Beynəlxalq Diskussiya Klubuna dəvət olunmasının özü Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin beynəlxalq səviyyədə hörmətlə qarşılanmasının göstəricisidir. İclasın ən mühüm hadisəsi isə İlham Əliyevin Ermənistanın baş nazirinin bir müddət əvvəl dediyi sözlərə verdiyi “Qarabağ Azərbaycandır və nida işarəsi” cavabı oldu. Paşinyanın çıxışı erməni auditoriyası qarşısında olmuşdu. Amma İlham Əliyev onun cavabını Bakıda deyil, ölkədən xaricdə - Rusiya Prezidenti Vladimir Putinin, İordaniya Kralı II Abdullanın, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Filippin Prezidenti Rodriqo Roa Dutertenin və çoxlu sayda siyasətçinin iştirak etdiyi mötəbər tədbirdə verdi. Bu cavab nəinki ermənilərə, eyni zamanda onların himayədarlarına da sərt və tutarlı cavab kimi tarixə düşdü. Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə “Qarabağ Azərbaycandır!” hərəkatının yaradılması da cəmiyyətin sosial sifarişi olaraq meydana çıxıb və bu, Azərbaycan ictimaiyyətini torpaqlarımızın azadlığı uğrunda daha da mübariz və daha sıx həmrəy edəcək.

Prezident İlham Əliyevin 16 illik fəaliyyətinin ən qabarıq tərəflərindən biri də ictimai-siyasi sabitliyin qorunub saxlanılması, daha da möhkəmləndirilməsi, cəmiyyət həyatının təhlükəsizliyinin təmin olunmasıdır. Lakin bizi bu günlərə gətirən yollar heç də həmişə hamar olmayıb. Ən azından müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin səriştəsiz fəaliyyətləri nəticəsində Azərbaycanda təhlükəsizliyə təhdidlərin baş alıb getməsi yaddaşlarda dərin iz buraxıb. Yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərqərar edildi. Son 16 ildə bu siyasət uğurla davam etdirilib və bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Təsadüfi deyil ki, Bakı şəhəri və bütövlükdə respublikamız dünyanın ən təhlükəsiz diyarlarından biri kimi tanınır. Bugünün reallıqları ondan ibarətdir ki, Azərbaycan yerləşdiyi bölgənin ən sabit ölkəsidir. Başqa bir həqiqət isə odur ki, ölkə əhalisi mövcud siyasi kursu dəstəkləyir və bu da vətəndaş həmrəyliyinin təmin olunmasında əsas şərtlərdən biridir. Bütün bunlar isə zəncirvari şəkildə bir-birini tamamlayaraq bütövlükdə Azərbaycanın dövlətçiliyinin güclənməsinə, müstəqilliyimizin möhkəmlənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə və nəhayət, cəmiyyətimizdə bərqərar edilmiş sabitliyin və vətəndaş həmrəyliyinin əbədi olmasına mühüm töhfələr verir.

Ölkədə əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını artırıb, milli həmrəyliyi daha da sıx edib. İndiyədək keçirilmiş bütün yerli və xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqini dəfələrlə sübuta yetirib. Bunun da əsas səbəbi cənab Prezidentin uğurlu fəaliyyəti və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır. Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və arzusunu özündə əks etdirib. Bundan irəli gələrək bütün parlament seçkilərində də Yeni Azərbaycan Partiyasının namizədləri üstünlük qazanıblar.

*Azərbaycan Prezidentinin ötən 16 ildəki fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli xidmət prinsipi üzərində qurulmuşdur. İlham Əliyevin özünün də qeyd etdiyi kimi ötən illər ərzində Azərbaycan Ulu Öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq uğurla, inamla inkişaf etmişdir. Eyni zamanda Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Görülən işlər göz qabağındadır. Bu inkişaf bir daha təsdiq edir ki, Azərbaycanda Heydər Əliyevin müəyyən etdiyi siyasətin alternativi yoxdur. Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi tezliklə Azərbaycanın müasir tarixinə ən möhtəşəm uğurları yazacaq. Xalqımız isə özünün firavan gələcəyinin təminatçısı olan bu siyasətə daim sadiqdir.*

***Xanlar FƏTİYEV,***
***Milli Məclisin deputatı***

# Azərbaycanı ucaldan lider

**Tarix sübut edir ki, dövlətin inkişafı, yüksəlişi, dünya birliyindəki yerinin müəyyən olunması ona rəhbərlik edən şəxslərdən asılıdır. Bu, keçmişdə də belə olub, indi də belədir. Hər bir güclü dövlətin timsalında da bu amil özünü daim göstərib.**



Müasir Azərbaycan dövlətinin 1993-cü ildən sonra yazılan tarixi də deyilənlərin aydın təsdiqidir. Dahi və uzaqgörən dövlət rəhbəri kimi məhz Ulu Öndər Heydər Əliyevin başlatdığı və bu gün adı dünyanın ən nüfuzlu liderləri ilə bir sırada çəkilən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs güclü Azərbaycan dövlətinin qurulmasını, onun yerləşdiyi bölgənin liderinə, dünyada isə söz sahibinə çevrilməsini təmin edib.

16 ilin nailiyyətləri sübut edir ki, Ulu Öndərimizin müstəqil Azərbaycanın gələcəyi üçün nəzərdə tutduğu bütün işlər böyük uğurla həyata keçirilir. Bu dövr ərzində Azərbaycanın sürətli inkişafı, enerji sahəsi ilə yanaşı qeyri-neft sektorunun önəmli şəkildə tərəqqisi, əhalinin aztəminatlı hissəsinin, bütövlükdə isə hər bir vətəndaşın maddi rifah halının yüksəlməsi, Azərbaycanın milli mənafeyinə cavab verən müstəqil xarici siyasətin yürüdülməsi Prezident İlham Əliyevin vahid siyasi platformaya söykənən, çoxşaxəli və genişmiqyaslı strateji xəttinin prioritet istiqamətləri olmaqla qazanılan uğurların göstəricisidir.

Bəli, 16 ildə Azərbaycanın bütün bölgələri tarazlı şəkildə inkişaf etmiş, şəhər və kəndləri, qəsəbələri intibah dövrünə qədəm qoymuşdur. Respublikamızın ərazisi başdan-başa tikinti, quruculuq meydanına çevrilmişdir. Ölkəmizdə həyata keçirilən sosial infrastruktur layihələri də insanların firavan həyat tərzinin təmini məqsədinə xidmət edir. İqtisadi uğurları isə hər bir vətəndaş öz gündəlik həyatında, məişətində hiss edir. Yaşayış binaları, evlər, məktəb və xəstəxanalar, sosial obyektlər tikilir, yollar çəkilir, körpülər salınır, park və xiyabanlarda, memarlıq binalarında yenidənqurma işləri aparılır. Azərbaycanın siması büsbütün, tanınmaz dərəcədə dəyişib. Bunu ölkəmizə gələn qonaqlar da səmimiyyətlə etiraf edirlər. Qazandığımız bütün bu uğurlar Heydər Əliyevin siyasətinin və ideyalarının davam etdirilməsinin və yeni dövrün tələblərinə uyğun olaraq daha da zənginləşdirilməsinin nəticəsidir. Bu mənada Azərbaycanın keçdiyi böyük inkişaf yolu göstərir ki, Heydər Əliyev siyasəti, ideyaları yaşayır, müstəqil dövlətimizin yüksəlişinə xidmət edir.

Qazanılan nailiyyətlər sırasında diqqətçəkən əsas məqamlardan biri də Azərbaycanın bölgələrinin inkişaf etməsidir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonların iqtisadiyyatı daha da möhkəmlənib, əhalinin yaşayış səviyyəsi yaxşılaşıb. Bölgələrdə geniş abadlıq və quruculuq işləri aparılıb. Bu sırada Milli Məclisdə təmsil etdiyim Ağdaş rayonunda görülən işlər də təqdirəlayiqdir. Ötən illərdə Ağdaş rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək əzmlə davam etdirilir. Ölkənin hər yerində yaşanan yüksəliş Ağdaşın simasında da aydın müşahidə olunur.

Onu da qeyd edim ki, dövlətin inkişaf səviyyəsini, nüfuzunu, dünyada qazandığı etimadı və digər bu kimi əsas xüsusiyyətlərini xarakterizə edən əsas cəhətlərdən biri onun yeritdiyi siyasətin məzmun və mahiyyətidir. Təbii ki, hər ölkə dünya birliyinin bir subyekti olaraq hər şeydən öncə özünün milli maraqlarına cavab verən müstəqil siyasət həyata keçirmək istəyir. Bu mənada Prezident İlham Əliyev lider qətiyyəti ilə tamamilə müstəqil, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yeridir. Dövlət başçısının düşünülmüş, məqsədyönlü fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə, Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxarıb. Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb, ölkəmizin beynəlxalq müstəvidə layiqli yerini möhkəmləndirib. Bu gün regional təşəbbüslər Azərbaycanın möhkəmlənməsinə, həm də bölgədəki əməkdaşlığın inkişafına xidmət edir.

Bəli, uğurla reallaşan bu siyasətin nəticəsi olaraq dünya birliyi Azərbaycana böyük hörmət və rəğbətlə yanaşmaqla yanaşı, Dağlıq Qarabağ problemi ilə bağlı həqiqətləri də daha yaxından öyrənir. Çünki bu siyasət bütün dünyada Ermənistanın işğalçı siyasətini sürətlə ifşa edir, erməni yalanlarının yayılmasının qarşısını kəsir. Bunu “Valday” Beynəlxalq Diskussiya Klubunun və MDB Dövlət Başçıları Şurasının iclasları da təsdiq etdi. Rusiyanın Soçi şəhərində keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar iclası, eləcə də Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası göstərdi ki, Prezident İlham Əliyev Azərbaycanın maraqlarını qətiyyətlə, uzaqgörənliklə qoruyur. Bu iclasların hər biri Ermənistanın və onun rəhbərliyinin küncə sıxışdırılması ilə nəticələndi. Cənab İlham Əliyev yüksək diplomatik peşəkarlıqla beynəlxalq ictimaiyyət qarşısında Ermənistanın işğalçılıq siyasətini və faşist ideologiyasını ifşa etdi. Təsadüfi deyil ki, bu hadisələr Ermənistanın özündə siyasi-diplomatik məğlubiyyət kimi dəyərləndirilir.

Bütövlükdə Azərbaycanın qazandığı möhtəşəm nailiyyətlər, onun sosial-iqtisadi yüksəlişi, beynəlxalq imicinin artması, regionun lider dövlətinə və dünyanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi ölkəmizin keçdiyi möhtəşəm inkişaf yolunun ayrı-ayrı nümunələridir. Bu inkişaf təsdiq edir ki, müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan ölkəmizin inkişafına və modernləşdirilməsinə hədəflənmiş siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə layiqincə davam etdirilir.

***Cavid OSMANOV,***
***Milli Məclisin deputatı,***
***YAP Ağdaş rayon təşkilatının sədri***

## Vasim Məmmədəli oğlu MƏMMƏDƏLİYEV



Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli şərqşünas alim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin ərəb filologiyası kafedrasının müdiri, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, filologiya elmləri doktoru, professor Vasim Məmmədəliyev 2019-cu il oktyabrın 13-də ömrünün 78-ci ilində vəfat etmişdir.

Vasim Məmmədəli oğlu Məmmədəliyev 1942-ci il avqust ayının 27-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1959-1964-cü illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ali təhsil almış, 1964-cü ildə universitetin əyani aspiranturasına daxil olmuş və Tbilisiyə ezam edilərək 1967-ci ildə orada aspiranturanı bitirmişdir.

Əmək fəaliyyətinə 1968-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində başlayan Vasim Məmmədəliyev 1981-1991-ci illərdə burada Şərqşünaslıq fakültəsinin dekanı, 1991-1992-ci illərdə universitetin humanitar fakültələr üzrə prorektoru, 1993-2018-ci illərdə İlahiyyat fakültəsinin dekanı vəzifələrində çalışmış, 1991-ci ildən ömrünün sonunadək Ərəb filologiyası kafedrasına rəhbərlik etmişdir.

Vasim Məmmədəliyev 1968-ci ildə namizədlik, 1974-cü ildə doktorluq dissertasiyaları müdafiə etmiş və 1979-cu ildə professor elmi adını almışdır. O, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 2007-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Vasim Məmmədəliyev zəngin elmi və pedaqoji fəaliyyəti ilə uzun illər ərzində Azərbaycan elmi və təhsilinə dəyərli töhfələr vermişdir. Respublikada şərqşünaslıq elminin müasir tələblər səviyyəsinə yüksəldilməsində onun müstəsna xidmətləri vardır. Alimin ərəb dilçiliyinin aktual problemlərinin sistemli öyrənilməsinə həsr olunan və qədim mənbələrə istinadla ərəb dilçilik elminin əsas inkişaf yollarını dolğun işıqlandıran fundamental tədqiqatları dünya şərqşünaslığına töhfə kimi qəbul edilmişdir. Yeni mülahizələrlə zəngin həmin araşdırmalarında alim, eyni zamanda, Azərbaycanda dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu xüsusi vurğulamışdır.

Geniş erudisiyalı alim Vasim Məmmədəliyev həmçinin Şərq filologiyası və poeziyasının, islam tarixi və fəlsəfəsinin ayrı-ayrı sahələrinə dair əsərlərin müəllifi kimi tanınmışdır. "Qurani-Kərim"in Azərbaycan dilinə tərcüməçilərindən biri olaraq onun ölkəmizdə ilahiyyatın və islamşünaslığın yenidən dirçəlməsində özünəməxsus xidmətləri vardır.

Vasim Məmmədəliyev elmi yaradıcılığını pedaqoji fəaliyyəti ilə ahəngdar surətdə uzlaşdırmış, yarıməsrlik bir dövr ərzində Bakı Dövlət Universitetində yüksəkixtisaslı kadrların hazırlanması üçün bilik və bacarığını əsirgəmədən böyük qüvvə sərf etmişdir. Keçmiş Sovetlər Birliyində Azərbaycanın ərəbşünaslığın ən qabaqcıl mərkəzlərindən birinə çevrilməsində mühüm əməyi olan alimin bu çoxsaylı yetirmələri Azərbaycanda və onun hüdudlarından kənarda ölkəmizi daim uğurla təmsil etmişlər.

Vasim Məmmədəliyevin elmi axtarışlarının nəticələri 30-dan artıq kitabda və 600-ə yaxın elmi, publisistik məqalədə əksini tapmışdır. Onun rəhbərliyi ilə 50-dən çox fəlsəfə və elmlər doktorları hazırlanmışdır. Alimin dünyanın müxtəlif ölkələrində beynəlxalq simpozium, konfrans və forumlardakı çıxışları elmi dairələr tərəfindən rəğbətlə qarşılanmışdır. Ərəb dilçiliyi və ilahiyyatla bağlı çoxsaylı sanballı tədqiqatları layiqincə dəyərləndirilən şərqşünas bir sıra ölkələrin mötəbər akademik elmi qurumlarına üzv seçilmişdir.

Akademik Vasim Məmmədəliyevin uzunmüddətli səmərəli fəaliyyəti lazımınca qiymətləndirilmişdir. O, elmin və təhsilin inkişafında xidmətlərinə görə müstəqil Azərbaycan Respublikasının ali dövlət təltiflərindən olan "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülmüşdür.

Görkəmli alim və pedaqoq, əsl ziyalı və səmimi insan Vasim Məmmədəli oğlu Məmmədəliyevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham Əliyev, Mehriban Əliyeva, Əli Əsədov, Oqtay Əsədov, Ramiz Mehdiyev, Əli Əhmədov, Eldar Əzizov, Fərəh Əliyeva, Ceyhun Bayramov, Akif Əlizadə, İsa Həbibbəyli, Nizami Cəfərov, Gövhər Baxşəliyeva, Teymur Kərimli, Elçin Babayev**

# Akademik Vasim Məmmədəliyev son mənzilə yola salınıb

Oktyabrın 14-də Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müdiri, akademik Vasim Məmmədəliyevlə vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, vida mərasimində Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, digər dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.





Mərhumun Bakı Dövlət Universitetinin matəmsayağı bəzədilmiş böyük akt zalındakı tabutu önünə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından əklillər qoyulmuşdu. Cənazənin ətrafına hökumət təşkilatları və müxtəlif kollektivlər adından da əklillər düzülmüşdü.

Akademik Vasim Məmmədəliyevin həmkarları, dostları, tanışları, tanınmış elm və mədəniyyət xadimləri Bakı Dövlət Universitetinin binasına gələrək görkəmli alimə və gözəl insana son borclarını verirdilər.

Vida mərasimində Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev görkəmli alim, akademik Vasim Məmmədəliyevin mənalı və şərəfli ömür yolundan, zəngin elmi və pedaqoji fəaliyyətindən, qazandığı nailiyyətlərdən danışıb. Qeyd olunub ki, akademik V.Məmmədəliyevin həyatının böyük hissəsi Bakı Dövlət Universiteti ilə bağlı olub. Universitetdə müxtəlif vəzifələrdə çalışmış alim bütün fəaliyyətini, bacarığını elmə, təhsilə həsr edib.

Akademik Vasim Məmmədəliyevin şərqşünaslıq elminə əvəzsiz töhfələr verdiyini deyən rektor onun əziz xatirəsinin ürəklərdə daim yaşayacağını vurğulayıb.

BDU-nun Şərqşünaslıq fakültəsinin dekanı Elxan Əzizov akademik Vasim Məmmədəliyevin elmi yaradıcılığından, ölməz əsərlərinin əhəmiyyətindən bəhs edib.



Vasim Məmmədəliyev 1942-ci ildə Bakıda həkim ailəsində anadan olub. O, 1964-cü ildə BDU-nun Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1964-1967-ci illərdə Azərbaycan Dillər Universitetinin Sami dilləri üzrə əyani aspiranturasına qəbul olub, Tbilisiyə ezam edilərək aspiranturanı dünya şöhrətli şərqşünas alim, akademik G.V.Seretelinin rəhbərliyi altında bitirib. O, 1968-ci ildə "Müasir ərəb, Azərbaycan dillərində və Bağdad dialektində felin zaman formalarının müqayisəli-tipoloji təhlili" mövzusunda namizədlik, 1974-cü ildə isə "Müasir ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Bu sahədə SSRİ miqyasında ən gənc elmlər doktoru olub.

1978-ci ildə professor elmi adını alıb, 2001-ci ildə AMEA-nın müxbir üzvü, 2007-ci ildə həqiqi üzvü seçilib.

Akademik Vasim Məmmədəliyev bütün həyatını xalqımızın mənəviyyatının zənginləşməsinə həsr edib. O, Azərbaycanda islam dininin elmi əsaslarla öyrənilməsinin təbliği məsələsinin təşəbbüskarlarından idi. Alimin elmi axtarışları ərəb dilçiliyi və ümumi dilçilik sahələrində, islamşünaslıqda, ərəb-Azərbaycan ədəbi-mədəni əlaqələrində geniş istifadə olunub.

Şərqşünas alim ilk dəfə ərəb qrammatika məktəblərini sistemli şəkildə tədqiq edib, məşhur Bağdad, Əndəlus, Bəsrə, Kufə, Misir qrammatiklərinin əsaslandıqları nəzəri və metodoloji prinsipləri yüksək səviyyədə öyrənib. Bir çox qədim ərəb mənbələrindən faydalanan alim ərəb dilçilik elminin əsas inkişaf yollarını izləməklə, bu mühüm qrammatika məktəblərinin təlimlərini müqayisəli şəkildə şərh edib. V.Məmmədəliyev "Ərəb dilçiliyi" adlı fundamental əsərində ilk dəfə "ərəb dilçiliyinin Azərbaycan məktəbi" ifadəsini işlədib və Azərbaycanda dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu sübut edib.

Şərqşünas alim İraq Elmlər Akademiyasının, Suriya İslam Elmləri və Ərəb Filologiyası Akademiyasının, İslam Əməkdaşlıq Təşkilatının İslam Hüququ Akademiyasının həqiqi üzvü idi. Onun ərəb dilçiliyi və ədəbiyyatşünaslığının müxtəlif problemlərinə həsr edilən, islam, şəriət, fiqh, musiqi və ədəbiyyata dair yüzlərlə elmi əsəri, o cümlədən bütün dünya şərqşünaslarının istifadə etdikləri 41 kitabı nəşr olunub.

Alim elm və xalq qarşısındakı böyük xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına və Prezident təqaüdünə, "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülüb.

Böyük alim V.Məmmədəliyev 1991-ci ildə akademik Ziya Bünyadovla birgə müsəlmanların müqəddəs kitabı "Qurani-Kərim"i Azərbaycan dilinə tərcümə edib.

Onun yüksəkixtisaslı kadrlar hazırlanmasında mühüm xidmətləri olub. Alimin rəhbərliyi altında 40 fəlsəfə doktoru, 5 elmlər doktoru hazırlanıb.

Akademik Nizami Cəfərov görkəmli alim V.Məmmədəliyevin şəxsiyyətinin, insanlığının böyüklüyündən danışıb. Alim deyib: "Akademik Vasim Məmmədəliyev Azərbaycan elminə dünya şöhrəti gətirmiş bir şəxsiyyətdir. O, ərəbşünasdır, ilahiyyatçıdır, amma bununla yanaşı, humanitar elmimizi bütövlükdə təmsil edən bir alim olub".

Akademik Vasim Məmmədəliyevin xüsusi istedad sahibi olduğunu qeyd edən N.Cəfərov onun elmə mühüm yeniliklər gətirdiyini diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli görkəmli alim Vasim Məmmədəliyevin şərqşünaslıq elminin inkişafına verdiyi töhfələrdən söz açıb. Bildirib ki, V.Məmmədəliyev bir alim kimi hər zaman Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən tədbirlərdə, Humanitar Elmlər Bölməsinin iclaslarında fəal iştirak edib. O, böyük alim olmaqla bərabər, böyük ustad və şəxsiyyət idi. Azərbaycan şərqşünaslığının parlaq simalarından olan Vasim Məmmədəliyev humanitar elmlərin, klassik ədəbiyyatın mahir bilicisi idi.

"İllər, yüz illər keçəcək, akademik Vasim Məmmədəliyevin elmi irsi zaman-zaman öyrəniləcək, Azərbaycan elmini hər zaman zənginləşdirəcək" deyə Teymur Kərimli bildirib.

Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyeva akademik V.Məmmədəliyevin şərqşünaslıq elminin inkişafındakı xidmətlərindən bəhs edib. O bildirib ki, Vasim Məmmədəliyev kökləri orta əsrin dərinliklərinə gedib çıxan Azərbaycan şərqşünaslığının ən layiqli davamçısı, müasir şərqşünaslıq elmimizdə Mirzə Kazım bəy ənənələrinin daşıyıcısıdır. Onun əsas tədqiqat sahəsinin ərəb dilçiliyi olmasına baxmayaraq, əsərlərində Şərq filologiyası və poeziyası, islam tarixi, kəlam, fəlsəfə, təfsir, quranşünaslıq, leksikoqrafiyanın ən mühüm məsələləri tədqiq olunub və o, bu sahələrdə də qiymətli əsərlərin müəllifidir.

Akademik V.Məmmədəliyev "Ərəb ədəbi dilində felin zaman, şəxs və şəkil kateqoriyaları", "Bəsrə qrammatika məktəbi", "Kufə qrammatika məktəbi", "Ərəb dilçiliyi" əsərləri ilə ərəb dilçiliyinin ən ümdə məsələlərinin kamil tədqiqatçısı kimi şöhrət qazanıb.

Gövhər Baxşəliyeva diqqətə çatdırıb ki, akademik ilk dəfə olaraq ərəb qrammatika məktəblərini sistemli şəkildə tədqiq edib, məşhur Bağdad, Əndəlus, Bəsrə, Kufə, Misir qrammatiklərinin əsaslandıqları nəzəri və metodoloji prinsipləri yüksək səviyyədə öyrənib. Bir çox qədim ərəb mənbələrindən faydalanan alim ərəb dilçilik elminin əsas inkişaf yollarını izləməklə, bu mühüm qrammatika məktəblərinin təlimlərini müqayisəli şəkildə şərh edib. Vasim Məmmədəliyev "Ərəb dilçiliyi" adlı fundamental əsərində ilk dəfə olaraq "ərəb dilçiliyinin Azərbaycan məktəbi" ifadəsini işlədib və Azərbaycanda dilçilik ənənəsinin çoxəsrlik tarixə malik olduğunu sübut edib. Ümumiyyətlə, akademikin "Ərəb dilçiliyi" monoqrafiyası nəinki bu sahənin ən ümdə məsələlərinin mükəmməl tədqiqi, həmçinin ümumi dilçilik elminin inkişafına təkan verən mühüm hadisə kimi dəyərləndirilməlidir. Ərəb qrammatika elminin təşəkkülü və onun məktəblərinin öyrənilməsinə həsr olunmuş bu fundamental əsər görkəmli alimin dünya şərqşünaslığına layiqli töhfəsidir.

Şərəfli ömür yaşamış Vasim Məmmədəliyevin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

Mərhum akademikin ailə üzvləri adından qardaşı Vamiq Məmmədəliyev çıxış edərək mərasim iştirakçılarına təşəkkürünü bildirib.

Sonra görkəmli alimin cənazəsi son mənzilə yola salındı.

Mərhum II Fəxri xiyabanda torpağa tapşırıldı.

Allah rəhmət eləsin!

# Gənclər işğaldan azad olunmuş Şıxarx qəsəbəsinə "Qarabağ bizimdir, bizim olacaq" şüarı ilə yürüş ediblər



Oktyabrın 3-də Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatına həmrəylik məqsədilə Tərtər rayonunda aksiya keçirilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Yeni Azərbaycan Partiyası Tərtər Rayon Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən aksiyada Tərtər, Ağdam, Kəlbəcər, Laçın, Xocalı və Şuşa rayonlarından olan gənclər iştirak ediblər. Aksiya iştirakçıları Tərtər şəhərindən işğaldan azad olunmuş Şıxarx qəsəbəsinədək yürüş edib, "Qarabağ bizimdir, bizim olacaq" şüarı səsləndiriblər.

Aksiya ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə köçürülməsini sübut edən tarixi mənbələrdən biri olan "Marağa-150" abidəsinin qarşısında başa çatıb.

# Ermənistanı iflasa uğradan siyasət

Bu günlərdə Azərbaycanın hər bir guşəsində olduğu kimi, Tərtər rayonunda da əhali arasında xüsusi bir canlanma, yüksək əhvali-ruhiyyə hökm sürür.

Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun illik iclasının plenar sessiyasında çıxışı zamanı dediyi "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri hər birimizin ürəyində əks-səda doğurdu. Azərbaycan Prezidentinin mötəbər bir məclisdə, dünyanın bir sıra məşhur siyasətçiləri qarşısında Ermənistanın baş naziri Nikol Paşinyana verdiyi bu tutarlı cavab Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həllində Azərbaycan hökumətinin, xalqımızın mövqeyinin dəyişməz olduğunu bir daha hamıya bəyan etdi.

Əslində, Nikol Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" deməklə özü özünü ifşa etmişdir. Ona görə ki, indi ötən əsrin 90-cı illəri deyil, o zaman Azərbaycan informasiya blokadası şəraitində yaşayırdı və dünya birliyi bir çox həqiqətlərdən xəbərsiz idi. İndi isə Qarabağ tarixinin bütün məqamlarını təbliğ etmək üçün bizim geniş imkanlarımız var. Tərtərli kimi, mən yalnız bir faktı xatırlatmaq istəyirəm: rayonumuzun Şıxarx qəsəbəsində ermənilərin Qarabağa köçürülməsi tarixini əbədiləşdirmək üçün onların özləri tərəfindən "Marağa-150" abidəsi ucaldılmış və burada həmin tarix göstərilmişdir. Ötən əsrin 80-ci illərinin sonunda, ermənilərin azərbaycanlılara qarşı növbəti torpaq iddiaları başlayanda onlar necə böyük "səhv"ə yol verdiklərini başa düşərək, həmin abidəni elə özləri dağıtmışdılar. Bu yaxınlarda həmin abidə erməni saxtakarlığının qarşısını almaq üçün bərpa edilmişdir. İndi dünyanın bir çox ölkələrindən rayonumuza gələn qonaqlar gedib həmin abidə ilə tanış olurlar. "Qarabağ Ermənistandır" deyən Nikol Paşinyan Qarabağdakı bu əyani sübutu unutmamalıdır.

Möhtərəm Prezidentin Soçidə mötəbər beynəlxalq tədbirdəki çıxışı, bu çıxışın alqışlarla qarşılanması qəlbimizi qürurlandırdı. Bu alqışlarla məşhur siyasətçilər Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini dəstəklədiklərini nümayiş etdirdilər. Bu həm də onu göstərir ki, artıq erməni yalanları ifşa olunub. Biz əminik ki, tezliklə bir milyondan artıq qaçqın və məcburi köçkünümüz öz dədə-baba torpaqlarına qayıdacaq.

Möhtərəm Prezidentin çağırışı ilə bu müqəddəs amal uğrunda mübarizəyə hər an hazırıq. Biz bunu Aprel hadisələri zamanı da sübut etdik. Həmin unudulmaz günlərdə ordu ilə bərabər bütün xalq ayağa qalxmışdı və hər kəs cəbhəyə getmək arzusunda idi. Əlbəttə, heç bir qələbə qurbansız qazanılmır. Aprel döyüşlərində də şəhidlər verdik, yaralılarımız oldu. Bununla yanaşı, beynəlxalq ictimaiyyət ordumuzun gücünü, insanlarımızın birliyini, torpaq uğrunda mübarizəyə hazır olmaq əzmimizi gördü və bütün bunlara heyran qaldı.

"Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilmiş iclasında aparılan müzakirələri izləyərkən bir məsələ də diqqətimizi çəkdi. Rusiya kimi güclü bir dövlət Azərbaycanı mühüm strateji tərəfdaş kimi qəbul edir və bu iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq uğurla davam etdirilir.

Bütün bunlar isə müharibə şəraitində yaşayan Azərbaycanın gündən-günə inkişaf etməsinin nəticəsidir. Hazırda ölkəmizdə elə bir sahə yoxdur ki, orada uğur, irəliləyiş müşahidə edilməsin. Götürək elə pambıqçılığı. Cəmi bir neçə il əvvəl tamamilə gəlirsiz hesab edilən kənd təsərrüfatının bu mühüm sahəsi görün indi ölkəmizə, onun vətəndaşlarına nə qədər xeyir gətirir! Vaxtilə Tərtərdə işsizlik ən böyük problemlərdən biri idi. Pambıqçılığın inkişafı ilə yüzlərlə insan özünə iş tapdı, qazanc əldə etməyə başladı.

İqtisadiyyatımızın inkişafı ilə yanaşı, şəhərimizdə aparılan tikinti-quruculuq işləri də vətəndaşların ürəyincədir. Tarix-diyarşünaslıq muzeyi, şahmat məktəbi gənc nəslin hərtərəfli inkişafında mühüm rol oynayır. Rayon sakinləri olimpiya kompleksinin, Dövlət Rəmzləri Muzeyinin tikintisinin başa çatmasını səbirsizliklə gözləyirlər.

Bu gün nəvəm məktəbdən gəlib sevinc hissi ilə mənə dedi: "Nənə, biz tarix dərsinə "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri ilə başladıq".

Bu onu göstərir ki, ölkəmizdə vətənpərvər gənc nəsil böyüyür və onların zəhməti ilə Qarabağ torpaqları yenidən laləzara çevriləcək.

***Svetlana BAĞIROVA,***
***Tərtər rayon sakini***

## Türk Şurasının VII Zirvə Görüşü çərçivəsində mühüm sənədlər imzalanıb



Oktyabrın 14-də Bakıda İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) təşkilatçılığı ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ ) VII Zirvə Görüşü çərçivəsində biznes forum keçirilib.

AZƏRTAC xəbər verir ki, biznes forumda çıxış edən İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov türkdilli ölkələrin dövlət başçılarının 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə Toplantısında yaradılmış Türk Şurası çərçivəsində bu gün ölkələrimizin bütün sahələrdə, xüsusilə siyasi, iqtisadi-ticarət və mədəni-humanitar sahələrdə uğurla əməkdaşlıq etdiyini deyib. Bildirib ki, qarşılıqlı hörmətə, dostluğa və qardaşlığa əsaslanan əməkdaşlıq ildən-ilə genişlənir.

"İqtisadi əməkdaşlıqda ticarət sahəsi əhəmiyyətli yer tutur və bu sahədə müsbət dinamika müşahidə olunur. TDƏŞ-in fəaliyyət göstərdiyi 10 il ərzində üzv ölkələr arasında ticarətin həcmi 2 dəfəyədək artıb. Məhsullar üzrə üzv ölkələrin qarşılıqlı ticarət dövriyyəsi 7 milyard ABŞ dollarına çatıb. Üzv ölkələrin Azərbaycanın xarici ticarətindəki payı isə 12 faiz təşkil edir. Ölkələrimizin iqtisadi potensialı bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar yaradır. İkitərəfli və çoxtərəfli biznes forumlar, keçirilən sərgilərdə daha geniş iştirak bu imkanların reallaşdırılmasına xidmət edir" deyə R.Məmmədov qeyd edib.

Nazir müavini bildirib ki, bu gün üzv ölkələr dünya miqyasında böyük əhəmiyyət daşıyan layihələri birlikdə həyata keçirir, Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib edir. Bu baxımdan Azərbaycan Bakı-Tbilisi-Ceyhan, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars kimi regional və qlobal əhəmiyyətli enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır: "TDƏŞ üzvü olan ölkələr investisiya sahəsində də uğurlu əməkdaşlıq edir. Şuraya üzv ölkələr Azərbaycan iqtisadiyyatına 12,3 milyard dollar həcmində investisiya qoyub, onların 3200 şirkəti Azərbaycanda uğurla fəaliyyət göstərir. Azərbaycan isə üzv ölkələrin iqtisadiyyatına 15,3 milyard dollar sərmayə yatırıb".

O vurğulayıb ki, investisiya sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün Azərbaycan tərəfindən yaradılması təklif olunmuş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Birgə İnvestisiya Fondu əhəmiyyətli mexanizm ola bilər.

R.Məmmədov Türk Şurası ölkələri arasında iqtisadiyyatın bir çox sahələrində, o cümlədən ticarət və investisiya, kiçik və orta biznes, enerji, nəqliyyat, kənd təsərrüfatı və qida istehsalı, sənaye, təhsil, turizm, İKT, maliyyə sahələrində əməkdaşlıq imkanlarının geniş olduğunu bildirib, işgüzar dairələri bu imkanlardan yararlanmağa və qarşılıqlı faydalı birgə layihələri həyata keçirməyə dəvət edib.

TDƏŞ-in baş katibi Bağdad Amreyev çıxışında bildirib ki, Türk Şurası ölkələrimiz arasında inteqrasiyanın daha da gücləndirilməsinə, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə önəmli töhfələr verir. Baş katib Bakıda keçirilən biznes forumun təşkilata üzv ölkələrin biznes dairələri arasında işgüzar əlaqələrin inkişafı baxımından əhəmiyyətini vurğulayıb.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev son illər Azərbaycanda genişmiqyaslı iqtisadi islahatların həyata keçirildiyini, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülmüş işlərin ölkə iqtisadiyyatının, o cümlədən sahibkarlığın inkişafına müsbət təsir göstərdiyini qeyd edib.

Tədbirdə Qazaxıstanın Baş Nazirinin müavini Berdıbek Saparbayev, Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto, Özbəkistanın İnvestisiyalar və Xarici Ticarət naziri Sardor Umurzakov, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasının prezidenti Rifat Hisarcıklıoğlu, AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədov, Qırğızıstanın Ticarət və Sənaye Palatasının sədri Marat Şarşekeyev, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramov, Türkiyə Respublikası Prezidenti yanında İnvestisiyalar Ofisinin layihə direktoru Fərruh Parmaksız və digər iştirakçılar çıxış edərək TDƏŞ çərçivəsində təşkilata üzv ölkələr arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi imkanlarına dair fikirlərini bölüşüb, təkliflərini bildiriblər.

Biznes forumda, həmçinin Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Qazaxıstanın Sahibkarların Milli Palatası (Atameken), Qırğız Respublikasının Ticarət və Sənaye Palatası, Macarıstan Ticarət və Sənaye Palatası və Türkiyə Odalar və Borsalar Birliyi (TOBB) arasında əməkdaşlığa dair anlaşma memorandumları, AZPROMO ilə Macarıstan İxracın Təşviqi Agentliyi (HEPA) arasında anlaşma memorandumu, "Ziraat Bank Azərbaycan" ASC və "Türkiye İhracat Bankası" (TurkEximBank") arasında əməkdaşlığa dair kredit müqaviləsi, KOBİA ilə Macarıstanın İxracın İnkişafı Agentliyi, Türk Katılım Bankları Birliyi (TKBB), Özbəkistanın İqtisadiyyat və Sənaye Nazirliyinin tabeliyində Kiçik Biznes və Sahibkarlığın İnkişafı Agentliyi arasında anlaşma memorandumları imzalanıb. Bundan başqa, tədbirdə KOBİA ilə "Ziraat Bank Azərbaycan" ASC və "Türkiye İhracat Bankası" arasında əməkdaşlığa dair niyyət protokolu, Özbəkistan Ticarət və Sənaye Palatasının Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasının üzvlüyünə dair protokol, Macarıstan Ticarət və Sənaye Palatasının Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasında müşahidəçi statusuna dair protokol, Azərbaycanın "Azərmaş" ASC və Özbəkistanın "Uzavtosanoat" şirkəti arasında Azərbaycanda avtomobillərin yığılması barədə anlaşma memorandumu, Azərbaycanın "Mətanət A" şirkəti ilə Özbəkistanın Kaşkada vilayəti arasında niyyət və qarşılıqlı əməkdaşlıq sazişi imzalanıb.

Forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər keçirilib, əməkdaşlığın genişləndirilməsi və yeni əlaqələrin qurulması məsələləri müzakirə edilib.

# Neft Daşlarında unudulmaz görüşlər

## Dövlət başçısının dəniz şəhərinə hər səfəri bayrama çevrilir







**"Mən hər bir azərbaycanlının Prezidentiyəm" deyən dövlət başçısı İlham Əliyev neftçilərin də böyük dostu və qayğıkeşi olduğunu dönə-dönə əməli işlərlə sübut edib.**



*Foto A.MƏMMƏDOVUNDUR*

"Neftçi peşəsi Azərbaycanda həmişə çox hörmətli peşə olub. Bu gün də belədir, sabah da belə olacaq. Azərbaycan neftçiləri ölkəmizin iqtisadi qüdrətinin artırılması istiqamətində çox böyük işlər görüblər, böyük töhfələr veriblər. Bu gün Azərbaycanın neft-qaz sektoru öz yeni inkişaf dövrünü yaşayır" deyən Azərbaycan Prezidenti təbiətin xalqımıza bəxş etdiyi əvəzsiz neməti yayın qızmarında və qışın şaxtasında torpağın təkindən, dənizin dibindən minbir əziyyətlə üzə çıxaran qəhrəman neftçilərin əməyini həmişə belə yüksək qiymətləndirir.

Bu münasibəti Neft Daşlarında çalışan çoxsaylı neftçilər ailəsi də yaxından hiss edir. Vaxtilə Ulu Öndər Heydər Əliyevin çox sevdiyi, dəfələrlə səfər etdiyi, hər zaman qayğı göstərdiyi bu əfsanəvi dəniz şəhəri və burada çalışan fədakar insanlar daim Prezident İlham Əliyevin də diqqət mərkəzindədir.

"Neft Daşlarında işləyən hər bir kəs ən böyük hörmətə layiq bir insandır. Orada işləməyən, oranı görməyən, oranı ziyarət etməyən insan bunu təsəvvür edə bilməz". Bu sözlər Ümummilli Lider Heydər Əliyevə məxsusdur. Ulu Öndər dəfələrlə Neft Daşlarında olmuşdu və bu ənənə Prezident İlham Əliyev tərəfindən də davam etdirilir.

Dövlət başçısının dəniz şəhərinə hər gəlişi böyük bayrama çevrilir. Prezident neftçilərin işi, məişət şəraiti, istirahəti ilə maraqlanır. Həm də təkcə dəniz şəhərində olanda deyil, digər yerlərdə neft sənayesi ilə bağlı keçirilən bütün tədbirlərdə onları salamlayır, hal-əhval tutur. Neft Daşlarını "qocalmağa" qoymayan da bu diqqət və qayğıdır. "Möcüzələr adası" yaşa dolduqca cavanlaşır. Köhnəlib sıradan çıxan estakadaların əvəzinə yeniləri tikilir, yeni özüllər və estakadayanı meydançalar istifadəyə verilir. Yeni texnika və texnologiyaların tətbiqi neftçilərin əl əməyini yüngülləşdirir, fiziki əziyyətini azaldır.

Prezident İlham Əliyevin sərəncamları ilə fəxri ad alan, orden və medallarla təltif olunan neftçilər arasında Neft Daşlarının da onlarca əməkçisi var.

Neft Daşlarına qayğı neftçilərin məişətində də özünü göstərir. Onların yaşadığı təmirli yataqxanaların otaqları soyuducu, televizor, kondisioner, isti və soyuq su ilə təchiz olunub. Neft Daşlarında tibb-sanitariya hissəsi, yeməkxana, çayxana, çörək zavodu, idman zalları, park və s. fəaliyyət göstərir. Bunların bir çoxu son onilliklərdə gerçəkləşib və əlbəttə ki, dövlətin, şəxsən dövlət başçısının Neft Daşlarına və onun əməkçilərinə diqqətindən qaynaqlanır.

10 il əvvəl neftçilər burada Heydər Əliyev Muzeyi yaradıblar. Muzeydə Ulu Öndər Heydər Əliyevin neft strategiyasının uğurla davam etdirildiyini göstərən eksponatlar da geniş yer alıb. 2009-cu ilin noyabrında Prezident İlham Əliyev Neft Daşlarının 60 illik yubileyində iştirak edərkən muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

Dəniz neftçiləri Prezidentin Neft Daşlarına həmin səfəri haqqında xoş təəssüratla danışırlar. Deyirlər ki, dövlət başçısı onlar üçün yaradılmış yeni idman zallarındakı şəraitlə maraqlandı, burada quraşdırılmış müasir trenajorlar, stolüstü tennis və bilyard stolları, yəni bütün avadanlıqları gördükdən sonra neftçilərin sağlamlığının möhkəmləndirilməsi üçün görülən tədbirlərdən razı qaldı.

Həmin gün Prezident "28 May" Neft və Qazçıxarma İdarəsinin qazın ilkin hazırlanması, nəqli və kompressor təsərrüfatı sexində 2 nömrəli sıxıcı kompressor stansiyasının açılışını da etdi. Bu, mühüm əhəmiyyət daşıyan bir stansiyadır, belə ki, "Günəşli" yatağından gələn səmt qazını iki pillədə sahilə ötürür.

Neftçilər də Prezidentə qazandıqları nailiyyətlərdən söhbət açdılar və bildirdilər ki, bunlar heç də son hədd deyil.

Mütəxəssislərin fikrincə, Neft Daşları yatağının çıxarıla bilən qalıq neft ehtiyatı bundan sonra da əhəmiyyətli dərəcədə artırıla bilər və bu istiqamətdə perspektiv proqramlar işlənib həyata keçirilir. Həmin proqramlar əsasında əlavə hidrotexniki qurğular tikilir, texnoloji obyektlər təmir və bərpa edilir, yeni quyular qazılır, neft hasilatının artırılması üçün elmi-tədqiqat və sınaq-təcrübə işləri aparılır. Dəniz şəhərində eləcə də silsilə ekoloji proqramlar həyata keçirilir. Gündəlik gücü 500 kubmetr olan bioloji təmizləmə qurğusu yenidən qurulub.

Yeraltı təmir sexinin ustası Tofiq Dadaşov Prezidentə bildirib ki, uzun illərdir Neft Daşlarında çalışır və buradakı köklü inkişafın canlı şahididir. O, dəniz şəhərinin tanınmaz dərəcədə dəyişdiyini, müasirləşdiyini, neft hasilatında ən müasir texnologiyaların tətbiq edildiyini söyləyib.

Neft və Qazçıxarma İdarəsinin istehsalat şöbəsinin mühəndisi İqbal Xancıqazov ölkədə gənc neftçilərin peşə hazırlığına yönəldilən diqqətə görə minnətdarlığını və göstərilən etimadı doğruldacaqlarını bildirib.

SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə isə Neft Daşlarında çalışdığı illəri xatırlayıb. O, Ulu Öndərin Azərbaycanın neft-qaz sənayesinin inkişafında əvəzsiz xidmətlərini ətraflı xarakterizə edib. Xoşbəxt Yusifzadə respublikamızın neft-qaz sənayesinin inkişafında, eləcə də "Əsrin müqaviləsi"nin araya-ərsəyə gətirilməsində Prezident İlham Əliyevin böyük xidmətləri olduğunu vurğulayıb.

Həmin gün Prezident İlham Əliyev həmişə olduğu kimi, neftçilər qarşısında yenə də dərin məzmunlu nitq söylədi. Xəzərin fatehlərinin ünvanına söylənən xoş sözlər əvvəlki səfərlər kimi bu görüşü daha yaddaqalan etdi.

Neftçilər Prezident İlham Əliyevin "Neft Daşları hələ uzun illər Azərbaycana çox ləyaqətlə xidmət edəcəkdir" sözlərini öz işləri, fəaliyyətləri üçün bir şüara çevirərək onları böyük bir plakat üzərinə həkk edib nəhəng qurğuların yuxarı hissəsində yerləşdiriblər. Neft Daşlarının ehtiyatları həqiqətən də hələ çox və onları dənizin dərin qatlarından üzə çıxaran fədakar Xəzər neftçisinin əzmi böyükdür.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Azərbaycanın və Qazaxıstanın daxili işlər orqanları arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Qazaxıstan Respublikasının Daxili İşlər naziri, polis general-leytenantı Erlan Turqumbayevin başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 14-də Erlan Turqumbayev və onu müşayiət edən şəxslər Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin abidəsi önünə əklil qoyub, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər çiçəklər düzülüb.

Dost ölkənin təmsilçiləri Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş mərd mübarizlərin məzarlarını da ziyarət edib, onların xatirəsinə ucaldılmış "Əbədi məşəl" kompleksinin önünə əklil qoyublar.

Həmin gün Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov qazaxıstanlı həmkarının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



V.Eyvazov Daxili İşlər naziri vəzifəsinə təyin olunması münasibətilə polis general-leytenantı Erlan Turqumbayevi təbrik edərək, bu səfərin əməkdaşlığın daha da möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini bildirib. Xalqlarımızı sıx dostluq, qarşılıqlı inam və hörmət tellərinin bağladığını, ölkələrimiz arasındakı əlaqələrin daim strateji tərəfdaşlıq xarakteri daşıdığını xatırladan nazir dövlətlərimizin başçılarının müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq son illər bütün sahələrdə dinamik inkişafın müşahidə edildiyini, bu kontekstdə Azərbaycan və Qazaxıstan Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın daha da dərinləşdiyini, sahələrarası səmərəli işbirliyinin yeni məzmun kəsb etdiyini diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov ikitərəfli əlaqələrin, xüsusilə də transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə səylərin, qabaqcıl təcrübə və operativ informasiya mübadiləsinin, həmçinin yaradılmış normativ-hüquqi bazanın, ilk növbədə xalqlarımızın və dövlətlərimizin mənafelərinə, bölgədə təhlükəsizliyin təmininə xidmət etdiyini vurğulayıb.

Qonaqlara müstəqilliyin ilk illərində üzləşdiyimiz problemlər, torpaqlarımızın işğalı, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, qəbul edilmiş yeni qanunlar barədə məlumat verilib, sabitliyin yaradılması və onun dönməzliyinin təmini, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində görülən işlər barədə qısa məlumat verilib.

Qazaxıstan Respublikasının Daxili İşlər naziri, polis general-leytenantı Erlan Turqumbayev yüksək qonaqpərvərliyə və ətraflı məlumata görə azərbaycanlı həmkarına təşəkkürünü bildirib. E.Turqumbayev ölkəsindəki mövcud kriminogen durum, cinayətkarlıqla mübarizənin vəziyyəti, ictimai asayişin mühafizəsi, insan hüquq və azadlıqlarının müdafiəsi, DİN sistemində həyata keçirilən islahatlar, əməliyyat-xidməti fəaliyyətin daha da təkmilləşdirilməsi və digər sahələrdə görülən işlər, həyata keçirilən islahatlar barədə ətraflı məlumat verib. O, rəhbərlik etdiyi qurumun Azərbaycanın Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduğunu və səfərin bu məqsədə xidmət edəcəyinə əminliyini bildirib.

Səmimi və işgüzar şəraitdə keçən görüşdə tərəfləri maraqlandıran digər məsələlər barəsində də ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov da iştirak edib.






# Gənclik






● Gənclər siyasəti

**Gənclik daim axtarışda olan, yeniliklərə açıq aparıcı qüvvədir. Bir çox mütərəqqi meyillər cəmiyyət həyatına məhz gənclər vasitəsilə daxil olur, onların əzmkarlığı sayəsində uğur qazanır. Ona görə də gəncliyin hərtərəfli inkişafına dəstək verən hər bir dövlət bununla uğurlu gələcəyinə sərmayə qoyur.**



## Gələcəyə dəstək

Azərbaycanda gənclərə qayğı, onların fiziki və mənəvi sağlamlığının diqqətdə saxlanması, fərdi inkişafının, məşğulluğunun, ölkənin ictimai həyatında fəal iştirakının təmin olunması həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindəndir. Bu sahədə ardıcıl işlər görülür, Azərbaycanın hər bir gəncinin dövlətin yaratdığı imkanlardan faydalana bilməsi üçün müvafiq addımlar atılır. Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 1 oktyabr 2019-cu il tarixli sərəncamı da buna daha bir nümunədir.

Sərəncama əsasən, yeniyetmə və gənc vətəndaşların hərtərəfli inkişafının təmin olunması və Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətçilik fəlsəfəsini, azərbaycançılıq məfkurəsini gənc nəslin daha dərindən mənimsəməsi işinə töhfə verilməsi məqsədilə ölkənin şəhər və rayonlarında fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərində Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəlikləri yaradılacaq. Nümayəndəliklərin təşkili və fəaliyyətinin təmin edilməsi üçün Gənclər Fonduna 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan 4 milyon manat vəsait də ayrılıb.

2013-cü il fevralın 7-də yaradılmış Gənclər Fondunun əsas məqsədi gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirməkdən, həmin sahədə konfrans, seminar, festival, olimpiada və digər tədbirlərin təşkilindən, habelə gənclərə maliyyə köməyi nəzərdə tutan layihələri dəstəkləməkdən ibarətdir.

Fond indiyə qədər öz fəaliyyət istiqamətləri üzrə bir çox əhəmiyyətli işlər görüb. Gənclərlə bağlı aparılan dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində, gənclər siyasəti sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında, elmi-tətbiqi, sosial əhəmiyyətli və idarəetmə sahəsi ilə bağlı innovativ ideyaların dəstəklənməsində yaxından iştirak edib.

Azərbaycan Prezidentinin 1 oktyabr 2019-cu il tarixli sərəncamına əsasən Gənclər Fondu xətti ilə şəhər və rayonlarımızda Gənclərin İnkişaf və Karyera Mərkəzinin nümayəndəliklərinin yaradılması da onların fərdi inkişafı və məşğulluğunun təmin olunması baxımından son dərəcə əhəmiyyətli yenilikdir. Bu yenilik dövlət gənclər siyasətinin ümumi məzmununu əks etdirməklə yanaşı, həm də Azərbaycan gəncliyinə olan böyük inamın göstəricisidir.

Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qüdrətli dövlətə çevrilməsi yolunda görülən işlərdə gənclərə yüksək etimad göstərir və Azərbaycan gəncliyindən böyük dəstək alır.

### Gənclər siyasətinin uğurları

Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan gəncliyi ilə bağlı müəyyən etdiyi dövlətçilik kursu ötən illər ərzində zəngin bir tarix formalaşdırıb. Bu, Azərbaycan gəncliyinin ayrı-ayrı firqələrin təhlükəli oyunlarından qurtuluşu, dövlət maraqları ətrafında bir araya gəlməsi, dünyanın mütərəqqi inkişaf meyillərinin bir hissəsinə çevrilməsi, elm, təhsil, innovativ gələcəyin qapılarının Azərbaycan gəncliyinin üzünə açılması tarixidir.

Təsadüfi deyil ki, bütün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə məhz Azərbaycanda gənclərlə bağlı ayrıca bir gün - Gənclər Günü təsis edilmişdir. Hər il fevralın 2-də ölkəmizdə Gənclər Günü qeyd olunur. Bu faktın özü Ulu Öndər Heydər Əliyevin gəncliyə nə qədər böyük dəyər verdiyini, Azərbaycan gəncliyinin timsalında cəmiyyətimizin gələcəyinə aydın baxışlarını parlaq əks etdirir.

Prezident İlham Əliyevin formalaşdırdığı milli dövlətçilik irsi də bu cür əlamətdar məqamlarla zəngindir. 2007-ci il ölkəmizdə "Gənclər ili" elan edildi. Bundan əvvəl və sonrakı illərdə Azərbaycan gəncliyi ilə bağlı xüsusi dövlət proqramları təsdiqlənərək uğurla icra olundu. Bu proqramlar çərçivəsində həyata keçirilən çoxşaxəli tədbirlər sayəsində dövlət gənclər siyasətinin prioritet sahələri üzrə çox böyük kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi, nəzərəçarpacaq nailiyyətlər əldə olundu.

Gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində aparılan davamlı iş və bununla cəmiyyətimizdə getdikcə yüksələn ruh, istedadlı, yaradıcı gənclərə dövlət qayğısının artırılması, gənclərin təhsil, karyera imkanlarının genişləndirilməsi, ümumiyyətlə bu yöndə görülmüş ardıcıl işlər bəhrəsini verməkdədir.

### Strateji baxış

Bu gün Azərbaycanda gənclərin məşğulluğu sahəsində beynəlxalq təcrübəyə əsaslanan fəaliyyətlər inkişaf etdirilir. Gənclərin öz faydalı ideyalarını reallaşdıra bilmələrindən ötrü zəruri ekosistem formalaşdırılır. Xüsusilə regionlarda yaşayan gənclərin fəallığını stimullaşdıran tədbirlər intensiv xarakter daşıyır. Ölkəmizin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılır. Gənclər mühüm dövlət vəzifələrinə irəli çəkilir. Dövlətin qayğısı sayəsində ölkəmizdəki gənclər təşkilatlarının hüquqları genişləndirilir, onların layihə və proqramlarına mütəmadi dəstək verilir.

Azərbaycan Prezidentinin 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da bu sahədə mühüm tarixi əhəmiyyət daşıyan dövlət sənədidir.

Burada gəncliyin inkişafı dövlətin sosial siyasətinin vacib tərkib hissələrindən biri kimi təsbit edilib. Strategiyaya uyğun olaraq gənclərin dinamik inkişafı üçün kompleks halda həyata keçirilən tədbirlərin əhatəsi böyüyür. Dünyada baş verən qlobal dəyişikliklər və çağırışlar fonunda Azərbaycan gəncliyinə yeni imkanlar yaradılır.

Gənclərin sosial problemlərinin həlli istiqamətində də mühüm işlər görülür. Burada hər zaman gənclərə dəstək olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fədakar əməyini də xüsusi qeyd etmək lazım gəlir.

Mehriban xanımın təşəbbüskarı olduğu layihələr sayəsində Azərbaycan gəncliyi oxumaq, öyrənmək, özünü inkişaf etdirmək, uğurlu karyera qurmaq üçün əlverişli mühit qazanır. Bu irimiqyaslı layihələrin, mühüm dövlət tədbirlərinin reallaşdırılmasına gənclərimiz fəal şəkildə cəlb olunur.

Mehriban xanım Əliyevanın hər zaman diqqətdə saxladığı kimsəsiz uşaqların və gənclərin cəmiyyətə inteqrasiyası, sosial problemlərinin həlli, onların həyatda öz yerini tutması, layiqli vətəndaş kimi yetişməsi istiqamətində gördüyü işlər də mühüm ictimai dəyər daşıyır.

### Dəyərlərimizə sevgi

Bu gün ölkə rəhbərinin, ümumən cəmiyyətimizin gənclərimizdən əsas gözləntisi yüksək vətənpərvərlik ruhu, milli-mənəvi dəyərlərimizə sadiqlik, elmin, təhsilin gücü ilə insan kapitalının inkişafına töhfə vermələridir. Gənclərlə görüşlər zamanı Prezident İlham Əliyevin onlara başlıca tövsiyələrindən biri məhz təhsillə bağlı olur: "Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar".

Azərbaycan Prezidenti gənclərimizin milli, vətənpərvərlik ruhunda tərbiyə almalarını vacib sayır. Çünki əsrlər boyu başqa dövlətlərin, imperiyaların tərkibində bizim milli ruhumuzu, kimliyimizi qoruyan məhz dəyərlərimiz olub. Bu dəyərlərimizi - ana dilimizi, mədəniyyətimizi, ədəbiyyatımızı, incəsənətimizi, adət-ənənələrimizi qlobal təsirlərdən qorumaq müstəqil Azərbaycan gəncliyinin də ümdə vəzifələrindəndir. Gələcəkdə dövlətimizin, xalqımızın milli maraqlarını yalnız milli ruhda yetişmiş gəncliyimiz qoruya bilər.

"Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir" deyir Prezident İlham Əliyev. Həm də əlavə edir: "Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər".

Bu siyasət Azərbaycanda yüksək vətənpərvərlik ruhuna malik gənc nəsil yetişdirib. Onlar milli istiqlalımız, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhunun daşıyıcılarıdır.

### Başlıca vəzifə milli maraqları qorumaqdır

Ölkə Prezidentinin həyata keçirdiyi siyasət Azərbaycan gəncliyinə milli-dini dözümlülük, sülhsevərlik, humanizm kimi ali dəyərlər aşılayır. Gənclərin sağlamlığının qorunması və möhkəmləndirilməsi qayğısına qalır, gözəl həyat tərzini təbliğ edir. Gənc alim və tədqiqatçıların fəaliyyətini dəstəkləyir, gəncləri elmə həvəsləndirir. Ali və orta ixtisas təhsili müəssisələrində tələbələrin mütərəqqi ideya və təşəbbüslərini dəstəkləyir. Onların bilik və bacarıqlarının inkişafına kömək göstərir. Müxtəlif startap ideyalarına malik gənclərin sahibkarlıq və məşğulluq imkanlarının artırılmasına meydan verir. Ölkədə gənclərin könüllülük hərəkatını genişləndirir, beynəlxalq mübadilə və mədəniyyətlərarası dialoqda iştirakını dəstəkləyir, xüsusi qayğıya ehtiyacı olanların cəmiyyətə inteqrasiyasını təmin edir.

Bütün bunları özündə birləşdirən gənclər siyasəti Azərbaycanı milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə çatdırmış Prezident İlham Əliyevin yerinə yetirdiyi tarixi missiyadır. Formalaşan milli düşüncə bizləri əməllərə çağırır, iş görməyə, Azərbaycanın qüdrətini artırmağa səsləyir.

İstənilən beynəlxalq toplantıların ali tribunalarından Azərbaycanın haqq səsini dünyaya bəyan edən, əsl həqiqətləri faktlarla, sübutlarla ortaya qoyan Prezident İlham Əliyev bu günlərdə Soçiyə səfəri zamanı da prinsipial siyasətinə sadiq qalaraq bir daha Ermənistana çox ciddi xəbərdarlıq etdi. Bu ölkənin baş nazirinin səsləndirdiyi məsuliyyətsiz bəyanatının üstündən xətt çəkdi. Müzakirələrin kulminasiyası isə Prezident İlham Əliyevin müdrik, düşünülmüş NİDA cavabı oldu. Bu, nəinki ermənilərə, eyni zamanda onların himayədarlarına da sərt və tutarlı cavab kimi tarixə düşdü. Bununla da Azərbaycanın Prezidenti prinsipial mövqeyini bir daha dünyaya bəyan etdi.

### "Gənclər, mən sizə inanıram, güvənirəm"

Həyat, təbii ki, daim inkişafdadır. Davamlı inkişaf prosesləri Azərbaycanda sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin daha fəal iştirakını təmin etmək istiqamətində aparılan işlərin də yeni səviyyəyə yüksəldilməsini aktuallaşdırır. Dövlət rəhbərinin Azərbaycan gəncliyi ilə bağlı yeni qərarları, müəyyən etdiyi vəzifələr də məhz bu mərama xidmət göstərir, ölkəmizin, cəmiyyətimizin inkişafı üçün gəncliyin enerjisindən, yenilikçi potensialından məqsədyönlü şəkildə istifadə zərurətini önə çəkir.

Azərbaycan Prezidentinin gəncliyimizə xitabən söylədiyi bu kəlmələr də qloballaşan dünyamızda hər bir Azərbaycan gəncinin şərəflə daşımalı olduğu mənəvi missiyadır: "...Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm".

Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə müraciəti onun gələcəyə ünvanlanmış çağırışıdır.

Vətənin sabahı bu inamdan, bu güvəndən başlanır!

Azərbaycan gəncliyi hər zaman ona olan bu etibarı, bu sadiqliyi doğruldur və bundan sonra da doğruldacaqdır!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● İnsan kapitalı

## Gənc alimlərin inkişafına xüsusi diqqət göstərilir

**İntellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin qurulması müasir Azərbaycan dövlətinin strateji hədəflərindən birini təşkil edir. Bu cəmiyyətin əsas işçi qüvvəsi isə innovativ təfəkkürlü perspektivli gənclik olmalıdır. Gənc nəsil hər bir cəmiyyətin aparıcı qüvvəsidir və bu qüvvəni yüksək intellekt, elm və təhsillə reallaşdırmaq lazımdır.**



Ölkəmizdə gənclərlə bağlı aparılan siyasət Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən birini təşkil edir. Ulu Öndər Heydər Əliyevin işləyib hazırladığı və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasəti sayəsində beynəlxalq aləmdə formalaşmış Azərbaycan modeli daha da güclənir.

Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını öz üzərində xüsusi olaraq hiss edir. Prezident İlham Əliyev tərəfindən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncamın imzalanması bunun əyani təzahürüdür. Qürurverici haldır ki, bu gün Azərbaycan gəncləri öz elmi səviyyələri, bilik və bacarıqları ilə artıq beynəlxalq aləmdə tanınır və qəbul olunurlar.

Mən 1980-ci ildə Qusar rayonunun Həzrə kəndində anadan olmuşam. 1997-ci ildə orta məktəbi fərqlənmə attestatı ilə bitirərək Bakı Dövlət Universitetinin Biologiya fakültəsinə daxil olmuşam. Həm bakalavr, həm də magistr pilləsini fərqlənmə diplomları ilə bitirmişəm. 2003-cü ildən AMEA Botanika İnstitutunun Məhsuldarlıq proseslərinin molekulyar-genetik əsasları şöbəsində baş laborant vəzifəsinə işə götürülmüşəm, təhsilimi başa vurduqdan sonra kiçik elmi işçi kimi çalışmışam. Qısa zaman müddətində çalışqanlığıma və əldə etdiyim uğurlara görə elmi işçi vəzifəsinə keçirilmişəm. 2004-2014-cü illərdə Bioloji məhsuldarlığın fundamental problemləri şöbəsində elmi işçi, 2014-2016-cı illərdə böyük elmi işçi kimi fəaliyyət göstərmişəm. 2016-cı ildən bu günə kimi isə yeni yaradılan AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışıram. Eyni zamanda 2017-ci ildən ictimai əsaslarla institutun Təhsil şöbəsinin müdiri vəzifəsini icra edirəm.

2011-ci ildə molekulyar biologiya ixtisası üzrə "Buğda (Triticum L.) genotiplərinin quraqlığa davamlılığının molekulyar və biokimyəvi mexanizmləri" mövzusunda dissertasiya işini müdafiə edərək biologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışam. 2015-ci ildə molekulyar biologiya ixtisası üzrə elmlər doktoru hazırlığı proqramı üzrə dissertanturaya daxil olmuşam. Hazırda "Buğda genotiplərinin quraqlığa davamlılığa cavabdeh genlərinin ekspressiyasının tənzimlənməsində DREB transkripsiya faktorlarının rolu" mövzusunda doktorluq dissertasiyası üzərində işləyirəm. Aldığım nəticələr nüfuzlu beynəlxalq jurnallarda, "Springer", "Nova Publisher", "Wiley" kimi nəşrlərdə çap olunmuş, bir sıra yerli və beynəlxalq konfranslarda (Türkiyə, ABŞ, Hindistan, Almaniya, Rusiya, Avstraliya və s.) təqdim edilmişdir. 2017-ci ildə mənə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən molekulyar biologiya ixtisası üzrə dosent elmi adı verilmişdir. 70-dən artıq elmi əsərin müəllifiyəm.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2013-cü il gənc alim və mütəxəssislər üçün keçirilən 2-ci müsabiqənin qalibi olmuş layihənin rəhbəri və bir sıra layihələrin iştirakçısı olmuşam.

2009-cu ildə Avropa Biokimyaçılar Cəmiyyətinin gənc tədqiqatçılar üçün elan etdiyi qrant müsabiqəsinin qalibi olaraq Türkiyənin Antalya şəhərində keçirilən seminarda, 2015-ci ildə Avstraliyanın Sidney şəhərində keçirilən "Borlaug Global Rust Initiative" Beynəlxalq konsorsiumun seminarında elmi iş təqdim etmişəm. 2016-cı ildə ABŞ Dövlət Təhsil və Mədəniyyət işləri üzrə Büronun elan etdiyi İVLP proqramının qalibi kimi elmin inkişafı və populyarlaşdırılması ilə yaxından tanışlıq məqsədilə Nyu York, Klivlənd və Mayami şəhərlərində ezamiyyətdə olmuşam.

Bu ilin iyun-sentyabr aylarında "AMEA alimlərinin Avropada postdoktoral elmi tədqiqatlarının tamamlanması" üzrə keçirilən müsabiqənin qalibi kimi 3 ay müddətində Almaniyanın Bonn Universitetinin Bitkiçilik Elmi və Resurslarının Mühafizəsi İnstitutunda (INRES) Bitkilərin genetikası və biotexnologiyası departamentində elmi ezamiyyətdə olmuşam. Tədqiqatlar zamanı elm üçün maraqlı nəticələr əldə etmişəm.

Təhsil naziri Ceyhun Bayramovun müvafiq əmrinə əsasən elm və təhsilin inkişafı sahəsində səmərəli fəaliyyətlərinə görə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmiş AMEA-nın əməkdaşlarından biri də mən olmuşam.

Ölkə rəhbərinin elmə diqqəti və biz gənclərə olan qayğısının nəticəsidir ki, bu gün Azərbaycan Milli Elmlər Akademiyasında uğurlu elmi fəaliyyəti olan gənc alimlər çoxdur. Ölkədə həyata keçirilən islahatların bəhrəsidir ki, artıq gənc alimlər AMEA-nın elmi-ictimai fəaliyyətində aktiv iştirak edir, onların elmmetrik göstəriciləri yüksəlir, dünyanın nüfuzlu, yüksək istinad indeksli jurnallarında dərc olunan məqalələrinin sayı gündən-günə artır. AMEA-da gənc alimlərin dünya elminin inkişaf tendensiyaları nəzərə alınmaqla, müasir multidissiplinar tədqiqatlar aparmaları üçün hər cür şərait yaradılır. Biz də göstərilən bu etimadları doğrultmaqdan ötrü vətənimizin gələcəyi üçün, elmimiz üçün var qüvvəmizlə çalışırıq. Akademik elmimizin gənc əsgərləri olaraq hər zaman dövlətimizin yanındayıq.

***Samirə RÜSTƏMOVA,***
***AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, dosent***

● Əllərin məharəti, könüllərin hərarəti

## Əlil arabasında rəqs və səma cəngavəri...

**Müasir dünyada vətəndaş cəmiyyətinin inkişafına yönəlmiş sosial siyasətin istiqamətlərindən biri əlilliyi olan insanlara qayğı göstərilməsi, onların potensiallarının, bacarıq və qabiliyyətlərinin dəstəklənməsi, "məhdudiyyətli"lərin "sərhədsiz" imkanlarının, istedadlılarının tanıdılmasından ibarətdir.**





Azərbaycan dövləti bu sahəni daim diqqət mərkəzində saxlamağı vacib hesab edir, əlilliyi olan şəxslərə onların istedadlarının inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Onların fəallıqlarını təmin etməklə, digərləri ilə yanaşı addımlamalarına, hər yerdə "biz də varıq" sözlərini uca səslə söyləmələrinə dəstək verir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlilliyi olanların asudə vaxtlarının dəyərləndirilməsi istiqamətində də mühüm layihələr həyata keçirir.

Belə gənclərdən biri də Vüsalə Akif qızı Kərimovadır. O, 1987-ci ildə Bakıda anadan olub. Hərəkət məhdidiyyətinin heç nəyə mane ola bilməyəcəyini öz timsalında görən Vüsalə xanım Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdindəki Əlil İdmançıları Dəstəkləmə Cəmiyyətinin sədridir. 2012-ci ildə Belarusun paytaxtı Minskdə keçirilən təkərli arabalarla idman rəqsləri üzrə dünya çempionatında bürünc medala layiq görülüb.

Vüsalə Kərimovanın daha bir uğurlu çıxışı isə Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən Qitələr Kubokunda yadda qalıb. Tərəf-müqabili Tamerlan Qədirovla Latın Amerikası rəqslərinin ikinci kateqoriyası üzrə 3-cü yerin qalibi kimi alqışlanıblar. Bir ildən sonra bu cütlük həmin proqram üzrə 1-ci yerin qalibi kimi qızıl medalın sahibi olub. Vüsalə ilə Tamerlanın qalib olduğu beynəlxalq turnir və yarışmaların sayı ildən-ilə yox, bəzən aydan-aya da artıb. Rusiya, Polşa, İtaliya, Tayvan... kimi dünyanın məşhur ölkələrində bu kateqoriyalar üzrə keçirilən yarışlarda qalib olduqca Vüsalə Kərimovanın həyata baxışı da dəyişib, əhvali-ruhiyyəsi də yüksəlib.

Vüsalə yalnız rəqslə məşğul olmur. İndi onu qılıncoynatma yarışlarında da görmək olar. Vüsalə Kərimova qılıncoynatma üzrə Azərbaycan çempionatının gümüş medal mükafatçısıdır.

Azərbaycanda ilk əlil qadın paraşütçü olan Vüsalə müxtəlif illərdə 3 dəfə Moskva və Minsk səmalarında keçirilən xüsusi yarışlarda 4 min metr yüksəklikdən tullanaraq şəhadətnamə ilə təltif edilib.

Vüsalə Kərimovanın daha yüksək mükafatı idmandakı bütün uğurlarına, Paralimpiya hərəkatının inkişafına verdiyi töhfələrə görə 2016-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə layiq görüldüyü "Tərəqqi" medalıdır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Yaradıcı gənclər

## "Ssenari nədir, necə yazılmalıdır"



**Sumqayıt Şəhər Gənclər və İdman Bas İdarəsi, Gənclər Klubunun təşkilatçılığı ilə Gənclər Evində rejissor-ssenarist Özal Abbasov tərəfindən "Ssenari nədir, necə yazılmalıdır" movzusunda təlim keçirilib.**

Məqsəd gənclərin bu sahədə biliklərə yiyələnmələri, qabiliyyət və istedadları olanların aşkara çıxarılması, öz bacarıqlarını nümayiş etdirə bilmələri üçün şərait yaradılması, həmçinin asudə vaxtlarının səmərəli keçirilməsi olub.

Təlimçi ssenarinin yazılması qaydaları, süjet xətti, müxtəlif janrlar üzrə filmin ssenarisinin tərtibatı barədə biliklərini iştirakçılarla bölüşüb.

Gənclərin yaradıcılıq potensialına dəstək olan belə layihələrin vacibliyi tədbirdə xüsusi vurğulanıb.

## *Tarix İnstitutunda dəyirmi masa:*

# Azərbaycan və Çin Böyük İpək yolunda

Oktyabrın 14-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda “Azərbaycan və Çin Böyük İpək yolunda” mövzusunda dəyirmi masa keçirilib.

AZƏRTAC xəbər verir ki, dəyirmi masada AMEA-nın Tarix İnstitutunun alimləri və Çin İctimai Elmlər Akademiyasının (ÇİEA) Dünya Tarixi İnstitutunun direktoru, professor Van Çaoquanqın rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.





Tədbiri Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov açaraq bildirib ki, rəhbəri olduğu elmi müəssisə Türkiyə, Rusiya, Çin, Bolqarıstan, Polşa, Misir və digər ölkələrin elmi qurumları ilə əməkdaşlıq edir. Azərbaycan-Çin əlaqələri qədim tarixə malikdir: “Qədim İpək yolu Şərq və Qərb sivilizasiyalarını, Çin ilə Aralıq dənizi arasındakı mədəniyyətləri bir-birinə bağlayıb. Əsrlərboyu Çin xalqı qədim tarixi ənənələri və zəngin mədəniyyəti ilə bəşər sivilizasiyasının inkişafına töhfələr verib. İnanıram ki, bugünkü tədbir Azərbaycan və Çin tarixinin qarşılıqlı araşdırılmasına öz töhfəsini verəcək” deyə Yaqub Mahmudov qeyd edib.

Akademik diqqətə çatdırıb ki, Azərbaycan Çinlə münasibətlərə həmişə xüsusi önəm verib. Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə Çinə səfəri ölkələrimiz arasında ikitərəfli münasibətlərin təməlini qoydu. Həmin vaxtdan bizim əlaqələrimiz çox uğurla inkişaf edir.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakıda tarixi İpək yolunun bərpasına həsr olunan beynəlxalq konfrans keçirilib. Konfrans Böyük İpək yolunun bərpası istiqamətində bir başlanğıc oldu.

Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycan Çinin təşəbbüsü ilə gerçəkləşən “İpək Yolu iqtisadi kəməri” layihəsinin iştirakçısıdır. 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində “İpək yolu iqtisadi kəməri”nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında anlaşma memorandumu imzalanıb.

Professor Van Çaoquanq çıxışında qeyd edib ki, Çin və Azərbaycan dost ölkələrdir. O bildirib ki, qədim İpək yolu xalqlarımız arasında dostluq münasibətlərinin əsasını qoyub. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu ilə Çinin Dünya Tarixi İnstitutu arasındakı elmi əməkdaşlıq hər iki ölkənin tarixinin araşdırılmasına mühüm töhfələr verəcək.

Çinli alim Xou Aytszyun deyib ki, Çin mənbələrində Azərbaycan və onun şəhərləri, Xəzər dənizi barədə mühüm məlumatlar var. Bu məlumatların Azərbaycan və dünya ictimaiyyətinə çatdırılmasında qarşılıqlı əməkdaşlıq böyük əhəmiyyət kəsb edir.

Tədbirdə bildirilib ki, Tarix İnstitutunda “Azərbaycan-Çin əlaqələri tarixindən” kitabı nəşr olunacaq. Kitabın müəllifləri tarixçi alimlər Nərgiz Axundova və Xou Aytszyun, elmi redaktoru isə Yaqub Mahmudovdur.

Sonda AMEA-nın Tarix İnstitutu ilə ÇİEA-nın Dünya Tarixi İnstitutu arasında hər iki ölkədə Azərbaycan-Çin əlaqələri tarixini araşdıran mərkəzlərin yaradılması barədə müqavilə imzalanıb. Müqaviləyə əsasən, bu mərkəzlərdə iki ölkə arasında qarşılıqlı əlaqələrin tarixi qədimdən müasir dövrədək araşdırılacaq. Çinli alimlərin əsərləri Azərbaycanda, azərbaycanlı alimlərin əsərləri isə Çində nəşr olunacaq. Sənədi Tarix İnstitutu tərəfindən Yaqub Mahmudov, Dünya Tarixi İnstitutu tərəfindən isə Van Çaoquanq imzalayıblar.

Qonaqlara İrəvan xanlığının, Qarabağın və Naxçıvanın tarixinə həsr olunan kitablar təqdim olunub.

Xatırladaq ki, Tarix İnstitutu Çinin Dünya Tarixi İnstitutu ilə 2015-ci ildən əməkdaşlıq edir. 2016-cı ildə isə Tarix İnstitutunda Nərgiz Axundovanın “Azərbaycan və Çin mədəniyyətlərinin tarixi əlaqələrinə dair” kitabı çap olunub.

# Mərkəzi Seçki Komissiyası seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslara başlayır

Azərbaycan Respublikasının Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın seçki komissiyalarına aid hissədə icrası ilə bağlı Mərkəzi Seçki Komissiyası (MSK) aşağı seçki komissiyalarının maarifləndirilməsi layihəsi çərçivəsində oktyabrın 15-dən paytaxt Bakıda və regionlarda seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslara başlayır.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, aşağı seçki komissiyaları üzvlərinin bələdiyyə seçkiləri ilə bağlı müxtəlif istiqamətlərdə maarifləndirilməsi məqsədi daşıyan kurslar ölkə üzrə dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrlərini əhatə edəcək. Tədris proqramına uyğun olaraq kurslarda MSK təmsilçiləri, dairə seçki komissiyalarının sədrləri, habelə yerli icra hakimiyyəti, məhkəmə, prokurorluq və polis orqanlarının rəhbər şəxsləri tərəfindən təqdimatlar keçiriləcək və müxtəlif mövzular ətrafında müzakirələr aparılacaq.

Genişmiqyaslı maarifləndirmə layihəsi olan seçki hüququ üzrə ixtisaslaşdırılmış kursların 3 gün davam etməsi və oktyabrın 17-də başa çatması nəzərdə tutulur.


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

### *açıq tenderə dəvət edir*

**“Xüsusi şərtlərlə pensiya təyinatı üçün elektron müraciət” alt sisteminin yaradılması işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, https:www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200.00 manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hh: AZ46CTRE00000000000007018504**
**Mh: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu: - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 01.11.2019 15:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 13.11.2019 15:00 tarixinə qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 13.11.2019 saat 15:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

### *açıq tenderə dəvət edir*

**Bank mübadilə interfeysinin yaradılması işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, https:www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200.00 manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hh: AZ46CTRE00000000000007018504**
**Mh: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu: - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 01.11.2019 16:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 13.11.2019 16:00 tarixinə qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 13.11.2019 saat 16:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# Dağların ilk təbib oğlu

Lerikin Xəlifəkənd kəndi Qızyurdu zirvəsinin ətəyindədir. Çox da böyük olmayan bu obanın füsunkar təbiəti var. Üç tərəfi qayalardır, ayağından kiçik çay axır. Kənd abidələri ilə də tanınır. Daş heykəllər, qutu qəbirlər, pirlər kəndin qədimliyindən xəbər verir. Ötən əsrin əllinci illərində sovet rejiminin repressiyasına məruz qalan əhalisi arana, cənub bölgəsinə səpələnir. Bir neçə il keçəndən sonra 15-20 ilə yurd yerinə dönür. Kimi əkinçiliklə, kimi heyvandarlıqla, kimi də ata-baba sənəti olan dəmirçiliklə məşğul olur. Onların arasında Molla Rəzzak da var idi.



Ağsaqqal Rəzzak kişinin birinci övladı Balağa Bağırov Lənkəran şəhərində təhsil alır. Orta məktəbi qızıl medalla bitirib Azərbaycan Tibb İnstitutuna daxil olur. Təhsil illərində fəal tələbə kimi diqqəti çəkir. Məşhur cərrah Mustafa Topçubaşovun yanında birillik kurs keçir, böyük alimdən xeyir-dua alır.

1952-ci ildə institutu fərqlənmə diplomu ilə bitirən Balağa Bağırovun təyinatı Səhiyyə Nazirliyi tərəfindən Lənkəran rayonuna verilir. O, bu təyinatı ilə razılaşmır, Lerikə göndərilməsini xahiş edir. Müraciəti nəzərə alınır. Doğulduğu diyara gəlib ilk təbib kimi rayon xəstəxanasının şöbə müdiri təyin olunur. Əmək fəaliyyətinin ilk aylarından kəndləri bir-bir gəzir, malyariyadan, traxomadan, qızılcadan əziyyət çəkən xəstələri müalicəyə cəlb edir. Gənc həkim hər ailədə hörmətlə qarşılanır, adamlar dərdlərini ona deməkdən çəkinmirlər.

1954-cü ilin mart ayında rayon rəhbərliyi Balağa Bağırova etimad göstərir, səhiyyə şöbəsinə rəhbərlik etmək barədə nazirliyə təqdimat göndərir. Təqdimat nəzərə alınır. Şöbəyə yeni təyin olunmuş lerikli müdir tibb müəssisələrində vəziyyətlə tanış olur, işçilərə əhaliyə vicdanla xidmət etməyi tapşırır.

Balağa Bağırov bir neçə kənddə xəstəxana, feldşer-mama məntəqələrinin açılması barədə nazirlik qarşısında məsələ qaldırır və həllinə nail olur. Qosmalian, Peştətük, Veri, Kirəvud kəndlərində xəstəxana, Livədirqə, Monidigah, Pirəsora, Conu kəndlərində feldşer-mama məntəqələri açılır. Kadr çatışmazlığını aradan qaldırmaqdan ötrü təkliflər verir. Tibb İnstitutuna və tibb məktəblərinə lerikli gənclər müsabiqədənkənar qəbul olunur. Onlar təhsili başa vurduqdan sonra kəndlərə dönüb işlə təmin olunurlar.

1964-cü ildə Balağa Bağırov Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun aspiranturasına qəbul olunur. Namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir. O, bu institutda klinika müdiri, direktor vəzifələrində çalışır. 1991-ci ildən ömrünün sonuna kimi baş həkimin müalicə üzrə müavini işləyir. Uzun illər səmərəli fəaliyyətinə görə orden və medallarla təltif olunur. 1986-cı ildə “Əməkdar həkim” fəxri adına layiq görülür.

Dağların təbib oğlu həm də şair-publisist idi. Qələmindən dörd kitab işıq üzü görüb. “Hər kəs yüz il yaşamasa...” kitabı Lerik uzunömürlülərinə həsr edilib.

Balağa həkim Allah adamı idi. Ahıl çağında həcc ziyarətində olmuşdu. Beş övlad atası, 13 nəvə babası 2012-ci il martın 26-da 83 yaşında dünyasını dəyişib.

Bu günlərdə Lerik rayonunun ictimaiyyəti bu diyarın ilk təbibi, tibb elmləri namizədi, Əməkdar həkim Balağa Bağırovun 90 illik yubileyini qeyd etmişdir. Ağsaqqallar, ziyalılar, elm və incəsənət adamları onun vaxtilə çalışdığı xəstəxanada xatirə lövhəsinin açılışından sonra mədəniyyət sarayına toplaşmışdılar. Tədbirdə çıxış edən mərkəzi xəstəxananın baş həkimi Mübariz Ağayev, Milli Məclisin deputatları Hüseynbala Mirələmov və Aqil Abbas, professorlar Anar İsgəndərzadə, İslam Qəribli, Əli Davudov, ağsaqqal Eldar Cəfərov, şair Ağacəfər Həsənli, kinodramaturq Eldar İsgəndərzadə, mərhumun oğlu Əlimuxtar Bağırov Balağa Bağırovun keçdiyi şərəfli ömür yolundan söhbət açmış, xatirələrini söyləmişlər.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov dövlət başçısı İlham Əliyevin elm, mədəniyyət və incəsənət adamlarına göstərdiyi diqqətdən, dünyasını dəyişən ziyalıların xatirəsinin yad edilməsindən danışmışdır.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***Əməkdar jurnalist***

## İdman

# Veteran güləşçilərimizin növbəti uğuru

Gürcüstanın paytaxtı Tbilisidə veteranlar arasında yunan-Roma güləşi üzrə XXI dünya çempionatı başa çatmışdır. 73 ölkənin idmançılarının iştirak etdiyi yarışda Azərbaycanı müxtəlif yaş qruplarında 6 güləşçi təmsil etmişdir. Onlardan üçü - Məmməd Əliyev (78 kq), Rövşən İsmayılxanlı (130 kq) və Musa Mirzəyev (130 kq) vətənə medalla qayıtmışdır.




Komandanın məşqçisi, Əməkdar bədən tərbiyəsi və idman işçisi, veteranlar arasında dünya çempionatlarının yeddiqat mükafatçısı Əlisahab Əlabbasovun dediyinə görə, hər il olduğu kimi, bu dəfə də güləşçilərimiz uğurla çıxış edərək müxtəlif əyarlı medallar qazanmışlar. 78 kiloqram çəki dərəcəsində mübarizə aparan Məmməd Əliyev yalnız finalda səkkizqat dünya çempionu C.Samuelsona məğlub olaraq gümüş medala sahib çıxmışdır. Bundan əvvəl isə o, rusiyalı V.Dodokov, finlandiyalı J.Siryaenen və moldovalı S.Coyuhari ilə qarşılaşmada çox inamlı təsir bağışlamış və rəqiblərə bir xal belə verməmişdi. Final görüşündə isə hakim ədalətli olsaydı, Məmməd Əliyev öz çəki dərəcəsində qızıl medal alacaqdı...

SOCAR-ın əməkdaşı Məmməd Əliyev uşaq yaşlarından “Dinamo” Cəmiyyətində güləşlə məşğul olmağa başlamışdır. Dəfələrlə Azərbaycan çempionu adını qazanmış güləşçi sonralar veteranlar arasında yarışlara qatılmış və nizam-intizamı, yüksək əzmkarlığı sayəsində növbəti dəfə dünya çempionatının mükafatçısı olmuşdur. O, 2015-ci ildə Yunanıstanın paytaxtı Afinada dünya çempionatının bürünc medalını qazanmışdı.

Qazandığı uğurlarda məşqçi Əlisahab Əlabbasovun əməyini qeyd edən Məmməd Əliyevin arzusu növbəti dünya çempionatını qalib kimi başa vurmaqdır.

Daha bir gümüş medalı isə komandamızın aktivinə Musa Mirzəyev yazdırmışdır. Digər tanınmış güləşçimiz - dünya çempionatlarının beşqat mükafatçısı Rövşən İsmayılxanlı Gürcüstan paytaxtında yüksək texnika və əzmkarlıq nümayiş etdirərək bürünc medala yiyələnmişdir.

***Rizvan CƏFƏROV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***


## BİLDİRİŞ

**“Azərişıq” ASC tərəfindən 18 iyul 2019-cu il** tarixdə Müxtəlif kabellərin satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən müvafiq LOT üzrə “QLOBAL-ELEKTRO” MMC şirkəti qalib elan olunmuş və satınalma müqavilələri bağlanmışdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

“Bakı Metropoliteni” QSC tərəfindən 08.10.2019-cu il tarixdə LOT 1. “Bakı Metropoliteni” QSC-nin Bilgəh sanatoriyasında, Xətai stansiyasında, Təlim Tədris Mərkəzində və Dəmir-beton Konstruksiyaları İstehsalatı sahəsində idarəetmə, paylayıcı və çıxış panellərinin quraşdırılması işlərinin satın alınmasına dair müsabiqədə **“İ.M.S. Engineering Ltd” MMC** qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 11.10.2019-cu il tarixdə ƏDV daxil 80548.53 (səksən min beş yüz qırx səkkiz manat 53 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



## BİLDİRİŞ

“Azərbaycan” qəzetinin 03 sentyabr 2019-cu il tarixli nömrəsində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına siyirtmələrin satın alınması məqsədilə dərc edilmiş tenderdə təkliflərin qəbulu və açılış tarixi iddiaçıların rəsmi müraciətlərinə əsasən dəyişdirilərək təkliflərin qəbulu 23 oktyabr saat 18:00-a, açılışı isə 24 oktyabr 11:00-a təyin edilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (agali.mirzeyev@azersu.az, tel: 431-47-67/2249).

***Tender komissiyası***



## Gəncə Regional Mədəniyyət İdarəsi 2019-cu il üçün

### *kotirovka sorğusu elan edir*

1. “Mətbəə xərcləri”nin satın alınması.
2. “Kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclər”in satın alınması.

**Əlaqələndirici şəxs: B.Y.Muradov**
**Tel.: (022) - 266-29-51**
**VÖEN: 2300144211**
**Ünvan: Gəncə şəhəri, Əttarlar küçəsi, Məhsəti Gəncəvi Mərkəzi**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzi 2019-cu il üçün dəftərxana ləvazimatlarının satın alınması ilə əlaqədar

## *kotirovkaya dəvət edir*

Kotirovka proseduru 18 oktyabr 2019-cu il saat 12:00-da Protez-Ortopedik Bərpa Mərkəzində keçiriləcəkdir. Ünvan: S.Ə.Şirvani küçəsi, 3.

**Kotirovkada iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *Azərbaycan Respublikasında və iddiaçıların öz öhdəliklərində vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *iddiaçının hüquqi statusunu təsdiq edən sənədlər, notarius tərəfindən təsdiq olunmuş;*
- *kotirovka üçün qiymət təklifləri.*

Qeyd olunan sənədlər 17 oktyabr 2019-cu il saat 18:00-a kimi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender komissiyasına təqdim edilməlidir.

İddiaçının hazırladığı kotirovka təklifi zərfə qoyulmalı və bağlı tərəfi iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.

Kotirovka təklifləri açıldığı gündən sonrakı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Kotirovka təkliflərinin qəbulu və əlavə məlumat almaq üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender komissiyasının sədrinə və yaxud əlaqələndiricisinə müraciət edə bilərlər. Tel.: (+99412) 376-80-11, mob.: (+99477) 489-90-00: email: pobm@mlspp.gov.az

Dəftərxana ləvazimatlarının satın alınmasının həyata keçirilməsi bu dəvətnaməyə əlavə edilən əsas şərtlər toplusuna əsasən aparılmalıdır.

Kotirovkada qələbə üçün əsas şərt dəftərxana ləvazimatlarının satın alınması qiyməti, keyfiyyəti və təhvil verilmə müddəti, təşkilatın aidiyyəti işlərdə təcrübəsi, istehsalçı olması, ixtisaslı kadrların mövcudluğu və professionallığı, maliyyə imkanları hesab olunur.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzi 2019-cu il üçün təsərrüfat mallarının satın alınması ilə əlaqədar

## *kotirovkaya dəvət edir*

Kotirovka proseduru 18 oktyabr 2019-cu il saat 14:00-da Protez-Ortopedik Bərpa Mərkəzində keçiriləcəkdir. Ünvan: S.Ə.Şirvani küçəsi, 3.

**Kotirovkada iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *Azərbaycan Respublikasında və iddiaçıların öz öhdəliklərində vergilərə və digər icbari ödənişlərə dair təmin edilməmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *İddiaçının hüquqi statusunu təsdiq edən sənədlər, notarius tərəfindən təsdiq olunmuş;*
- *kotirovka üçün qiymət təklifləri.*

Qeyd olunan sənədlər 17 oktyabr 2019-cu il saat 18:00-a kimi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender komissiyasına təqdim edilməlidir.

İddiaçının hazırladığı kotirovka təklifi zərfə qoyulmalı və bağlı tərəfi iddiaçı tərəfindən imzalanıb möhürlənməlidir.

Kotirovka təklifləri açıldığı gündən sonrakı 30 bank günü ərzində qüvvədə olmalıdır.

Kotirovka təkliflərinin qəbulu və əlavə məlumat almaq üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzində yaradılmış Tender komissiyasının sədrinə və yaxud əlaqələndiricisinə müraciət edə bilərlər. Tel.: (+99412) 376-80-11, mob.: (+99477) 489-90-00: email: pobm@mlspp.gov.az

Təsərrüfat mallarının satın alınmasının həyata keçirilməsi bu dəvətnaməyə əlavə edilən əsas şərtlər toplusuna əsasən aparılmalıdır.

Kotirovkada qələbə üçün əsas şərt təsərrüfat mallarının satın alınması qiyməti, keyfiyyəti və təhvil verilmə müddəti, təşkilatın aidiyyəti işlərdə təcrübəsi, istehsalçı olması, ixtisaslı kadrların mövcudluğu və professionallığı, maliyyə imkanları hesab olunur.

***Tender komissiyası***

*Təkrar*

## Lənkəran Dövlət Universiteti

## *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT 1.** Qazanxana və camaşırxananın cari təmiri

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhər H.Aslanov xiyabanı, 50 ünvanında ala bilərlər.

**İştirak haqqı: 300 (üç yüz) manat**

**Əlaqələndirici şəxs: Alxasov Samir Müseyib oğlu, telefon: (025) 255-14-80**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.**
**Lənkəran Dövlət Universiteti**
**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**

Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı, 50, Faks: (025) 255-27-86; www.lsu.edu.az:office@lsu.edu.az
İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertfikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **01 noyabr 2019-cu il saat 15:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **12 noyabr 2019-cu il saat 17:00-a** qədər Lənkəran şəhəri, Həzi Aslanov, 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **13 noyabr 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Göyçay Rayon İcra Hakimiyyəti 25 sentyabr 2019-cu il tarixə elan etdiyi kotirovka sorğusunda iştirakçıların sayının az olması ilə əlaqədar zərflərin açılış vaxtını 17 oktyabr 2019-cu il tarixə keçirir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Göyçay Rayon İcra Hakimiyyəti başçısının Müskürlü kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 25 sentyabr 2019-cu il tarixə elan etdiyi kotirovka sorğusunda iştirakçıların sayının az olması ilə əlaqədar zərflərin açılış vaxtını 17 oktyabr 2019-cu il tarixə keçirir.

***Tender komissiyası***

AZƏRLOTEREYA

# "777" ani lotereyasının şərtləri barədə məlumat

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti mütəmadi olaraq yeni-yeni layihələr hazırlayıb lotereya iştirakçılarının ixtiyarına verir. Bunlardan xüsusi olaraq ani lotereyaları qeyd etmək lazımdır.




**"Azərlotereya" ASC tərəfindən keçirilən "777" ani lotereyasının oyun qaydaları:** Lotereya biletinin üzərindəki lövhədə 3 üfüqi sıra və 3 şaquli sütun olmaqla 9 (doqquz) xana əks olunmuşdur. Oyun lövhəsinin və "bonus" xanasının qoruyucu səthlərini pozmaq lazımdır. Oyunun mahiyyəti: "üstüörtülü" oyun xanalarını pozduqdan sonra üfüqi və ya şaquli sıra üzrə 3(üç) ədəd eyni rəqəm ardıcıl olaraq əks olunarsa bilet uduşlu sayılır və uyğun xanada göstərilən uduş məbləğini qazanmış olur. Bilet bir neçə sıra üzrə uduşlu olarsa, uduşlar cəmlənir. "Bonus" xanası, udulan məbləği dəfələrlə artırmaq şansını verir (x1, x2, x4, x5). Toplam uduş, udulan məbləğin "bonus" xanasında qeyd olunmuş rəqəmə vurulması ilə müəyyən olunur. Örtülü zonalarda olan rəqəmlərin hər hansı başqa kombinasiyası biletin uduşsuz olduğunu göstərir.

| Uduşların məbləği | 10 faiz dərəcə ilə vergi tutulduqdan sonra ödəniləcək məbləğ (manatla) | Uduşlu biletlərin sayı (ədədlə) | Uduşların ümumi məbləği (manatla) |
|---|---|---|---|
| 1 manat | 1,00 | 660 000 | 660 000 |
| 2 manat | 2,00 | 180 000 | 360 000 |
| 5 manat | 5,00 | 60 000 | 300 000 |
| 10 manat | 10,00 | 15 000 | 150 000 |
| 20 manat | 19,10 | 2 000 | 40 000 |
| 50 manat | 46,10 | 1 000 | 50 000 |
| 1000 manat | 901,10 | 30 | 30 000 |
| 5 000 manat | 4 501,10 | 14 | 70 000 |
| 10 000 manat | 9 001,10 | 5 | 50 000 |
| 20 000 manat | 18 001,10 | 2 | 40 000 |
| 50 000 manat | 45 001,10 | 1 | 50 000 |

Satışa buraxılmış lotereya biletlərinin ümumi sayı: 3 000 000 (üç milyon) ədəddir. "777" ani lotereyasında uduşlu lotereya biletlərinin "Azərlotereya" ASC tərəfindən qəbulu lotereya başlandığı tarixdən başlayır və lotereya başa çatdığı tarixdən etibarən 3 (üç) il ərzində davam edir. Uduş "Azərlotereya" ASC tərəfindən uduşlu lotereya bileti qəbul edildiyi tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq verilir (ödənilir). 2 000 (iki min) manatadək olan uduşlar lotereya biletlərinin satış məntəqələri tərəfindən, 2 000 (iki min) manat və daha böyük məbləğlər Bakı şəhəri, Təbriz küçəsi 79 ünvanında "Azərlotereya" ASC tərəfindən ödənilir. Lotereyanın başa çatdığı tarix: 01.04.2022-ci il. "Azərlotereya" ASC-nin internet ünvanı www.azerlotereya.com. Lotereya biletinin üz tərəfində əks olunan "Pozmaq olmaz" yazısı pozulduğu halda bilet etibarsız sayılır və həmin bilet üzrə uduş ödənilmir. Azərbaycan Respublikası Vergi Məcəlləsinə əsasən lotereyaların keçirilməsindən pul şəklində əldə edilən uduşlardan (mükafatlardan) iştirakla bağlı ödənilən pul vəsaiti və uduş məbləğinin 10 (on) manat hissəsi çıxılmaqla qalan məbləğdən 10 faiz dərəcə ilə vergi tutulur. "777" ani lotereyası 28.02.2019-cu il tarixində AR MBNP tərəfindən qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi 161.

18+ POZ və QAZAN!

Cəmiyyət tərəfindən təşkil olunan ani lotereyalar artıq bir ənənəyə çevrilmiş və lotereya həvəskarları arasında xüsusi maraq və rəğbət qazanmışdır. "Azərlotereya" ASC-nin son layihələrindən olan "777" ani lotereyasının şərtləri və oynanılma qaydası haqqında məlumatı Sizə təqdim edirik.

"777" ani lotereya biletinin qiyməti 1 (bir) manat, ümumi tiraj isə 3 milyon ədəd təşkil edir. Lotereyanın uduş fondunun oynanılma qaydası: lotereya biletinin üzərindəki lövhədə 3 (üç) şaquli sütun olmaqla 9 (doqquz) xana əks olunmuşdur. Oyun lövhəsinin və "bonus" xanasının qoruyucu səthlərini pozmaq lazımdır. Oyunun mahiyyəti: "üstüörtülü" oyun xanalarını pozduqdan sonra üfüqi və ya şaquli sıra üzrə 3 (üç) ədəd eyni rəqəm ardıcıl olaraq əks olunarsa, bilet uduşlu sayılır və uyğun sırada göstərilən uduş məbləğini qazanmış olur. Bilet bir neçə sıra üzrə uduşlu olarsa, uduşlar cəmlənir. "Bonus" xanası udulan məbləği dəfələrlə artırmaq şansını verir. Toplam uduş, uduş məbləğin uyğun sıradakı "bonus" xanasında qeyd olunmuş rəqəmə vurulması ilə müəyyən olunur.

"777" ani lotereyasında çoxsaylı pul mükafatları lotereya iştirakçılarının yolunu gözləyir. Həmçinin "777" ani lotereyasında 30 ədəd 1000 manat, 14 ədəd 5000 manat, 5 ədəd 10 000, 2 ədəd 20 000 və 1 ədəd 50 000 manat pul mükafatı şanslı qalibini gözləyir.

Azərbaycan Respublikasının ərazisində "Azərlotereya" ASC-nin təşkil etdiyi lotereyalarda 18 (on səkkiz) yaşına çatmış şəxslər könüllü şəkildə lotereya oyununda iştirak edə bilərlər.

"Azərlotereya" ASC hər bir lotereya iştirakçısına uğurlar arzulayır.

Lotereya biletlərini əldə edin, şanslı lotereya iştirakçısına çevrilin və qalib olun!

***"Azərlotereya"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı və komitənin üzvləri akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva və institutun kollektivi şərqşünas alim, pedaqoq və ictimai xadim, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Fövqəladə Hallar Nazirliyinin rəhbərliyi və kollektivi Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin rektorluğu Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektorluğu və professor-müəllim heyəti Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müdiri, Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov və universitetin kollektivi Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Vergilər Nazirliyinin rəhbərliyi və kollektivi şərqşünas alim, Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müdiri, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru, Həmkarlar İttifaqı Komitəsi və professor-müəllim heyəti Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Ərəb filologiyası kafedrasının müdiri, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu və kollektivi Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər Yasamal Rayon Məhkəməsinin kollektivi Yasamal Rayon Məhkəməsinin hakimi Təhminə Xəlilovaya atası

**CƏMİL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tərtərdən Müstəqim Məmmədov Əməkdar elm xadimi, akademik

**VASİM MƏMMƏDƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8965
Sifariş 3447
Qiyməti 40 qəpik